AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

# Tarix, insan və cəmiyyət

*Elmi-nəzəri və elmi-metodik jurnal*

2019, 4 (27)

BAKI-2019

# Tarix, insan və cəmiyyət

Elmi-nəzəri və elmi-metodik jurnal № 4 (27), 2019

*Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən 16 aprel 2005-ci il tarixdə qeydə alınmış (№ 1279), 2005-ci ildən Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutunda nəşr edilmişdir. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən 2011-ci ildən tarix, tarixin tədrisi metodikası, 2015-ci ildən psixologiya və pedaqogika, 2017-ci ildən siyasi elmlər, antropologiya elmi istiqamətləri üzrə də "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlər siyahısı"na daxil edilmişdir.*

*2016-cı ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin təsisçiliyi ilə nəşr edilir.*

## REDAKSİYA HEYƏTİ

**Tarix üzrə elmlər doktoru, professor Cəfər Cəfərov** *(baş redaktor)*
**Fizika-riyaziyyat elmləri doktoru, professor Asəf Zamanov**
**AMEA-nın müxbir üzvü, psixologiya elmləri doktoru, professor Bəxtiyar Əliyev**
**AMEA-nın həqiqi üzvü, biologiya elmləri doktoru, professor Urxan Ələkbərov**
**AMEA-nın həqiqi üzvü, tarix elmləri doktoru, professor Yaqub Mahmudov**
**AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor Vəli Əliyev**
**Fəlsəfə elmləri doktoru, professor İzzət Rüstəmov**
**Tarix elmləri doktoru, professor Abbas Seyidov**
*(baş redaktorun müavini)*
**Tarix elmləri doktoru, professor İradə Hüseynova**
**Tarix elmləri doktoru, professor Oqtay Sultanov**
**Tarix elmləri doktoru, professor Anar İsgəndərov**
**Psixologiya elmləri doktoru, professor Ramiz Əliyev**
**Pedaqoji elmlər doktoru, professor Fərrux Rüstəmov**
**Pedaqoji elmlər doktoru, professor Rüfət Hüseynzadə**
**Sevinc Quliyeva** *(məsul katib)*

**UOT 94(479.24)**

# BAKI DÖVLƏT UNİVERSİTETİNİN KEÇDİYİ ŞƏRƏFLİ YOL

***Bakı Dövlət Universiteti - 100***

***İradə Mehdiqulu qızı Hüseynova***
***Bakı Dövlət Universiteti***

**Açar sözlər:** *Darülfün, parlament, nizamnamə, Azərbaycan Xalq Cümhuriyyəti, Bakı Dövlət Universiteti, mənavi dəyərlər, ali təhsil flaqmanı, beynəlxalq nüfuz, inteqrasiya prosesi, elmi fəaliyyət*

*Bakı Dövlət Universiteti yarandığı gündən etibarən bu vaxta qədər yüksək ixtisaslı, milli kadr hazırlığında müstəsna rola malik olan, ölkəmizdə ictimai-siyasi hadisələrin önündə gedən ali təhsil ocağıdır. Azərbaycanın aparıcı ali məktəbi olan Bakı Dövlət Universiteti dövlətimizin, milli təhsil konsepsiyamızın, milli ideologiyamızın, mənəvi dəyərlərimizin formalaşması və inkişafı yolunda mühüm əhəmiyyətə malikdir. 2011-ci ildə yaradılan "Qafqaz xalqları tarixi" kafedrası elm və tədris müstəvisində mühüm vəzifələrinin həyata keçirilməsində öz tövhəsini verməkdədir.*

## ПОЧЕТНЫЙ ПУТЬ БАКИНСКОГО ГОСУДАРСТВЕННОГО УНИВЕРСИТЕТА

***Ирада Гусейнова***

**Ключевые слова:** *Дарульфун, Парламент, Устав, Азербайджанская Демократическая Республика, Бакинский Государственный Университет, духовные ценности, флагман высшего образования, международный авторитет, интеграционный процесс, научная деятельность.*

*Бакинский государственный университет с момента своего основания является ведущим высшим учебным заведением, которое сыграло важную роль в подготовке национальных, высококвалифицированных кадров и находится в авангарде общественно-политических событий в нашей стране. Бакинский Государственный Университет - флагман высшего образования в Азербайджане, со дня создания*

*которого играет важную роль в развитии Азербайджанской государственности, концепции национального образования, национальной идеологии, национально-духовных и моральных ценностей. Созданная в 2011 году кафедраИстории народов Кавказа вносит свой вклад в реализацию важных задач в развитии науки и образования.*

## THE HONORARY WAY OF THE BAKU STATE UNIVERSITY

***İrada Guseinova***

**Keywords:** *Darulfun, the Parliament, Azerbaijan Democratic Republic, Baku State University, moral values, and the flagship of higher education, international reputation, integration process, scientific activity*

*Since its foundation, Baku state University has been a leading institution of higher education, which has played an important role in the training of national, highly qualified personnel and is at the forefront of social and political events in our country. Baku State University is the flagship of higher education in Azerbaijan, since its establishment it has played an important role in the development of the Azerbaijani statehood, the concept of national education, national ideology, national spiritual and moral values. Established in 2011, the Department Of history of the peoples of the Caucasus contributes to the implementation of important tasks in the development of science and education.*

Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan, bu günlərdə 100 illiyini qeyd etdiyimiz Bakı Dövlət Universiteti ölkəmizin aparıcı ali təhsil ocağıdır. Bu təhsil müəssisəsinin yaranması xalqımızın müasir, dünyəvi, mütərəqqi ənənələri özündə əks etdirən təhsil almasını istəyən M.F.Axundov, H.Zərdabi, C. Məmmədquluzadə, Ə.Hüseynzadə, Ə.Ağayev, M.Ə.Rəsulzadə, F.Xoyski, Ə.Topçubaşov, Ü.Hacıbəyli kimi mübariz maarifpərvər ziyalılarımızın apardığı davamlı, ardıcıl mübarizənin nəticəsi idi.

İlk təhsil ocağımızın keçdiyi keşməkeşli yola nəzər salarkən görünür ki, Azərbaycanın bugününü, dünya şöhrətli elmini, iqtisadiyyatını, mədəniyyətini, alimlər ordusunu, bütövlükdə Azərbaycan cəmiyyətini bu elm məbədinin fəaliyyətindən ayrılıqda təsəvvür etmək mümkün deyil.

Millətimiz yüzilliklər boyu arzusunda olduğu azadlığa 1918-ci il mayın 28-də qovuşduqdan sonra ölkədə ümumtəhsil hərəkatı keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur.Milli hökumət və Parlament səviyyəsində savadsızlığın ləğvi istiqamətində mühüm qanun və qərarlar qəbul edilmiş, sistemli tədbirlər görülmüşdür. Məhz bu dövrdə Azərbaycan dilinin dövlət dili olaraq qəbul edilməsi, həmçinintəhsil-tədris və təlim-tərbiyə dilinə çevrilməsi, məktəblərin milli köklər üzrə yenidən qurulması, ana dilli məktəblər şəbəkəsinin yaradılması, ümumi icbari ibtidai təhsilə keçid, çoxsaylı pedaqoji kursların və müəllim seminariyalarının açılması, Azərbaycanda ilk müasir ali təhsil və elm ocağı olan Universitetin təsis edilməsi, dövlətin himayəsi altında ilk məktəbəqədər tərbiyə müəssisələrinin əsasının qoyulması, milli hərbi məktəblərin yaradılması, dövlət səviyyəsində azərbaycanlıların xaricdə təhsil almağa göndərilməsi, əlifba islahatı, ana dilində yeni dərslik və proqramların hazırlanması və digər istiqamətlərdə mühüm addımlar atılmışdır. Azərbaycanda ali təhsilin təşkili və inkişafı tarixi bilavasitə Universitetin yaranması tarixi ilə başlanır.Bu əlamətdar hadisə sonrakı dövrlərdə də respublikamızda təhsilin və xalq maarifinin inkişafında, milli kadrların hazırlanmasında mühüm rol oynamışdır.

Qeyd etmək lazımdır ki, Bakı Dövlət Universiteti çox təlatümlü bir dövrdə yaradılmışdı. Yeni elan edilmiş Azərbaycan Xalq Cümhuriyyətinin maliyyə imkanlarının məhdud olmasına, daxildən və xaricdən sıxan təhlükələrə və təzyiqlərə baxmayaraq, bu dövlətin qurucuları milli universitetin əhəmiyyətini başa düşərək, bu təhsil ocağını yaratmaqda qərarlı idilər.

Arxiv sənədləri də göstərir ki, Müsavat partiyası ilə yanaşı Azərbaycan Parlamentində təmsil olunmuş fraksiyaların əksəriyyəti öz fəaliyyətində ölkədə təhsilin, maarifin inkişaf etdirilməsi məsələlərinə mühüm yer ayırmışlar. Respublikada xalq maarifi və təhsilin inkişafı, savadsızlığın və geriliyin aradan qaldırılması, eləcə də məktəb-təhsil işinin geniş surətdə yayılmasına nail olunması Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti və hökumətinin qarşısında duran vacib məsələlərdən biri idi.Vətənin, millətin ictimai-siyasi həyatında, tərəqqisində universitetin rolu heç nə ilə ölçülə bilməzdi.

1919-cu ilin mayın 31-də parlamentdə Bakı Dövlət Darülfünunun açılması haqqında qanun layihəsinin bəyannaməsi oxunur [1. v.20-23]. Bəyannaməyə əsasən universitetin yaradılması üzrə professor V.İ.Razumovskinin sədrliyi ilə komissiya təşkil edilir. Uzun sürən müzakirələrdən sonra 1919-cu il sentyabrın 1-idarülfünun açılması haqqında qanun qəbul edilir. Sənəddə yeni açılan ali məktəbin dörd fakültədən: tarix-filologiya, fizika-riyaziyyat, hüquq və tibb fakültələrindən ibarət olduğu, strukturu, ştatı, smeta cədvəli maddi-texniki bazası, maliyyələşməsi və.s. göstərilirdi [1. v.38-44].Bakı Dövlət Universitetinin idarə olunması və onun tədris elmi fəaliyyətinin tənzimlənməsi qaydalarını müəyyən edən nizamnamə 1919-cu ilin sentyabrın 29-da Parlamentdə qəbul edilmişdir.

1919-cu il noyabrın 15-i universitetdə birinci dərs günü elan edilir. Nəhayət milli ziyalılarımızın uzun illər ürəyində gəzdirdiyi arzular, apardığı mübarizə öz real təcəssümünü doğma universitetimizin yaradılmasında tapır. Müsəlman Şərqində ilk dəfə olaraq universitetəkişilər ilə yanaşı qadınlar da bərabər hüquqla qəbul olunurdular. Qəbulda Azərbaycan vətəndaşlarına üstünlük verilirdi. Universitetin təsisi haqqında qanunun Parlament tərəfindən təsdiq olunması münasibətilə V.İ.Razumovski Parlamentdəki çıxışında demişdi: "Azərbaycanda, hətta müsəlman dünyasında bu böyük hadisənin – Darülfünunun təsisi mərasimi təntənəsini qeyd etməyə, nəinki Parlamanı, buraya toplaşan kütlələrin şəxsində ictimai fikri də gördüyümə hədsiz xoşbəxtəm..." [2. s.218].

Universitetin təşkilat komissiyası V.İ.Razumovskini yekdilliklə universitetin rektoru, görkəmli tarixçi, publisist N.A.Dubrovskini tarix-filologiya fakültəsinin, prof. İ.İ.Şirokoqorovu isə tibb fakültəsinin dekanı seçdi. İ.İ.Şirokoqorov bu zaman Bakıda olmadığına görə prof. A.M.Levin tibb fakültəsində müvəqqəti olaraq dekan vəzifəsini icra etdi.

İlk tədris ilində universitetdə təhsil alan tələbələrin sayı 877 nəfər idi. Bundan başqa, universitetə 217 azad dinləyici qəbul edilmişdi. BDU özünün ilk bəhrəsini 1922-ci ildə verdi: 30 nəfər gənc ali təhsilli həkim adına layiq olmaları barədə universitet diplomu aldı [2. s.219].

28 aprel 1920-ci il tarixdə Azərbaycan Xalq Cümhuriyyətinin işğalından sonra Bakı Dövlət Universiteti yeni tarixi şəraitdə fəaliyyət göstərdi. Artıq universitetdə təlim-tərbiyə və elmi fəaliyyətin əsas istiqamətləri sinfi mübarizə və kommunist partiyası prinsipləriəsasında qurulurdu. Azərbaycan Müvəqqəti İnqilab Komitəsinin 1920-cu il 10 və 22 may tarixli dekretləri ilə universitetdə yenidənqurma işləri aparıldı [3. s.98].

1920-ci ildə qəbul edilmiş "Bakı Dövlət Universiteti haqqında" yeni Əsasnamədə [3. s.107] bütün əsas kursların və məşğələlərin müvəqqəti olaraq rus dilində aparılması nəzərdə tutulurdu. 1920-cu ilin dekabrında universitetdə fəhlə fakültəsi açılır. Bununla belə, 1920-1922-cu illər ərzində universitetin həyatında nisbi müstəqillik dövrü olub. 1920-ci ildə fizika-riyaziyyat, 1922-ci ildə şərqşünaslıq fakültələri təşkil edilir.

Azərbaycan Xalq Maarifi Komissarlığının 1922-ci il 6 dekabr tarixli qərarı ilə universitetin əvvəlki adı dəyişdirilərək, Azərbaycan Dövlət Universiteti adlandırılır. 1923-cü ildə tarix-filologiya fakültəsi ictimai elmlər fakültəsinə çevrilir, 1924-cü ildə isə ictimai elmlər və fizika-riyaziyyat fakültələri əsasında pedaqoji fakültə yaradılır. 1924-cü il yanvarın 23-də universitetə V.İ.Leninin adı verilir. 1927-ci ildə hüquq şöbəsi açılır və həmin şöbə bir ildən sonra müstəqil fakültəyə çevrilir. Onillik fəaliyyəti dövründə universitetin kafedra, laboratoriya və klinikalarında diqqətəlayiq elmi-tədqiqat işləri aparılır. Birinci onilliyin sonunda iqtisadiyyat fakültəsi yaradılır.

1930-cu il yanvarın 12-də universitetin onillik yubileyi təntənəli surətdə qeyd edilir və cəmi bir neçə aydan sonra isə bu ali təhsil müəssisəsi bağlanır.Onun yenidən açılmasına yalnız 1934-cü ilin mayın 15-də oktyabr bayramı münasibəti ilə qərar verilir [4, v.3].

XX əsrin 30-cu illərinin repressiyaları Bakı Dövlət Universitetinin timsalında öz bariz nümunəsini göstərir. Bu dövrdə universitetin 4 rektoru ən ağır cəzaya, güllələnməyə məhkum edilir. Təkcə 1937-ci ildə 100 nəfər universitet əməkdaşı güllələnir. 20-ci illərdə qəbul olunan əsasnamələrdən artıq söhbət belə getmir. Fakültə dekanları belə Mərkəzi Komitənin əmri ilə təyin olunur [5, v.2].

Bütün bu terror və təzyiqlərə,hətta II Dünya müharibəsi kimi bütün SSRİ üçün ağır olan bir zamana baxmayaraq,BDU-nun kollektivi elmi pedoqoji fəaliyyətinin məhsuldarlığını saxlamaqla yanaşı, həm də cəbhədə təşviqat və döyüş ruhunun yüksəldilməsində təbliğat briqadaları vasitəsi ilə iştirak etmişdir[10, s.154]. Elə həmin ağır illərdə universitetin fəaliyyətinə ağır zərbə vurulsa da, onun kollektivi bu ağır sınaqdan şərəflə çıxdı. Elə həmin dövrdə universitet alimləri beynəlxalq əhəmiyyətli bir sıra kəşflərə imza atdılar. Bunlara ən parlaq misal kimi Yusif Məmmədəliyevin donmayan sürtkü yağlarını kəşf etməsini göstərmək olar ki, müharibə illərində hərbi aviasiya sənayesində sovet təyyarələri üçün bu tapıntı həlledici rol oynadı.

Müharibədən sonrakı dövrdə Bakı Dövlət Universitetinin strukturunun təkmilləşdirilməsi məqsədi ilə işlər aparılır, maddi texniki bazası gücləndirilir. Bu məqsədlə fakültələrin və kafedraların sayı artırılır, yeni laboratoriyalar istifadəyə verilərək, yeni avadanlıqlarla təchiz edilir [10, s.160].

Ötən əsrin 50-ci illərinin ortalarında sovet cəmiyyətində baş verən nisbi yumşalma universitet həyatına da müsbət təsir etdi. Ümumiyyətlə, 50-60-cı illər universitetin həyatında yüksəliş dövrü kimi dəyərləndirilə bilər.

Bakı Dövlət Universitetiyarandığı vaxtdan mötəbər elm və təhsil ocağı kimi təhsil və elmin inkişafında Azərbaycan milli məfkurəsinin inkişaf edib qorunmasında müstəsna rol oynamış,respublikada sovet dövründə milli kadrların hazırlanmasınıtəmin etmiş və ölkənin əsas kadr bazasına çevrilmişdi.

Universitetin inkişafında yeni keyfiyyət mərhələsi, yeni yüksəliş dövrü heç şübhəsiz ki, xalqımızın ümummilli lideri, universitetin, doğma tarix fakültəmizin görkəmli məzunu Heydər Əlirza oğlu Əliyevin adı və fəaliyyəti ilə bağlıdır.

Bakı Dövlət universitetinə xüsusi həssaslıqla yanaşan Azərbaycan KPMK-nın birinci katibi Heydər Əliyevin 1969-cu ildə respublikanın rəhbəri kimiməhz Bakı Dövlət Universitetinin 50 illik yubileyi mərasimində doğma Azərbaycan dilində çıxışı heç də təsadüfi deyildi.Qeyd etmək lazımdır ki, Bakı Dövlət Universitetinin yubileylərindən dördü məhz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrə təsadüf edir və onun adı ilə bağlıdır [6, s.41-60].

Bu əlamətdar hadisə bütün respublikada böyük sevinc və razılıqla qarşılandı. Azərbaycan rəhbərinin cəsarətli hərəkəti yubileydə iştirak edən Moskvadan gəlmiş rəhbər işçiləri və xarici qonaqları təəccübləndirdi. Çünki hakim dilin rus dili, respublikanın Moskvanın nəzarəti altında olduğu o dövrdə belə bir addımı atmaq böyük cəsarət, eyni zamanda milli təəssübkeşlik tələb edirdi və onun milli dəyərlərə dərindən bağlı olduğunu göstərirdi.Eləhəmin il universitet Qırmızı Əmək Bayrağı ordeni ilə təltif olundu.

Ümumiyyətlə, müasir dövrdə Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, onun xarici, iqtisadi əlaqələrinin sistemli olaraq genişlənməsi, dünya iqtisadiyyatına daha dərindən inteqrasiya prosesi hələ 1970-1980-ci illərdə Ulu öndər Heydər Əliyev tərəfindən təməli qoyulmuş potensiala əsaslanır və bu milli təhsilin inkişafı prosesində də öz əksini tapır. 1969-1982-ci illərdə 15 minə yaxın gəncin Sovet ittifaqının aparıcı ali təhsil məktəblərinə oxumağa göndərilməsi bu düşünülmüş, müdrik siyasətin tərkib hissəsi idi.

XX əsrin 70-ci illərində universitetin maddi-texniki bazası gücləndirildi və tədris prosesində müasir texniki vasitələrdən istifadə olunmasında əsaslı dəyişikliklər baş verdi. Heydər Əliyevin diqqət və qayğısı nəticəsində universitetin əldə etdiyi müvəffəqiyyətlər Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin 1987-ci il 13 mart tarixli qərarı ilə yüksək qiymətləndirilmişdir.

Qeyd etmək lazımdır ki, Heydər Əliyevin tarix fakültəsinə və elminə xüsusi münasibəti olub. 1994-cü ildə Bakı Dövlət Universitetinin 75 illik yubiley mərasimindəki çıxışında o, tarix fakültəsinin də adını vurğulayaraq, onun ölkəmizdə elmin inkişafında müstəsna rolundan danışıb [9]. Bu da onun öz universitetinə, öz fakültəsinə doğmalığının, sevgisinin göstəricilərindən biri idi.

31 yanvar 1997-ci il tarixdə Azərbaycan Elmlər Akademiyasının rəhbərliyi, həqiqi və müxbir üzvləri, institut direktorları və aparıcı alimləri ilə görüşdə Ulu öndər Heydər Əliyev "xüsusən millətin, xalqın tarixi, ya ümumiyyətlə, tarix, onun ədəbiyyatının, mədəniyyətinin tarixidir. Bu, indi bizim üçün xüsusilə lazımdır. Əlbəttə, müstəqil Azərbaycanda fizika, riyaziyyat, biologiya, kimya, yaxud başqa fənlərin hamısı inkişaf etməlidir. Ancaq bunların hərəsinin özünəməxsus çərçivəsi var. Amma tarix hər bir insan üçün yeniyetməlikdən başlayaraq ömrünün sonuna qədər lazımdır. O cümlədən, mədəniyyətimizin, ədəbiyyatımızın, elmimizin tarixi lazımdır" sözləri ilə tarix elminin müstəsna rolunu, əhəmiyyətini bir daha vurğulamışdır [8].

Bu gün Azərbaycanın aparıcı ali məktəbi olan Bakı Dövlət Universiteti dövlətimizin milli təhsil konsepsiyasının, milli ideologiyamızın həyata keçirilməsində mühüm rol oynayır. Həmçinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qayğısı və diqqəti sayəsində BDU-nun ölkədə olannüfuzu, beynəlxalq şöhrəti də günü-gündən artır. Görkəmli yazıçı, şair, mədəniyyət və dövlət, ictimai-siyasi, elm xadimlərinin böyük bir hissəsi Bakı

Dövlət Universitetinin məzunlarıdır. Universitet bu günə qədər dövlət idarəçiliyinin, xalq təsərrüfatının, elmin, təhsilin, mədəniyyətin müxtəlif sahələrində müvəffəqiyyətlə çalışan 10 minlərlə yüksək ixtisaslı milli kadr hazırlamışdır.

Bu gün də Bakı Dövlət Universiteti respublikamız üçün yüksək ixtisaslı kadrların hazırlanması prosesində müstəsna rola malik olan ali təhsil ocağıdır. Rəhbərlik etdiyim "Qafqaz xalqları tarixi" kafedrası universitetin şanlı nailiyyətlər əldə etməsinə öz töhfəsini verir. Qeyd etmək lazımdır ki, XXI əsrdə Qafqaz regionunun geostrateji əhəmiyyətinin əvvəlki dövrlərlə müqayisədə dəfələrlə artması fonunda, Qafqaz xalqları ilə qarşılıqlı münasibətlərin öyrənilməsinə, xüsusən Ermənistan Respublikasının qonşu dövlətlərə qarşı əsassız ərazi iddialarını, regionda sabitliyin yaranması və Ermənistanın destruktiv mövqeyi, böyük dövlətlərin Qafqazla bağlı siyasəti və s. bu kimi məsələlərin dərindən araşdırılımasına, xüsusi elmi-tədqiqatlar aparılmasına böyük ehtiyacın yaranması nəzərə alınaraq 2011-ci ildə Qafqaz xalqları tarixi kafedrası yaradıldı. Bu da universitetin inkişafında yeni bir mərhələ kimi qiymətləndirilə bilər.

Nəzərə alsaq ki, ölkəmizdə müasir dövrdə dövlət rəhbərliyi səviyyəsində qafqazşünaslıq elminin inkişafına böyük önəm verilir, bu baxımdan qafqazşünaslığın aktual problemlərini tədris edən, elmi təhlillər, araşdırmalar aparan kafedranın açılması böyük əhəmiyyət kəsb edir.

Respublikamızın Qafqaz regionunda yerləşməsi baxımından bölgədə yaşayan xalqların tarixinin, dilinin, mədəniyyətinin, adət-ənənələrinin daha dərindən və hərtərəfli öyrənilməsi vacib məsələlərdən biridir. Bununla yanaşı beynəlxalq müstəvidə qonşu dövlətlərlə ictimai-siyasi münasibətlərin daha səmərəli qurulması üçün yüksək ixtisaslı qafqazşünas kadrların hazırlanmasına böyük zərurət yaranmışdır. Qafqaz xalqları tarixi kafedrasında bu sahə üzrə yüksək ixtisaslı və səriştəli professor-müəllim heyəti fəaliyyət göstərir. Qafqazşünaslığın aktual problemləri ilə bağlı kafedrada mühüm elmi araşdırmalar aparılır, dərsliklər, monoqrafiyalar, dərs vəsaitləri, tədris proqramları, işıq üzü görür.Bu da qafqazşünaslıq sahəsindəgənc elmi kadrların hazırlanması üçün öz töhfəsini verir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra BDU- nun beynəlxalq nüfuzu artmış, dünya dövlətləri və xalqları ilə əlaqələri genişlənmişdir. Ölkəyə rəsmi səfərə gələn dövlət rəhbərləri, siyasət və mədəniyyət xadimlərindən 224–üuniversitetin fəxri doktoru adına layiq görülüb. Bu datəhsil ocağının böyük nüfuza malik olduğunu sübut edir, dünya şöhrətini daha da artırır. BDU-nun fəxri doktoru adını şərəflə daşıyan Süleyman Dəmirəl, İslam Kərimov, Marat Baqlay, Corc Robertson, Zbiqnev Bjezinski, Kotaro Matsuura, Eduard Şevardnadze, Frederiko Mayor, Petro Luçinski və başqaları kimi siyasi və dövlət xadimləri, Lütfizadə, İren Məlikova, Tadeuş Svyatoçovski, Cavad Heyət,

İhsan Doğramacı, Əhməd Şimide, Xəlil Çin kimi görkəmli alimlər onun şöhrətinin bütün dünyaya yayılmasında yaxından iştirak ediblər.

Lakin hesab edirəm ki, universitetin ən böyük və dünya şöhrətli məzunu-xalqımızın böyük və qəhrəman oğlu, qüdrətli, tarixi şəxsiyyət, öz taleyini xalqın taleyi ilə bağlayan, görkəmli siyasətçi, dövlət xadimi Heydər Əliyev olmuşdur.

Hazırda Bakı Dövlət Universiteti ölkəmizin ali təhsil müəssisələri arasında əvvəllər olduğu kimi, bu gün də ali təhsilin flaqman rolunu oynayır. Doğma ocağımız öz tarixinə, elmi-pedaqoji ənənələrinə, təcrübəsinə, keçdiyi böyük keşməkeşli yola, prezident İlham Əliyevin apardığı düşünülmüş siyasətə söykənərək, elm və təhsil yolunda xalqımıza, dövlətimizə dəyərli töhfələrini verir,gələcəyə doğru inamla addımlayır, inkişaf edir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Milli Arxivi. Fond № 805, siyahı № 3, iş № 73.
2. Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası. İki cilddə. I cild. Bakı: Lider nəşriyyatı, 2004, 440 səh.
3. Atakişiyev A. "M.Ə. Rəsulzadə adına Bakı Dövlət Universitetinin tarixi". İki hissədə, I hissə- Bakı, Bakı Dövlət Universitetinin nəşriyyatı, 1991, 528 səh; Аслан Атакишиев. История Азербайджанского государственного университета. Баку: «Издательство Азерб. Университета» 1989, 832 стр.
4. Azərbaycan Respublikasının Milli Arxivi. Fond № 1006, siyahı №10, iş № 47
5. Azərbaycan Respublikasının Milli Arxivi. Fond № 1640, siyahı №10, iş № 1
6. Магеррамов А.М. Бакинский государственный университет. Баку: Изд. «Бакинский государственный университет», 2017, 652 стр.
7. Hüseynova İ.M. Tarix.Zaman.Düşüncələr. Çoxcildli əsər. I cild. Bakı: "Elm və təhsil", 2016, 512 səh.
8. Azərbaycan Elmlər Akademiyasının rəhbərliyi, həqiqi və müxbir üzvləri, institut direktorları və aparıcı alimləri ilə görüşdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi-Prezident sarayı, 31 yanvar 1997-ci il. https://lib.aliyevheritage.org/az/4211308.html
9. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Məmməd Əmin Rəsulzadə adına Bakı Dövlət Universitetinin 75 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə nitqi - Respublika Sarayı, 26 noyabr 1994-cü il. http://lib.aliyev-heritage.org/print.php?lang=az&page=3631526
10. АлимирзоевХ.О.Азербайджанский государственный университет. Баку:Азернешр, 1969, 465 стр.

UOT 94(479.24)

# BƏRDƏ-TƏRTƏR BÖLGƏSİNİN BƏZİ TARİXİ, ARXEOLOJİ VƏ MEMARLIQ ABİDƏLƏRİ HAQQINDA

***Abbas Qadir oğlu Seyidov***
***Taleh Vasif oğlu Əliyev***
***AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu***
*abbas.seyidov@gmail.com*
*taleh.ali@mail.ru*

**Açar sözlər:** *Qarabağ, Tərtər, Bərdə, arxeologiya, abidə*

*Məqalə Bərdə-Tərtər bölgəsində aparılan son arxeoloji araşdırmalara həsr olunub. 2017-2019-cu illərdə həyata keçirilən arxeoloji tədqiqatlar nəticəsində bu ərazidə yeni qədim yaşayış yerləri, qəbiristanlıqlar və digər tarixi, arxeoloji, memarlıq abidələri öyrənilib. Bərdə-Tərtər ekspedisiyasının fəaliyyəti nəticəsində arxeoloji xəritəyə yeni adlar əlavə olunub. Bu abidələrin bəzisində ekspedisiya üzvləri tərəfindən aparılan arxeoloji qazıntılar zamanı müxtəlif dövrlərə aid maddi-mədəniyyət nümunələri aşkar edilib.*

## О НЕКОТОРЫХ ИСТОРИЧЕСКИХ, АРХЕОЛОГИЧЕСКИХ И АРХИТЕКТУРНЫХ ПАМЯТНИКАХ БАРДА-ТАРТАРСКОГО РЕГИОНА

***Аббас Сеидов***
***Талех Алиев***

**Ключевые слова:** *Карабах, Тартар, Берда, археология, памятник*

*Статья посвящена новейшим археологическим исследованиям в Барда-Тартарском регионе. Археологические исследования 2017-2019 годов выявили новые данные о древних поселениях, кладбищах и т.д. В результате работ тартарской археологической экспедиции ряд новых археологических памятников появилось на карте. Различные образцы материальной культуры были обнаружены членами экспедиции во время археологических раскопок в этих памятниках.*

# HISTORICAL, ARCHAEOLOGICAL AND ARCHITECTURAL MONUMENTS OF BARDA-TARTAR REGION

***Abbas Seyidov***
***Taleh Aliyev***

**Key words:** *Garabagh, Tartar, Barda, archaeology, monument*

*The article is dedicated to the latest archaeological research in the Barda-Tartar region. Archaeological studies of 2017-2019 revealed new data on ancient settlements, cemeteries, etc. A number of new archaeological sites appeared on the map as a result of the work of the Tartar archaeological expedition. Various samples of material culture were discovered by members of the expedition during archaeological excavations in these monuments.*

Əzəli Azərbaycan torpağı olan Qarabağ ərazisində son illərdə tarix və memarlıq abidələrinin öyrənilməsinə maraq güclənmiş, eyni zamanda arxeoloji qazıntı və çöl-tədqiqat işləri intensivləşmişdir. Bərdə-Tərtər arxeoloji ekspedisiyasının 2017-2019-cu illərdə apardığı tədqiqatlar Tərtər və Bərdə ərazilərində yerləşən abidələrin tarixi-arxeoloji baxımdan öyrənilməsi işinə yeni töhfələr vermişdir.

2019-cu ildə Bərdə rayonu ərazisində həyata keçirilən arxeoloji tədqiqat işləri nəticəsində antik dövrə aid Şortəpə abidəsinə baxış keçirilmiş,yaxınlıqda yerləşən Şatırlı kurqanlarının GPS koordinatları müəyyən edilmiş, abidələrin fotoşəkilləri və planı çəkilmişdir. Şatırlı kurqanları Balatəpə tunc dövrü yaşayış yerinə yaxın yerləşdiyindən onların həmin yaşayış yerinin tayfa başçısına və ailə üzvlərinə məxsus qəbirlər olduğu qənaətinə gəlinmişdir. Qəbiristanlıqda biri böyük, doqquzu orta və kiçik ölçülü olmaqla 10 ədəd kurqan qəbir vardır. Böyük kurqanın tam yanında hal-hazırda kənd qəbiristanlığı yerləşir. Rayonun məscid və İmamzadə kompleksinə, Bərdə türbəsinə, orta əsrlər körpüsünə baxış keçirilmiş, onların hazırkı durumu öyrənilmiş və fotoşəkilləri çəkilmişdir.

Bərdənin tarixi abidələri içərisində İmamzadə kompleksinin xüsusi yeri vardır (şəkil 1). Bərdə imamzadəsinin inşası zamanı ənənəyə uyğun olaraq Arran memarlıq məktəbinin fiqurlu hörgü və daş-kərpic sıralamasından cəsarət və uğurla istifadə olunub. Binanın inşası zamanı həm də daha əvvəl Möminə-Xatun türbəsi və Bərdə türbəsinin memarlığında rast gəlinən fasadın müxtəlif elementlərinin eyni profil və ya xətlə çərçivələnməsi üsulundan istifadə edilib. Məlumatlara görə, buradakı türbədə İsmaili və Cəfəri şiələrinin 5-ci imamı Məhəmməd əl-Baqirin qız nəvəsi İsmayıl dəfn olunub. Məhəmmədəl-Baqirin 3-

cü oğlu İbrahimİsa (739-cu ildə) Gəncəşəhərinin 7-ci kilometrliyindəyerləşən Göyİmamzadədə dəfnedilib.

1891-ci ildə Bərdə imamzadə türbəsini tədqiq etmiş akademik Boris Dorn yazırdı ki, orada həm də qədim İbrahim imamzadəsi vardır ki, haqqında hansısa məlumat qalmayıb. Lakin o ibadət yeri kimi fəaliyyət göstərir. Köhnə binanın təmiri onun sahibinə 3000 gümüş rubla başa gəlib.

Ə.Salamzadə qeyd edir ki, əvvəlcə bu tikili, ehtimal ki, ancaq türbə olmuşdur. İnteryerdə mehrabın olmamasını da bununla izah etmək mümkündür (şəkil 2). Tədqiqatçının fikrincə, B.Dornun təmir işləri haqqında verdiyi məlumat da birbaşa türbə binasına aiddir. Çünki, türbə binasını əhatə edən məscid 1868-ci ildə inşa edilmiş, yəni tikiliyə B.Dornun onu ziyarət etməsindən sonra artırılmışdır[1; 2].

Məscidin inşası haqqında məlumata 1886-cı ilin "Qafqaz təqvimi"ndə də rast gəlinir: "İmamzadə türbəsi (piri) Yelizavetpol quberniyası, Cavanşir qəzasının Bərdə yaşayış yerində yerləşir. 1868-ci ildə türbə üzərində məscid inşa edilmişdir"[3].

Ə.Salamzadəyə görə, inşaat işlərinə rəhbərlik edən memar dörd minarəyə və maraqlı həcm-məkan həllinə malik bitkin memarlıq əsəri yaratmağa nail olmuşdur.

Şəhərdə öz əhəmiyyəti ilə seçilən abidələrdən biri Bərdə türbəsidir (şəkil 3). 1322-ci ildə inşa olunan abidə xalq arasında "Nüşabə türbəsi" kimi də tanınır. XIV əsrdə Bərdədə iki qülləvari türbə tikilmişdir ki, onlardan biri müasir dövrə qədər qalmışdır. Elmi ədəbiyyata 1322-ci il tarixli Bərdə türbəsi adı ilə daxil olan abidənin nə vaxt və kim tərəfindən tikildiyi üstündəki kitabələrdən məlumdur. Bərdə türbəsi hələ XIX əsrdən tədqiqatçıların diqqətini cəlb etmişdir. 1848-ci ildə şəhəri ziyarət etmiş məşhur şərqşünas Xanıkov abidənin üzərindəki kitabələri oxumuşdur.Bu kitabələr daha sonra 1861-ci ildə Bərdədə olmuş akademik B.Dorn tərəfindən nəşr edilmişdir[4].

Bərdə türbəsindəki bu kitabə Naxçıvan memarlarının hələ XIV əsrdə məsul binaları tikmək üçün başqa şəhərlərə də dəvət edildiyini göstərməklə, Naxçıvan memarlıq məktəbi ənənələrinin davam etdiyini təsdiqləyən son dərəcə qiymətli bir sənət nümunəsidir.

Abidəyeraltı və yerüstü hissədən ibarət qülləvari türbələrə xas quruluşdadır. Onun yeraltı hissəsi dördguşəli şəkildə olub,abidənin sərdabə hissəsini, yəni cənazənin dəfn edildiyi hissəni təşkil edir. Bu hissə vaxtilə günbəzlə örtülü olmuş və onun içərisi kaşıdan quraşdırılma ornamentlərlə bəzədilmişdir. Sərdabəyə Şimal tərəfdən dromos quruluşlu yol vasitəsi ilə daxil olurmuşlar. Türbənin yerüstü hissəsi isə üç əsas memarlıq quruluşundan ibarətdi: daşdan hörülmüş kürsülük, dairəvi gövdə və çadırvari günbəz. Sahəsi etibarilə ən çox yer tutan bəzək ünsürü silindrik gövdəni örtən və firuzəyi kaşıdan quraşdırılmış kitabədir. Kürsülükdən başlayaraq yuxarıdakı haşiyəyə

qədər 8,5 metrlik bir hissəni örtən və firuzəyi kaşı ilə qırmızı kərpicin əlaqələndirilməsindən yaranan bir kompozisiyadan əmələ gələn bu kitabə 200 dəfədən artıq “Allah” sözünü naxış şəklində təkrarlayır. Türbənin gövdəsini örtən yazılı səthdən sonra ornament, daha sonra bir metr hündürlüyündə geniş kitabə qurşağı yerləşir. Bu kitabənin yeri qararəngli kaşıdan, yazılar isə ağ rəngli kaşıdan quraşdırılıb. Kitabə qurşağından sonra günbəzə keçid təşkil edən 3 yaruslu stalaktit kəməri yerləşdirilib. Bustalaktitlərin daxili səthləri də rəngli həndəsi ornamentlə örtülüb. Stalaktit qurşaqdan sonrakı konusşəkill günbəzin səthidə qırmızı və firuzəyi kaşıdan ibarət həndəsi ornamentlərlə örtülü olub.

Öz quruluşu və bəzəyi etibarilə Bərdə türbəsinin ən maraqlı kompozisiya ünsürlərini şimal və cənub tərəflərdə yerləşən iki portal (baştağ) təşkil edir. Ümumi sxemi (şəkil 4) etibarilə bir-birinə uyğunlaşalar da bu iki baş tağ bir-birindən fərqlənir. Şimal portalında, stalaktit qurşağından yuxarıdakı kitabə son dərəcə bədii şəkildədir. Kitabənin abidənin gözə çarpan bir yerdə, demək olar ki, əsas kompozisiya mərkəzində yerləşdirilməsi memarın yüksək ictimai mövqeyinə dəlalət edir. Kitabənin məzmunu belədir: ”Əməli Əhməd bin Eyyub əl-Hafiz Əl-bənnayi ən-Naxçıvani”.

1322-ci ildə Bərdədə ucaldılmış türbə Kəngərli rayonunun Qarabağlar kəndində yerləşən türbənin ən yaxın oxşarıdır. İri daş plitələrlə üzlənmiş kürsülükdə kvadrat kərpiclərdən tikilmiş bir qədər yarımqazma proporsiyalı qüllə ucaldılmışdır. Türbənin xarici hissəsi şaquli istiqamətdə firuzəyi kərpiclə üfüqi istiqamətdə isə yaxşı cilalanmış adi kərpiclə düzülmüş «köynəklə» örtülmüşdür. Müxtəlif bəzək birləşmələri və kərpicin fakturası bütün fasad boyu dəfələrlə təkrarlayır.

Bərdədə Tərtər çayı üzərində yerləşən tarixi abidələrdən biri də orta əsr körpüsüdür (şəkil 5). Hal-hazırda Tərtər çayının sağ sahilində yerləşən körpünün qədim zamanlarda uzunluğu təxminən 170 metr, eni isə 5 metr olmuşdur.Əsasən çay daşlarından tikilmiş körpünün üst hissəsi qırmızı kərpicdən hörülmüşdür. Özülü çox aşırımlı dayaqlar üzərində qurulub. Tarixi körpünün istiqamətindən də görünür ki, Tərtər çayı keçmişdə indiki yatağı ilə deyil, tamam fərqli məcrada axıb.

Bərdə şəhərinin qədim hissəsi orta əsrlərdə olduğu kimi, müdafiə məqsədi daşıyan qala divarları ilə əhatə olunmuşdur. Körpünün üzərindəki hərəkət istiqamətindən də görünür ki, şəhərin qala qapıları şərqə doğru açılmışdır.

Son illər Bərdə-Tərtər arxeoloji ekspedisiyası tərəfindən Tərtər rayonunun Köçərli, Səhləbad, İsmayılbəyli, Evoğlu, Buruc, Kolanı kəndləri və rayon mərkəzi yaxınlığında yerləşən abidələrdə arxeoloji kəşfiyyat işləri həyata keçirilib [5; 6; 7]. Tərtər-Bərdə-Ağdam yolu üzərində yerləşən Evoğlu kəndi yaxınlığında arxeoloji qazıntı işləri aparılmış və abidələr haqqında müəyyən yeni elmi məlumatlar əldə etmək mümkün olmuşdur [8; 9].

Evoğlu kəndinin əkin sahələrinin içərisində yerləşən Böyüktəpə, Qurd təpəsi (Kültəpə) və Çaqqallıtəpə abidəsində aparılan arxeoloj tədqiqatlar zamanı Böyüktəpənin üst hissəsində 3x3 $m^2$ ölçüdə kəşfiyyat qazıntısı qoyulmuşdur. 0,5 m dərinlikdə aşkarlanan azyaşlı uşaq qəbriİslam adətinə uyğun olaraq, qiblə istiqamətində dəfn olunmuşdu. Böyüktəpənin üst təbəqəsi orta əsrlər dövrünə aid edilir [5].

Böyüktəpənin müxtəlif hissələrindən antik və ilk orta əsrlərə aid saxsı parçaları əldə olunmuşdur. Apardığımız tədqiqatlar Böyüktəpənin üst təbəqələrinin antik, ilk orta əsr və orta əsrlərə aid olduğunu söyləməyə imkan verir. Lakin fikrimizcə, abidə çoxtəbəqəli olub, alt təbəqədə son tunc – ilk dəmir dövrünə aid mədəni təbəqə yerləşir.

Qurd təpəsi (Kültəpə) abidəsində apardığımız arxeoloji qazıntılar zamanı 1 m dərinlikdə üzü qiblə istiqamətində torpaq qəbir aşkar olunmuşdur. Bu, orta əsrlərə aid müsəlman qəbridir. Mərhum qiblə istiqamətində, sağ çiyni üzərində dəfn olunmuşdur. Skeletin uzunluğu 1,8 m civarındadır. Abidədə az sayda ilk orta əsr və orta əsrlərə aid saxsı hissələri qeydə alınmış, bir ədəd tunc alət parçası və çiy kərpicdən ibarət tikili aşkar olunmuşdur.

Tərtərdən Goranboya gedən magistral yol üzərində yerləşən Sarov, Bəyimsarov, Dəmirçilər, Cəmilli, Kəngərli, Bala Kəngərli, Xoruzlu, Qaradağlı, Bayandur, Hacıqərvənd, Seydimli, Təzəkənd və Rəcəbli kəndlərinin ərazisində arxeoloji kəşfiyyat və çöl işləri aparıldı. Kəngərli ilə Bayandur kəndləri arasında yerləşən əkin sahələrində “Əkin yeri” adlanan təxminən 0,5 hektarlıq ərazidə bir neçə şirli və şirsiz qab qırıqlarına rast gəlindi. Saxsı parçaları müxtəlif təyinatlı boşqab, kasa, cam, qazan, bardaq, sərnic və süddan tipli qabların hissələrindən ibarətdir. Bu kəndtipli yaşayış məntəqəsi XI-XIII əsrlərə aiddir. Ərazinin kəndlərinin türk mənşəli Kəngər və Bayandur qəbilələrinin adlarını daşıması və orta əsr yaşayış yerinin XI-XIII əsrlərə aid olması orada klassik orta əsrlərdə Azərbaycanın dövlətçilik tarixində mühüm yer tutan türk tayfalarının yaşadığını söyləməyə əsas verir [6].

Rayonun Cəmilli və Dəmirçilər yerləşən hissələrində kəşfiyyat işləri zamanı digər orta əsr yaşayış yerinin izlərinə rast gəlindi. “Şum yeri” adlanan kənd tipli yaşayış yerinin yerüstü izləri yalnız saxsı məmulatının hissələrindən ibarət idi. Həmin materiallar da XI-XIII əsrlərə aiddir. 0,7 ha ərazini əhatə edən yaşayış məskəninin mədəni təbəqələrini müəyyənləşdirmək üçün 0,5-0,7 m dərinlikdə arxeoloji kəşfiyyat şurfu 1,5x1,5 m sahədə tərəfimizdən qoyulmuş və üst hissədə həmin dərinlikdə kiçik tikinti hissəsinin izləri müəyyənləşdirildi. Həmin sahənin planı çıxarıldı. İki mədəni təbəqədən ibarət yaşayış yeri ümumilikdə IX-XIII əsrlərə aiddir [6]. Monoxrom və polixrom şirli qabların hissələri ilə yanaşı, az sayda şirsiz saxsı məmulatına da rast gəlindi. Abidənin materialları IX-XI və XI –XIII əsrlərin müxtəlif tipli dulus məmulatının oturacaq, gövdə və ağız hissələrindən ibarət olmaqla, yaşıl, bozumtul, sarımtıl,

boz-qırmızımtıl, çəhrayı, göy-yaşımtıl rəngli şirli boşqab, kasa, küpə və cam tipli qablara məxsusdur. Onların bəzisi monoxrom, müəyyən hissə isə polixrom şirli qablardan ibarətdir. Gilinin üzərinə anqob çəkildikdən sonra şirlənən qab hissələrinin üzəri daha səliqəli görünür. Şirsiz saxsı hissələrinin gili səliqəli və bəzən də səliqəsiz olmaqla sarımtıl-boz və sarı-qırmızımtıl rənglərə malikdir. Nazik divarlı qabların bəziləri əldə, az hissəsi isə dulus kürəsində hazırlanmışdır. Ərazinin göstəricisi kənd tipli yaşayış yeri olduğundan oraya səliqəli dulus məmulatının yaxınlıqda yerləşən Şətəl şəhər yerindən (Goranboy rayonunda yerləşir – müəlliflər) gətirildiyini güman etmək olar.

Ümumiyyətlə, Tərtər və Goranboy rayonlarının sözügedən kəndlərinin yazılı mənbələrdə göstərilən və yerləri son illərdə müəyyən olunan Əndorab və Şətəl qalalarının, eləcə də, Naftan (Naftalan – müəlliflə) yaxınlığında olması, o cümlədən, Bərdə və Gəncə kimi iri orta əsr şəhərlərindən keçən ticarət yolunun yaxınlığında yerləşməsi orta əsr yaşayış yerlərinin inkişafı üçün zəmin yaratmışdır. Bu isə öz növbəsində bölgədə daxili ticarətin – şəhərlə kənd arasında olan əlaqənin güclü olduğunu göstərir. Nəticədə isə Qafqazın və digər yerlərin şəhər və kəndləri ilə əlaqə yaradılması üçün şərait meydana gəlir, bu da öz növbəsində bölgənin beynəlxalq ticarətdə özünəməxsus yer tutmasına səbəb olurdu.

Ağdam yolu üzərində, Xaçınçaya yaxın Hüseynli kənd qəbiristanlığında yerləşən Hüseynli kurqanının üzərində XIX əsrin sonu – XX əsrin əvvəllərinə aid müsəlman qəbirlərinə baxış keçirildi və fotoşəkilləri çəkildi. Rayonun mərkəzində yerləşən məscidin üzərindəki ərəbcə yazılardan məlum olur ki, Cümə məscidi 1905-ci ildə memar Mir Möhsüm tərəfindən inşa edilib. Məscidin uzunluğu 21, eni 18 metrdir. İki minarəsi, bir ibadət zalı, ikinci mərtəbədə isə kiçik zalı və iki otağı mövcuddur[7].

Kəngərli kəndində yerləşən məscidin divar qalıqlarının fotoşəkilləri çəkildi və planı tərəfimizdən hazırlandı. Onun dam örtüyü uçmuş, divarları isə qəzalı vəziyyətdə idi. Məscidin GPS koordinatları da tərəfimizdən müəyyənləşdirildi. Binanın əsas zalının ölçüləri 12x6 metrdir. Tikilinin divarının qalınlığı 1 metrdir. Girişlə üzbəüz mehrab yerləşir. Mehrabın hündürlüyü 2,5,eni isə 1 metrdir. Həmçinin dini iqamətgahın giriş qapısının eni də 1 metrdir. Mehrabın hər iki tərəfindən 1,8 m məsafədə qapı yeri var. Bişmiş kərpicdən hörülmüş tikiliyə əlavə olaraq çiy kərpicdən (palçıqdan) köməkçi iki otaq tikilmişdir ki, onlar da girişin sağ və sol tərəflərində yerləşir. Onların giriş qapılarının eni 0,9 metrdir. Həmin tikililər 3,2 m şimala doğru çıxır. Məscidin həyətyanı sahəsi 1 hektardır. Tədqiqatlarımız məscidin XVIII əsrə aid olduğunu söyləməyə əsas verir [7].

Rayonun İlxıçılar kəndi yaxınlığında yerləşən orta əsr yaşayış yerininüst təbəqəsi şumlama işləri zamanı zədələnib. Orada apardığımız arxeoloji kəşfiyyat işləri həmin kənd tipli yaşayış yerinin IX-XIII əsrlərə aid olduğu

məlum oldu. 0,5-1 m dərinliklərdə müəyyən olunan mədəni təbəqədən saxsı məmulatının hissələri əldə olunmuşdur. Yaşayış yeri 1 hektara yaxın ərazini əhatə edir.

Son olaraq qeyd edək ki, Bərdə-Tərtər arxeoloji ekspedisiyası 2017-2019-cu illərdə Tərtər rayonu və onun ətraf ərazilərində arxeoloji tədqiqat işləri nəticəsində bir sıra yeni yaşayış yerləri qeydə almış, onları elmi ədəbiyyata gətirmiş, bəzi abidələrdə arxeoloji kəşfiyyat qazıntısı həyata keçirmiş, qazılmış sahələrin planları işlənilmiş, əldə olunmuş maddi mədəniyyət nümunələri kameral şəkildə işlənilərək inventarlaşdırılmış və təsnifatı göstərilmişdir. Arxeoloji tədqiqatlar Azərbaycanın qədim torpağı olan Bərdə və Tərtərin hələ tunc dövründən etibarən zəngin maddi irsə malik olduğunu, sonrakı mərhələlərdə abidələrin sayca çoxaldığını, Qarabağın tarixində önəmli yer tutan qədim yerli türk tayfalarının yaşadığı həmin yerlərdə lokal mədəniyyət nümunələrinin mövcudluğunu göstərir.

## ƏDƏBİYYAT

1. Саламзаде А.Р. Архитектура Азербайджана XVI-XIX вв., Баку: Издательство Академии наук Азербайджанской ССР, 1964

2. Дорн Б.А. Каспий: О походах древн. русских в Табаристан, с доп. сведениями о других набегах их на прибрежья Каспийского моря / [Соч.] Б. Дорна. - Санкт-Петербург: тип. Акад. наук, 1875, - [2], IV, LVI, 718 с., 2 л. ил., карт.; 23

3. Кавказский календарь на 1886 год, Тифлис, Кавказский Статический Комитет (Е.Кондратенко)

4. *Дорн* Б.А. Отчет об ученом путешествии по Кавказу и южному берегу Каспийского моря / [Соч.] акад. Б. *Дорна*. - СПб.: Тип. Имп. АН, *1861*. - [2], 73 с., 1 л.

5. Seyidov A.Q. Tərtər arxeoloji ekspedisiyasının 2017-ci ildə apardığı arxeoloji tədqiqat işlərinin hesabatı // AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Elmi Arxivi, Bakı, 2017

6. Seyidov A.Q. Tərtər arxeoloji ekspedisiyasının 2018-ci ildə apardığı arxeoloji tədqiqat işlərinin hesabatı // AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Elmi Arxivi, Bakı, 2018

7. Seyidov A.Q. Tərtər arxeoloji ekspedisiyasının 2019-cu ildə apardığı arxeoloji tədqiqat işlərinin hesabatı // AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Elmi Arxivi, Bakı, 2019

8. Bağırzadə C.V. Tərtərçay vadisi IV-XIII əsrlərdə (tarixi-arxeoloji tədqiqat), Bakı, 2019, 120 s.

9. Məmmədov A.M. Tərtər orta əsrlərdə (tarixi-arxeoloji tədqiqat), Bakı, 2017, 100 s.



**Şəkil 1**



**Şəkil 2**



**Şəkil 3**




**Şəkil 4**



**Şəkil 5**





**Şəkil 6** **Şəkil 7**

**UOT 94(479.24)**

# XX ƏSRİN 90-CI İLLƏRİNİN ƏVVƏLLƏRİNDƏ QARABAĞ MÜNAQİŞƏSİ VƏ ÖLKƏDƏKİ İCTIMAİ-SİYASİ VƏZİYYƏT AZƏRBAYCAN RESPUBLIKASININ RUSİYA, İRAN, TÜRKİYƏ İLƏ HÖKUMƏTLƏRARASI-PARLAMENTLƏRARASI MÜZAKİRƏLƏRİNDƏ

***Pərviz Şahin oğlu Səfərov***
***Azərbaycan Dövlət Pedaqoji Universiteti***
*parviz.safarov60@mail.ru*

**Açar sözlər**: *müstəqillik, maraqlar, əməkdaşlıq, Dağlıq Qarabağ münaqişəsi, vasitəçilik, parlamentlərarası əməkdaşlığı*

*Məqalədə müəllif XX əsrin 90-cı illərinin əvvəllərində dövlət müstəqilliyi yaranan Azərbaycanın yerləşdiyi mühüm geosiyasi məkanda maraqlarında ənənəvi rəqiblər – Rusiya, İran və Türkiyə ilə əlaqələrində bu ölkələrin parlament qruplarının iştirakı, onun əhəmiyyəti, dövlətlərarası əməkdaşlıqda və Dağlıq Qarabağ konfliktinin həllində vasitəçilik cəhdlərinin rolu göstərilmişdir.*

# НАГОРНО-КАРАБАХСКИЙ КОНФЛИКТ И ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКАЯ СИТУАЦИЯ В СТРАНЕ МЕЖПРАВИТЕЛЬСТВЕННЫХ И МЕЖПАРЛАМЕНТСКИХ ОБСУЖДЕНИЯХ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ С РОССИЕЙ, ИРАНОМ И ТУРЦИЕЙ В НАЧАЛЕ 90-Х ГОДОВ XX ВЕКА

***Парвиз Сафаров***

**Ключевые слова**: *независимость, интересы, сотрудничество, нагорно-карабахский конфликт, посредничество, межпарламентские связи*

*В представленной статье автор показывает роль традиционных соперников - России, Ирана и Турции имевший геополитические интересы в регионе где находится Азербайджанская Республика которая обрела независимость в начале 90-х гг. XX в. Характеризуется значение отношений в различных сферах в т.ч. межпарламентских связей в уста-*

*новлении и укреплении межгосударственных связей а также посредническая деятельность межпарламентских групп в разрешении нагорно-карабахского конфликта*

# THE NAGORNO-KARABAKH CONFLICT AND THE SOCIO-POLITICAL SITUATION IN THE COUNTRY OF INTERGOVERNMENTAL AND ANTIPARLIAMENTARY DISCUSSIONS OF THE AZERBAIJAN REPUBLIC WITH RUSSIA, IRAN AND TURKEY IN THE EARLY 90S OF THE XX CENTURY

***Parviz Safarov***

**Key words**: *independence, interests, co-operation, Nagorno-Karabakh conflict, mediation, inter-parliamentary cooperation*

*In the presented article, the author shows the role of traditional rivals - Russia, Iran and Turkey, which had geopolitical interests in the region where the Republic of Azerbaijan is located, which gained its independence in the early 90s. Twentieth century. Characterized by the value of relationships in various fields in the current year. inter-parliamentary relations in the charter and strengthening of interstate relations as well as intermediary activities of inter-parliamentary groups in the resolution and the Nagorno-Karabakh conflict.*

Dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan dövlətinin beynəlxalq fəaliyyəti tamamilə yenidən qurulurdu. Azərbaycan xarici siyasətdə müharibələrdən, zor işlətməkdən və zor işlətməklə hədələməkdən imtina edir, beynəlxalq sənədlərdən irəli gələn təəhüdləri yerinə yetirməyə söz verir, bütün dövlətlərlə münasibətlərdə dinc-yanaşı yaşamağa və qarşılıqlı-faydalı əməkdaşlığa, daxili işlərə qarışmamağa, suverenliyə hörmət etməyə əməl edirdi.

80-ci illərin axırlarında və 90-cı illərin əvvəllərində baş vermiş hadisələrə «soyuq müharibə»nin qurtarmasına, SSRİ-nin süqutuna, kommunizmin məğlubiyyəti və Şərqi Avropada qərbpərəst demokratiyanın qələbəsinə, İran körfəzində müharibəyə Yaxın Şərqi və Mərkəzi Asiyanı bürümüş vəziyyəti əlavə etmək olar. Bu vəziyyətin detanatoru, 1979-cu il islam inqilabından sonra olduğu kimi İran idi. Bu gün Mərkəzi Asiya respublikaları (buraya Azərbaycanı da daxil etmək olar) Tehrandan, Qumdan və Məşhəddən yayılan, əsasən dini məzmunlu təbliğatın (güclü radio təbliğatının) obyektinə çevrilmişdir. Bu təbliğat bir qayda olaraq, yerli dillərdə və dialektlərdə aparılır. İran Mərkəzi Asiya respublikalarında baş verən hadisələri diqqətlə izləyir, bu ölkələrin

rəhbərlərini və xüsusilə də əhalisini islam yolu ilə getməyə çağırır, özlərini tərəqqinin nümunəsi kimi təqdim edir. İran rəhbərlərinin Mərkəzi Asiya respublikalarının belə hərəkət edəcəklərinə ümidləri böyük idi. Prezident Ə.H.Rəfsəncani əmin idi ki, orada «islamın şöhrəti dirçəlir» [1, 12].

90-cı illərin əvvəllərində Azərbaycanla iqtisadi-mədəni əlaqələri sürətlə inkişaf etdirən İran Qarabağ münaqişəsini dinc yolla həllinə cəhdlər də göstərmişdir.

Lakin nə qədər təəccüblü olsa da, istər Rusiya, istərsə də İranın vasitəçilik missiyalarından sonra hər dəfə Azərbaycan dərin hərbi böhrana məruz qalmışdır.

1991-ci ilin avqustunda Rusiya və Qazaxıstanın təşəbbüsü ilə keçirilən görüşdən sonra Ermənistan silahlı qüvvələri Xocalı, Hadrud və Goranboy rayonlarının bir sıra kəndlərini, həmin il dekabrın 21-də atəşin dayandırılması haqqında qəbul olunmuş Alma-Ata bəyannaməsindən sonra Xocalı şəhərini 1992-ci il fevralın 26-da vəhşicəsinə dağıdaraq, dinc əhalini qırmışlar [2, 132]. Qondarma DQR-i yaratmışlar [2, 102]. 1992-ci ilin mayında İranın təşəbbüsü ilə Azərbaycan və Ermənistan rəhbərlərinin Tehran görüşü başa çatan kimi Şuşa və az sonra Laçın şəhərlərinin ermənilər zəbt etmişlər. Bu təcavüzdən sonra İranın Xarici İşlər Nazirinin müavini M.Vaizi Azərbaycanın Xarici İşlər Naziri H.Sadıqovla görüşündə bildirmişdir ki, Şuşanın işğalı İran üçün gözlənilməz olmamışdır [2, 111].

1992-ci ilin iyun ayının əvvəllərində Moskvada Azərbaycanın dövlət katibi P.Hüseynovla görüşən Rusiya Federasiyasının dövlət katibi G.Burbulis açıq etiraf etmişdir ki, istər Xocalının, istərsə də Şuşanın işğalı Rusiyanın hərbi yardımı nəticəsində olmuşdur [1, 33].

Tacikistandan başqa, bütün Mərkəzi Asiya respublikalarında yayılmış türk dili, türk mədəniyyətinin birliyi və yaxınlığına arxalanan Türkiyə daha geniş fəaliyyətə başladı. Türkiyə Mərkəzi Asiyada əsas həlledici rol oynamaq istəyir. O mühüm iqtisadi yardım və geniş ticarətdən əlavə özünün «Türk modelini» - Qərb demokratiyası əsasında islam dövlətini dünyəvi xarakter ilə birləşdirən cəmiyyət modelini - təklif edir. Bu model təbii ki, Tehranın islam inqilabı ixracından daha üstün ola bilər. Beləliklə, iki xarici qüvvə İran və Türkiyə Mərkəzi Asiya torpağında kəskin rəqabət edirlər. Qeyd etmək lazımdır ki, Türkiyənin arxasında islam təməlçiliyinin Mərkəzi Asiyaya yayılmasından ehtiyat edan ABŞ və Qərb durur. Onlar Türkiyəyə böyük maliyyə və iqtisadi yardım göstərirlər ki, bu da İranda narazılıq doğurmaya bilməz. İranın tanınmış radikal din xadimi, Ayətulla Ə.Ə. Möhtəşimi Ankaranı «ABŞ-ın xeyrinə keçmiş SSRİ-də İranın mövqelərini dağıtmaq»da ittiham etmişdir [3].

Azərbaycanın xari c i s i y a s ə t i n d ə üstünlük - tarixi, milli, dini, mədəni və başqa tellərlə ölkəmizə yaxın olan Türkiyə Respublikasına verildi. Türkiyə ilə d i p l o m a t i k siyasi münasibətlərə xüsusi diqqət yetirildi. 1991-

ci ilin noyabrın 11-də Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk dövlət kimi Türkiyə 1992-ci ilin martında Azərbaycan Respublikasında öz səfirliyini açdı [4, 476]. 1991-ci ilin martında Türkiyə Prezidenti Turqut Ozalın səfəri Azərbaycana SSRİ tərkibində münasibətlərin inkişafı üçün şərait yaratdısa da, bu münasibətlər xeyli məhdud idi. 1992-ci ilin aprelində Türkiyənin baş naziri S.Dəmirəlin Bakıya səfəri iki ölkə arasında çoxsahəli münasibətlərin yeni əsasda inkişafı üçün zəmin hazırladı [1, 14]. Öz növbəsində 1992-ci ildə Azərbaycan Respublikasının prezidenti Ə.Elçibəyin və parlamentin sədri İ.Qəmbərin Türkiyə Respublikasına səfərləri bu dövr üçün qarşılıqlı siyasi münasibətlərin inkişaf dinamikasını səciyyələndirən əsas amillərdən hesablana bilər [5, 52]. 1993-cü ilin may ayında ölümündən bir neçə gün əvvəl Türkiyə Respublikasının Prezidenti T. Ozal Orta Asiya və Qafqaz səfərinin yekunu olaraq Bakıya gəldi. Azərbaycan rəhbərliyi ilə aparılan danışıqlar hər iki qardaş respublika arasında dövlətlərarası münasibətlərdə heç bir problemin olmadığını bir daha sübut etdi [1, 14].

Ermənistandan «vahid Azərbaycan» ideyasını ortaya atan AXC hökumətinə qarşı bir vasitə kimi istifadə edən İran, bu ölkəyə hərbi, iqtisadi yardım göstərməklə, özünün xarici siyasət doktrinasının özəyi olan islam faktorundan yan keçmiş və bununla da Ermənistana iqtisadi blokadanı yarmaqda təsirli kömək etmişdir. Ermənistan-İran münasibətlərində Yerevana hərbi yardım 1993-cü ildə müvəqqəti kəsilsə də, iqtisadi-ticarət əlaqələri davam etdirilmişdir.

Azərbaycan-İran münasibətlərində gərginliyin yaranmasına səbəb Azərbaycan tərəfinin bəzi populist, real vəziyyəti nəzərə almayan bəyanatları olmuşdur.

Bu, ilk növbədə Azərbaycanın dövlət maraqlarına zidd idi. Ermənistanın blokadası nəticəsində Azərbaycandan tam təcrid olunan Naxçıvan MR yalnız İranla sıx təmasları nəticəsində ərzağa, gündəlik tələbat mallarına və yanacağa olan tələbatının bir hissəsini ödəyə bilmişdir. 1992-ci ilin dekabrında cəbhədə vəziyyətin kəskinləşdiyini bəhanə edən respublika Ali Sovetinin o vaxtki sədri İ.Qəmbər İrana səfərini təxirə salmışdır [1, 18].

Ölkəmiz cənub qonşumuz olan Türkiyə ilə qarşılıqlı faydalı dövlətlərarası münasibətlər qurur və inkişaf etdirirdi. Türkiyənin Qərb demokratiyası yolu ilə getməsi Azərbaycan xalqı, o cümlədən bütün türk xalqları üçün nümunə idi və bütün bu proseslər ölkəmizə də müvafiq təsir göstərirdi. Azərbaycanın öz coğrafi-siyasi mövqeyindən çıxış edərək Türkiyə ilə Orta Asiya respublikaları arasında körpü rolunu oynamasında əhəmiyyəti dünya birliyi tərəfindən lazımınca qiymətləndirilməyə başladı. Azərbaycanla-Türkiyə arasında ikitərəfli dostluq və mehriban qonşuluq əlaqələrinin inkişafında müxtəlif səviyyəli rəsmi səfərlərin əhəmiyyəti olmuşdur.

1990-cı ilin yanvarından başlayaraq Azərbaycanla Türkiyə arasında iqtisadi və ticarət əlaqələrinin inkişafına dair müxtəlif müqavilələr imzalanmağa başladı. Azərbaycanla Türkiyə arasında tikinti, yeyinti sənayesi, yüngül sənaye, neft, qaz və kimya sənayesi sahəsində əməkdaşlıq barədə çox saylı müqavilələr bağlandı. 1992-ci ilin yayında Naxçıvan MR Sədərək rayonunda hər iki ölkənin birləşdirən körpü açıldı [4, 487].

Dünyanın nəhəng dövlətləri milli zəmində törədilən Ermənistan - Azərbaycan münaqişəsinə ilk gündən göz yumaraq, onun regional müharibə səviyyəsinə yüksəlməsinə mane olmadılar. Çünki Dağlıq Qarabağ münaqişəsinin süni şəkildə şişirdilməsi dünya dövlətlərinin bu regiona olan iqtisadi və siyasi marağı ilə sıx bağlı idi. Həmin münaqişənin başlıca təşkilatçılarından olan Sovet dövləti yaxşı başa düşürdü ki, Sovet respublikalarının gələcəkdə bazar iqtisadiyyatına keçməsi, ölkənin siyasi sistemində aparılan köklü islahatlar totalitar sosializm rejimini laxladacaq və millətlərin müstəqillik uğrunda mübarizəsinə təkan verəcəkdir. Ona görə də Mərkəz Azərbaycanı Ermənistanın əli ilə və ya lazım gələrsə Ermənistanı Azərbaycanın əli ilə sıxışdıraraq yeni ittifaqa daxil olmağa məcbur etmək, rus imperiyasını siyasi cəhətdən yeni formada qoruyub saxlamaq məqsədi güdürdü.

Mərkəzi Asiyanın türkdilli dövlətləri ilə siyasi və iqtisadi əlaqələr yaratmağa çalışan Türkiyə bu ölkələrə sərbəst çıxışı yalnız Azərbaycanla olan sərhədi vasitəsiləsi ilə mümkün idi. Qafqazda Azərbaycana ən mühüm strateji tərəfdaş kimi baxan Türkiyə erməni-azərbaycanlı münaqişəsində vasitəçi olmaq istəyirdi. Lakin Ermənistan tərəfinin Türkiyəni özünün tarixi düşməni sayması və münaqişənin nizamlanmasında qeyri-obyektiv mövqe tutmaqda günahlandırması bunu imkansız edirdi.

Son bir neçə onillikdə İran özünü bütün islam dünyasının ideoloji və dini lideri rolunda görmək istəyir. Ona görə də istər Yaxın və Orta Şərq ölkələrində, istərsə də keçmiş SSRİ-nin müsəlman respublikalarında yeridilən xarici siyasət bu istiqamətdə qurulur. Bu baxımdan İran Azərbaycanda xarici siyasətin onun milli mənafelərinə uyğun qurulmasını və iqtidarda İranla yaxınlaşmaya meyilli siyasi qüvvələrin təmsil olunmasını arzulayır. Dağlıq Qarabağ münaqişəsində ədalətli hakim rolu oynamağa cəhd edən İran bu yolla istər Azərbaycanda, istərsə də Qafqazda siyasi nüfuzunu bərqərar etmək istəyirdi.

Azərbaycan tərəfinin münaqişənin həllinin bir dövlətin inhisarına verməmək qətiyyətini görən Moskva özünə inamı artırmaq üçün heç olmasa uzun müddətli atəşkəsə nail olmaq üçün real addım atmaq məcburiyyətində qaldı. 1994-cü ilin 4 mayında Bişkekdə Azərbaycan, Ermənistan, Rusiya və Qazaxıstan parlament nümayəndələrinin, həmçinin Dağlıq Qarabağın erməni icmasının nümayəndələrinin görüşü keçirildi [6, 218-220]. Rusiyanın himayəsi altında keçən bu görüşdə Rusiya Federasiyası Şurasının sədri V.Şumeykonun iştirakı ilə tərəflər atəşkəsə nail olmaq barədə müraciət imzaladılar. Mayın 12-

də Dağlıq Qarabağda bütün cəbhə boyu atəşkəs barədə protokol imzalandı [7, 207].

1992-ci ilin mayında ölkə rəhbərliyində baş verən dəyişikdən sonra yeni iqtidar Azərbaycanın MDB-yə qoşulması məsələsini bir neçə dəfə müzakirə etdi. 1992-ci il oktyabrın 7-də Milli Məclis Azərbaycan prezidentinin iştirakı ilə bu məsələni geniş müzakirə etdi. Azərbaycanın MDB-də iştirakı məsələsi Milli Məclisin iclasına çıxarılmamazdan əvvəl komissiyalarda müzakirə edilmiş və maraqlıdır ki, yalnız iqtisadi siyasət komissiyası əsaslandırılmış müsbət rəy vermişdir [8, 30].

Burada qeyd etmək lazımdır ki, müdafiə nazirinin hadisələrin gedişindən baş çıxarmaması, Qarabağ savaşının taleyinin Azərbaycanın MDB-də iştirakı ilə çox bağlı olduğunu, Rusiyanın Azərbaycanı MDB məkanından uzaqlaşmasını qısqanclıqla qarşılayacağını, buna yol verməmək üçün ən əvvəl erməni-azərbaycanlı konfliktində özünün strateji müttəfiqi Ermənistana yardım edəcəyini anlamaması tez bir zamanda özünü göstərdi. Artıq 1992-ci ilin sonu, 1993-cü ilin əvvəlində Zəngilan-Ağdərə istiqimətlərində Azərbaycan ordusu mövqelərini itirməyə başladı [10], aprel ayında isə Kəlbəcəri düşmənə təhvil verərək geri çəkildi [4, 486].

1993-cü ilin oktyabrında ölkədə yaranmış hərbi-siyasi böhran MDB faktorunun qulaqardına vurulmasının dövlətə çox baha başa gəldiyini bir daha sübut etdi. Ona görə parlament yenidən aktuallaşan Azərbaycanın MDB-yə daxil olması məsələsini gündəliyə saldı. Sentyabrın 3-də parlamentdə çıxış edən Azərbaycan Respublikası prezidentinin səlahiyyətlərini həyata keçirən, Ali Sovetin sədri H.Əliyev keçmiş sovet məkanında siyasi-iqtisadi və mənəvi əlaqələrin saxlanılmasının zəruriliyini xüsusi vurğulayaraq, Azərbaycanın təhlükəsizliyini birbaşa bu mövqedən asılı olduğunu qeyd etdi [9, 4].

Sentyabrın 20-də Azərbaycan «MDB-nin iştirakçıları olan dövlətlərin Parlamentlərarası Assambleyası haqqında» sazişə qoşuldu. Sentyabrın 24-də Moskvada MDB ölkələri dövlət başçılarının zirvə görüşündə Azərbaycan MDB-yə daxil oldu. Eyni zamanda Azərbaycan «MDB üzvü olan dövlətlərin kollektiv təhlükəsizliyi haqqında» və «İqtisadi ittifaq yaradılması haqqında» müqavilələrə də qoşuldu.

Sentyabrın 29-da Azərbaycan Respublikasının Milli Məclisi yuxarıda qeyd olunan bütün müqavilələrin imzalanmasını təsdiq etdi [11, 26-41].

1994-cu ilin oktyabrında MDB liderlərinin növbəti görüşündə mənzil-qərargahı Sankt-Peterburqda yerləşən MDB Parlamentlərarası Assambleyası yaradıldı [1, 54].

1993-cü ilin əvvəlindən ölkədə davam edən ictimai-siyasi gərginliyin kuliminasiya nöqtəsi Gəncə hadisələri oldu. 1993-cü ilin 22 fevralında Ağdərə istiqamətindəki uğursuzluqlarda günahlandırılan 2-ci korpusun komandiri polkovnik Surət Hüseynov vəzifəsindən azad edildi. Lakin Gəncədə yerləşən və

böyük hərbi potensiala malik 709-cu hərbi hissə onun təsiri altında idi [12, 50-60].

Respublika Müdafiə Nazirliyinə və ölkə rəhbərliyinə tabe olmayan bu hərbi hissənin ləğvi üçün 1993-cü il iyunun 4-də hökumət qoşunları tərəfindən həyata keçirilən əməliyyat uğursuzluqla nəticələndi. Əvvəlcə Gəncəni, sonra isə ətraf rayonları ələ keçirərək, hərbi hissəsi ilə Bakıya yaxınlaşan S.Hüseynov iqtidarın istefasını tələb etdi. İyun ayının 13-nə qədər Baş nazir P.Hüseynov və Milli Məclisin sədri İ.Qəmbər istefa verməyə məcbur oldular. 1969-82-ci illərdə respublikada rəhbərlik etmiş, xalq arasında böyük nüfuza və hörmətə malik olan Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi [13, 6].

Heç bir sosial bazaya malik olmayan Ə.Elçibəy iyunun 17-dən 18-ə gecə gizli sürətdə təyyarə ilə Naxçıvana qaçdı [14,4].

Azərbaycan Respublikası Milli Məclisinin 24 iyun 1993-cü il tarixli qərarı ilə Prezident səlahiyyətlərinin icrası H.Əliyevə keçdi. Azərbaycanın ictiami-siyasi həyatında yeni dövr başladı.

1993-cü ilin ortalarından başlayaraq get-gedə güclənən erməni təcavüzünün qarşısını almaq üçüp çevik diplomatiya siyasətinə keçmək labüd idi. İlk növbədə təcavüzkar Ermənistanı beynəlxalq normalara riayət etməyə vadar etmək üçün Rusiyanın şəksiz nüfuzundan istifadə edilməli, inadkar və perspektivsiz antirusiya siyasətindən əl çəkilməli idi.

Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri H.Əliyev başda olmaqla Azərbaycan nümayəndə heyətinin 1993-cü il sentyabrın 5-dən 8-dək Moskva şəhərinə səfəri regionda ənənəvi geosiyasi maraqları olan Rusiya-İran-Türkiyə üçbucağı arasında tarazlaşdırılmış diplomatiya siyasətinin başlanğıcı oldu [15, 96].

Səfər ərəfəsində vaxtı ilə Ermənistan ərazisində yerləşdirilmiş Rusiya Silahlı Qüvvələrinin 7-ci ordusunda hərbi xidmətdə olmuş, erməni, hərbi birləşmələrinin tərkibində Azərbaycan Respublikası hüdudlarında aparılan hərbi əməliyyatlarda iştirak edərək Azərbaycanın Milli Ordusunun canlı qüvvəsini və texnikasını məhv etdiyinə görə 1992-ci il sentyabrın 11-də Kəlbəcər rayonunun Mərzilik kəndində yaxalanaraq Azərbaycan Respublikası Ali Məhkəməsi hərbi kollegiyasının 1993-cü il 12 may tarixli qərarı ilə məhkum edilmiş 6 nəfər rus hərbçisinin əfv edilib Rusiya Federasiyası dövlət orqanlarının sərəncamına verilməsi ölkəmizin Rusiya ilə əlaqələrin xoş məramlar üzərinə qurulmasına can atdığını sübut edirdi. H.Əliyevin Rusiya Federasiyasının Prezidenti V.Yeltsin, RF Ali Sovetinin sədri R.Xasbulatov, Nazirlər Sovetinin sədri V.Çernomırdin, xarici işlər naziri D.Kozırev, müdafiə naziri P.Qraçov və digər rəsmi şəxslərlə görüşlər və danışıqlarında tərəflər Azərbaycan-Rusiya münasibətlərini yaxşılaşdırmağın zəruriliyini qeyd etmişlər. Hər iki tərəf bildirmişdir

ki, iki ölkə arasında siyasi, iqtisadi və başqa əlaqələrin inkişafı üçün bütün imkanlardan istifadə olunması, bölgədə və beynəlxalq aləmdə birgə fəaliyyətin və əməkdaşlığın genişləndirilməsində qarşılıqlı səy göstərməlidir [15, 169].

Tərəflər Azərbaycan ərazisində hərbi əməliyyatların güclənməsindən, bu əməliyyatların Azərbaycanın cənub sərhədlərinə yaxınlaşmasıdan, yeni-yeni ərazilərin işğal olunmasından, qaçqınların sayının son dərəcə artmasından dərin təşviş keçirdiklərini bildirmişlər. Qeyd edilmişdir ki, son dövrlərdə döyüş əməliyyatları zonasında yaranmış vəziyyət bölgədə sülh və təhlükəsizlik üçün yeni qorxu yaratmışdır.

Rusiya Federasiyası və Azərbaycan Respublikası bölgədə sülhün bərqərar edilməsinə səy göstərdiklərini bildirmiş, BMT Təhlükəsizlik Şurasının 822 və 853 nömrəli qətnamələrinə uyğun olaraq Dağlıq Qarabağda və Azərbaycan Respublikasının digər rayonlarında əhalini olmazın müsibətlərinə düçar edən silahlı münaqişənin dinc siyasi vasitələrlə aradan qaldırılmasında, ilk növbədə atəşi və qan tökülməsinin dərhal dayandırılmasında, qəsb edilmiş bütün torpaqlardan işğalçı qüvvələrin tamamilə çıxarılmasına nail olmaqda, habelə hərbi əməliyyatların yenidən başlanmasına yol verməyən möhkəm təminatların hazırlanmasında sıx əməkdaşlıq etməyə hazır olduqlarını təsdiq etmişlər.

Azərbaycan diplomatiyasının Rusiya istiqamətində bu gedişini Qarabağ cəbhəsində müvəqqəti hərbi üstünlük qazanan Ermənistanın bəzi siyasi liderləri, özlərinin diplomatik məğlubiyyətinin başlanğıcı kimi qiymətləndirdilər. Ona görə də 1993-cü ilin sentyabrında Fransanın «Liberasion» qəzetinə müsahibə verən Ermənistanın dövlət naziri S.Taşyanın «Nə vaxtsa müharibə qurtaracaq və biz keçmiş Sovet İttifaqından miras qalmış torpaq parçası ilə kifayətlənməyi öyrənməyə məcbur olacağıq» sözlərində ruh düşgünlüyü aydın sezilirdi [16].

Azərbaycanın tarixi da ənənəvi müttəfiqi olan Türkiyə ilə münasibətlərdə dostluq, səmimilik və qarşılıqlı anlaşma prinsipləri davam edirdi. 1993-cu ilin ortalarında Azərbaycan torpaqlarına erməni təcavuzünün artdığı bir zaman Türkiyə hökuməti sentyabr ayında yeni işğalları qətiyyətlə pisləyən kəskin bəyanatla çıxış etdi. Sentyabrın 3-də Türkiyə prezidenti yanında keçirən Təhlükəsizlik Şurasının iclasında ermənilərin yeni təcavüzləri nəticəsində Azərbaycanda yaranan hərbi-siyasi durum müzakirə edilmiş, işğalçı qoşunların dərhal və qeyri-şərtsiz çıxarılması tələb olunmuşdur [17, 13].

Azərbaycanın yeni iqtidarının ölkə ətrafında formalaşan tarixi geosiyasi üçbucaq ətrafında tarazlaşdırılmış mövqe tutmaq cəhdi erməni təcavüzü nəticəsində ağırlaşan hərbi durumla ilk nəticələrini verməyə başladı. Sentyabrın 13-də Milli Məclisdə çıxış edən H.Əliyev qeyd etdi ki, İran İslam Respublikasında, xüsusilə Azərbaycanla həmsərhəd rayonlarda milyonlarla azərbaycanlı öz həmvətənlərini qoruçaq üçün bu müharibədə iştirak etmək əzmin-

dədirlər. Prezident qeyd etdi ki, Türkiyənin də dövlət başçıları bildiriblər ki, təcavüz davam edərsə, Azərbaycana qoşun yeridəcəklər [17, 12].

İran İslam Respublikasının prezidenti Ə.H.Rəfsəncani 1993-cü il sentyabrın 21-də bəyanat verərək işğal olunmuş Azərbaycan torpaqlarının dərhal boşaldılmasını tələb etmişdir [18].

1994-cü ilin aprelində Azərbaycan Milli Məclisinin sədri R.Quliyevin Moskvaya səfəri, Federasiya Şurası nın sədri V.Şumeyko ilə, Müdafiə naziri P.Qraçovla və digər rəsmi şəxslərlə görüşü, Federasiya Şurasının iclasında çıxışı iki ölkə arasında münasibətlərin inkişafında mühüm hadisə oldu [1, 73].

1994-cü il 17-24 noyabrda Rusiya Federal Məclisinin deputatları, dövlət və hökumət orqanlarının nümayəndələri Moskva meriyasının rəhbərliyi ilə görüşlər keçirmə üçün Azərbaycan Milli Məclisinin deputatı A.Manafovanın başçılığı ilə 6 nəfərlik nümayəndə heyəti Moskvada olmuşlar. Azərbaycan nümayəndələri Federasiya Şurasının sədr müavini R.Abdulatipovla, MDB işləri üzrə komitənin sədri V.Qustovla, Federal Məclisin yuxarı palatasının digər üzvləri ilə, Moskva merinin müavini E.Bakirovla, millətlərlə iş və regional siyasət nazirinin birinci müavini K.Saqolda ilə görüşlər keçirmişlər. Görüşlərdə parlamentlərarası əlaqələr, Dağlıq Qarabağ konfliktinin həlli yolları, Bişkek sazişinin dönmədən həyata keçirilməsinə nail olmaq və problemin konservləşməsinə heç vəchlə yol verməmək məsələləri müzakirə edilmişdir. Azərbaycan tərəfi təəssüflə qeyd etmişdir ki, erməni təcavüzü nəticəsində evlərindən didərgin düşən qaçqınlara Rusiya lazımi qədər diqqət yetirmir və humanitar yardım göstərmir. Rusiya tərəfinin nəzərinə bir daha çatdırılmışdır ki, Dağlıq Qarabağ probleminin ədalətli və beynəlxalq hüquq normalarına uyğun həlli ilk növbədə Rusiyanın obyektiv və prinsipial mövqeyindən çox asılıdır.

Azərbaycana münasibətində səmimi sözlər Rusiya Dövlət Dumasının «Rusiya yolu» deputat qrupunun həmsədri, Rusiya ictimai ittifaqının sədri S.Baburin və Dövlət Dumasının deputatı S.Mixeyevin 1995-ci il aprelin 28-də Moskvada Dövlət Dumasında Ermənistana və Azərbaycana etdikləri səfərlərin yekununa həsr etdikləri mətbuat konfransında səslənmişdir. S.Baburin qeyd etmişdir ki, Ermənistan DQ konfliktində iştirak etmir tezisindək əl çəkməlidir, Azərbaycanın 20 faiz torpağının işğal edilməsi faktı önə çəkilməlidir. Bununla yanaşı S.Baburin Azərbaycanı ermənilərin öz haqqlarını müdafiə etməsi faktını da nəzərə almağa çağırmışdır. O, Rusiyanın Qafqazdan gedəcəyi halda burada ABŞ, Türkiyə və İranın mövqelərinin möhkəmlənəcəyindən ehtiyat etdiyini də vurğulamışdır. Dövlət Dumasının deputatı S.Mixiyev Ermənistanla müqayisədə Azərbaycanda rus dilinin və rus dilli məktəblərin qaldığını, hətta bəzi yerlərdə artdığını, rus dilli əhaliyə dövlət qayğısı olduğunu qeyd etmişdir.

1995-ci il iyulunda Rusiya Federasiyası Şurasının sədri V.Şumeyko Bakıya gəldi. Son 2-3 ildə o, Kremlin Azərbaycana gələn ən yüksək səviyyəli ilk nümayəndəsi idi. Danışıqlarda Azərbaycanı narahat edən bir çox prob-

lemlərin həlli barədə Rusiya tərəfindən konkret fikir söylənməsə də V.Şumeykonun «Qarabağ seperatizmini» açıq pisləməsi Moskvanın problemin həllinə beynəlxalq hüquq normalarına riayət etmək ruhunda yanaşmasına ümidləri artırdı [1, 73-75].

1992-ci il iyunun 25-də İstanbulda Qara dəniz hövzəsinin 11 dövləti (Azərbaycan, Türkiyə, Moldova, Ukrayna, Albaniya, Gürcüstan, Rusiya, Ermənistan, Yunanıstan, Bolqarıstan) Qara dəniz İqtisadi Əməkdaşlığı haqqında bəyannamə imzaladılar və bəyanat qəbul etdilər [1, 89].

QİƏ Parlament Məclisi isə 1993-cü il 16-17 iyunda bu təşkilatın iştirakçısı olan ölkələrin parlament üzvlərinin görüşündə yaradıldı. Görüşdə1992-ci ildə QİƏ bəyannaməsini imzalayan 11 dövlətdən 10-u təmsil olunmuşdur. Yunanıstan müşahidəçi kimi iştirak edirdi. Görüşün nəticəsində Parlament Məclisinin yaradılması haqqında bəyannaməni imzaladılar.

Məclis ildə iki dəfə öz sessiyasına toplaşır: bahar və payız sessiyaları. QİƏPM-nin prezidenti rotasiya üsulu ilə (ingilis əlifbasına əsasən) iştirakçı dövlətlərin parlament başçılarından 6 ay müddətinə seçilir. 1994-cü ilin dekabrından 1996-cı ilin iyulunadək bu təşkilatın prezidenti Azərbaycan Respublikasının Milli Məclisinin sədri R.Quliyev olmuşdur. 1994-cü ilin dekabrından isə iki il müddətinə QİƏPM-in vitse-drezidenti Milli Məclisinin sədr müavini Y.Əliyev olmuşdur. Təşkilatın siyasi və hüquqi işlər komitəsinin iclası (1995-ci il) və Baş Məclisin bahar sessiyası (1996-cı il) Bakıda keçirilmişdir [1, 90].

Rusiyanın Azərbaycanda strateji marağı tarixi mərhələlərlə şərtlənir və onun milli mənafe dairəsindən kənara çıxır. Azərbaycan xalqını Rusiya ilə müəyyən müştərək tarixi mərhələ, mədəniyyət ünsürləri birləşdirir. Yerli əhalinin bir hissəsi dünyagrüşümüzə rus mədəniyyəti vasitəsilə daxil olan dəyərlərini keçmiş İttifaqın xalqları ilə bölüşür. Bir sıra geosiyasi, hər şeydən əvvəl iqtisadi və humanitar amillər Rusiya ilə əlaqələrin qaydaya salınmasında Azərbaycanın marağını müdafiə etməyə qabildir.

Dünyəvi demokratik və hüquqi dövlət quruculuğu prosesini uğurla başa çatdırmaqda Azərbaycan Türkiyənin təcrübəsinə əsaslanır və onu özünə müttəfiq sayır. Azərbaycan öz beynəlxalq nüfuzunun artmasında, Avropa ölkələri ilə əlaqələrinin möhkəmləiməsində strateji müttəfiqi olan Türkiyəyə çox bel bağlayır.

Hal-hazırda iqtisadiyyatını modernləşdirmək üçün müasir texnologiyaya yiyələnmək məqsədi ilə Avropa və ABŞ şirkətlərinə yol tapmaqda əksər hallarda Türkiyənin müvafiq strukturları vasitəçilik edirlər.

Öz növbəsində Türkiyə diplomatiyasında Azərbaycan istiqaməti xüsusi yer tutur. Türkiyə Azərbaycana Orta Asiyaya daha aktiv müdaxilə etmək üçün plasdarm kimi baxır. Orta Asiya dövlətləri ilə birbaşa kommunikasiya yaratmaqda Türkiyə Azərbaycanı mühüm strateji nöqtə hesab edir. Eyni

zamanda Azərbaycandan və Orta Asiya ölkələrindən enerji daşıyıcıları idxal etməklə buraya öz məhsullarını və texnologiyasını idxal etməklə Türkiyə yaxın gələcəkdə regional super dövlətə çevrilmək ümidindədir. Türkiyə güclü və müstəqil Azərbaycan dövlətinin bərqərar olmasında maraqlıdır. Çünki belə halda o öz şimal-şərq sərhədlərini erməni-rus təhlükəsindən qoruya bilər.

Azərbaycan böyük qonşusu İranla normal münasibətlər saxlamaqda maraqlı olmalıdır. Ona görə də İranla böyük sərhədə malik olan Azərbaycan iki ölkə arasında yaranan ziddiyyətləri və fikir ayrılıqlarını qabartmayaraq Azərbaycanın tərkib hissəsi olan Naxçıvan anklavı ilə yalnız İran vasitəsi ilə yerüstü əlaqə saxlamağı və gələcəkdə İran vasitəsilə Fars körfəzinə, Yaxın Şərqə və bəlkə də dünyaya çıxmağın perspektivlərini dərk edərək onunla normal qonşuluq münasibətləri saxlamalıdır.

## ƏDƏBİYYAT


1. Səfərov P. 90-cı illərdə Azərbaycanın beynəlxalq vəziyyəti və xarici siyasəti. Bakı, ADPU, 1999, 117 s.
2. Səfərov P. Azərbaycan Respublikası Rusiya-İran və Türkiyənin geosiyasi maraqlarında. Bakı, 2011, 249 s.
3. Keyhan Havai. 1993, december 8
4. Azərbaycan tarixi. Bakı, BDU, 2010, 560 s.
5. ARAS arxivi. Fond 2941, siyası 1, iş 155
6. Митяев В. Карабахский конфликт / Армения: проблемы независимого развития / М., Европа, 2006, 256 с.
7. Məmmədov N. Dağlıq Qarabağ gerçəkliyi: soyqırım, terror, deportasiya, işğal (XX yüz illik). Bakı, Təhsil, 2009, 272 s.
8. ARAS arxivi. Fond 2941, siyası 1, iş 58
9. ARAS arxivi. Fond 2941, siyası 1, iş 221
10. “Azərbaycan qəzeti”, 15 dekabr 1992
11. ARAS arxivi. Fond 2941, siyası 1, iş 156
12. ARAS arxivi. Fond 2941, siyası 1, iş 153
13. ARAS arxivi. Fond 2941, siyası 1, iş 204
14. ARAS arxivi. Fond 2941, siyası 1, iş 206
15. ARAS arxivi. Fond 2941, siyası 1, iş 154
16. “Liberasion”, 1993, 12 sentyabr
17. ARAS arxivi. Fond 2941, siyası 1, iş 220
18. “Keyhan”, 1993, 23 sentyabr

**UOT 94**

# XVII-XX ƏSRLƏRDƏ BÖYÜK BRİTANİYANIN ŞƏRQ SİYASƏTİ

***Sehran İxtiyar oğlu Səfərov***
***AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu***
*sehran..safarov@mail.ru*

**Açar sözlər:** *Şərq siyasəti, Yaxın Şərq, ispan Armadası, müstəmləkə siyasəti, imperiya, iqtisadi münasibətlər, dünyanın bölüşdürülməsi, iqtisadi böhran, Ost-Hind şirkətləri, diplomatik cəhd, monarxiya.*

*Məqalədə Böyük Britaniyanın Şərq siyasətindən bəhs olunur. Böyük Britaniyanın ispan "Məğlub edilməz Armada"sını məğlub etməsindən sonra onu dəniz dövlətinə çevirməsi ilə yanaşı böyük gücə gətirdi. Əgər XVIII əsrin ortalarınadəkBöyük Britaniyanın Şərq siyasətində əsas yeri ticarət tuturdusa, artıq əsrin sonlarından etibarən dövlət ticari güc olmaqdan çıxıb hərbi-siyasi muttəfiq halına gəlmişdir. Məqalədə həmçinin böyük dövlətlərin dünyanı yenidən bölüşdürülməsi uğrunda mübarizəsi və bunun nəticəsində Birinci Dünya müharibəsinin başlaması tədqiq və təhlil olunmuşdur.*

## ВОСТОЧНАЯ ПОЛИТИКА ВЕЛИКОБРИТАНИИ В XVII-XX ВЕКАХ

***Сехран Сафаров***

**Ключевые слова:** *Восточная политика, ближний восток, испанская Армада, колониальная политика, империя, экономические отношения, разделения мира, экономический кризис, Ост-Индские компании, дипломатическая попытка, монархия*

*Статья посвящена восточной политике Великобритании. После того как англичане победили непобедимую армаду Испании, о напревратила ее в морское государство. Если до середины восемнадцатого века торговля была доминирующей частью британской политикина Ближнем Востоке, то с конца века она перестала быть коммерческой державой и стала военно-политическим союзником. В статье также исследуется и анализируется борьба крупных держав за перераспределение мира и, как следствие, начало Первой мировой войны.*

# THE EASTERN POLITICS OF GREAT BRITAIN IN THE XVII-XX CENTURIES

***Sehran Safarov***

**Key words:** *Eastern policy, near east, spanish Armada, colonia lpolicy, empire, economic relations, world sharing, economic crisis, East India companies, diplomatic attempt, monarchy.*

*The article deals with UK Eastern policy. After the British defeated the Spanish invincible Armada, it turned it into a maritime state. If trade had been the dominant part of British politics in the Middle East until the middle of the eighteenth century, since the end of the century it has ceased to be a commercial power and has become a military-politicalally. The article also investigates and analyzes the struggle of major power store distribute the world and, as a result, the beginning of World War I.*

İngiltərənin Şərq siyasəti təşəbbüs olaraq başladı. 1853-cü ildə Levant şirkətinin Yaxın Şərq vasitəsilə Hindistanda göndərdiyi 5 nəfərlik ekspedisiyadan sağ qalan Ralf Fitç 1591-ci ildə Londona qayıda bildi. O, qələmə aldığı "Mənim heyrətamiz səyahətimin geniş təsviri" adlı hesabatına dövrün İngiltərə lord-kansleri Berleyə təqdim etmişdi [1, s. 377].

Ralfın səyahəti zamanında İngiltərə İspaniyanın məğlubedilməz Armadasını 1588-ci ildə məğlub etmiş və dənizlərdə İspaniyanın üstünlüyə və tək tərəfli monarxiyasına  son qoymuşdu. Yeni dünya üzərində, dənizlərdə və ələ keçiriləcək ölkələrdə İngiltərə öz nüfuzunu yaymaq üçün sadəcə İspaniya ilə mübarizə aparmır, İspaniyanın haqlarının müdafiəçisi olan papalığına qarşı da sərt kampaniya başlatmışdı. Roma papası VI Aleksandrın etirazlarına cavab olaraq İngiltərə kraliçası YelizavetaTudor belə deyirdi: "bu, ispanlar kimi mənim təbəələrimində qanuni hüquqdur, çünki dəniz və hava bütün xalqlar üçün ümumidir" [1, s.377].

Dəniz və havanın bütün xalqların ümumi haqqı elan edildiyi İngiltərə XVI əsrin axırlarından etibarən İspaniya rejiminin basqısını ləğv etmiş Hollandiya ilə birlikdə dünyanın və onun sərvətlərinin kəşfi üçün geniş ekspedisiya başlatdı[2, s.2]. Bəxtiyar Əhmədovun da qeyd etdiyi kimi, "İspaniya Armadasının darmadağın edilməsindən sonra Avropada yaranmış vəziyyət İngiltərə burjuaziyasını yeni "qəhrəmanlıqlara" ruhlandırır, onun ideoloqları isə ingilis millətinin üstünlüyü sübut etdirir və müstəmləkələr uğrunda fəal mübarizəyə çağırırdılar" [3. s.19].

İspaniyanı məğlub etməsi İngiltərəni həddindən artıq coşdurdu. İngiltərə dənizlərdə İspaniyanın hegemoniyasını yıxmaqla sürətlə öz hegemoniyasını

yaratmağa başladı. Bir müddətdən sonra İngiltərə "bütün xalqların ümumi malı elan etdiyi dənizlərin" tək hakimi olmağa can atmağa başladı. C.Qarent bu zəfərdən sonra İngiltərəni belə səciyyələndirirdi: "çoxlu şanlı adamların gözəl və gözəllik ölkəsi İngiltərə"[4, s.10].

Qələbədən əvvəl İngiltərə dəniz quldurluğuna dəstək verərək İspaniya qızıllarınıöz ölkəsinə cəlbetməyə çalışmış, qeyri-hüquqi yollardan özü üçüngeniş sərmayə hovuzu yaratmışdı. "Kənd və ev təsərrüfatı"nın sahib olduğu XV və XVI əsrin İngiltərəsində quldurlarla əlbir hərəkət edən səyyah tacirlər sinfi meydana gəlməyə başlamış, V.Sombratın da qeyd etdiyi kimi, avropalı tacirlər birbaşa quldurluq fəaliyyətləri sonunda bəzən qazancları 200-300 faizə qədər çıxan müəzzəm gəlir əldə etməyə başladılar. Sombarta görə, ingilis və ümumilikdə avropalı quldur-tacirlər ilk hədəf olaraq özlərini qorumaqda aciz zəif millətləri hədəf seçdilər. İlk koloniyalar və qul ovçuluğu da məhz ələkeçirilən belə yerlərdə başladı [5, s. 55].

Afrika sahillərində zəif xalqların istilası davam edərkən, İngiltərə gücünə və dünyadakı varlığına hörmət etdiyi dövlətlərlə iqtisadi əməkdaşlığa cəhd edirdi. 1550-ci ildə Səfəvi ölkəsi ilə yaradılan istənilən ticari əməkdaşlığın başlıca məqsədi də bu idi. Eyni tarixlərdə ingilislərin təsis etdikləri Moskva Şirkəti Şərqlə təmasa keçmişdi. 1591-ci ildə Ceyms Lankasterin başçılığı ilə Hindistana 3 gəmidən ibarət ekspedisiya, 1596-cı ildə isə R.Adams və T.Bromfildin başçılığı ilə Çinə heyətlər göndərildi [6, s.288]. Lakin bu ekspedisiyalardan istənilən nəticə alınmadı, hətta Çin ekspedisiyası yolda məhv oldu.

Hindistan yolunda Avropa ölkələri arasında kəskin, bir çox hallarda qanlı mübarizə gedirdi. Hindistana can atan ekspedisiyaların çoxu yolda bir-birlərini qarət edir, ticarət yolu üstündəki adalara quldur düşərgələri salırdılar. Dəniz quldurları və tacirləri Atlantik okeanında İspaniya gəmilərinə hücum edir, ingilis dəniz quldurları C.Lankaster və B.Bud Hind okeanında Portuqaliya gəmilərini qarət edirdilər. B.Əhmədovun qeyd etdiyi kimi, "uzun müddət davam edən kəskin rəqabət mübarizəsi nəticəsində geridə qalmış Portuqaliya XVII əsrin sonlarında Hindistandan sıxışdırılıb çıxarıldı və yalnız iki təcrid olunmuş xırda mülklərini - Qoa və Diunu öz əlində saxlaya bildi. Ön plana isə Hollandiya, İngiltərə və Fransa burjuaziyası keçdi" [2, s.20].

1599-cu il martın 10-da Londonun Levant və Moskva şirkətlərinin tacirləri hökümətə "Şərqi Hindistanla ticarət əlaqələri yaratmaq arzularının səbəbləri haqqındabəzi mülahizələr" adlı sənəd təqdim etdilər. Nüfuzlu tacirlərdən, yeni mülkədardan və "ölkələrin ictimai həyatında məhşur olan" digər adamlardan ibarət nümayəndə heyətinə qraf Corc Kemberlend başçılıq edirdi. Gizli Şura bu sənədi qəbul etdi. Bundan casarətlənən tacirlər sərmayədarlar və bankirlər ticarət şirkəti yaratmaq haqqında layihə hazırladılar [6, s.21].

Hazırlanan layihənin mahiyyətini B.Əhmədovun belə şərh edir: “Layihənin müəllifləri İngiltərə hökumətinə açıq şəkildə bildirdilər ki, Ost-Hind ticarətinə himayəçilik göstərməklə hökumət bir sıra sosial problemləri, o cümlədən sərgərdanlıq problemini həll edə bilər. Ost-Hind şirkətinin ideoloqu T.Men sübut edirdi ki, Ost-Hind ticarət şirkəti dövləti böyük işsizlər ordusundan xilas etməyə qadirdir. XVI əsrin ikinci yarısında Moskva şirkətinin Səfəvi dövlətində fəaliyyət göstərən nümayəndəsi Ser A.Edvardsın da sübut edirdi ki, İngiltərə öz sərgərdanların Türkiyəyə qarşı müharibədə iştirak etmək üçün Səfəvilər dövlətinə göndərməklə çoxlu “dəli adamlardan” xilas ola bilər. Bu fikri daha da inkişaf etdirən T.Men yazırdı ki, Şərq ticarəti gəmiçiliyin daha da inkişaf etməsinə gətirib çıxaracaq, bu isə “yüzlərlə yoxsula əmək haqqı” verəcək, “işsizlərdən matrosların toplanmasına kömək edəcək” və onları dənizdə sərt intizama tabe etməklə dövlət əlacsız və qanunsuz ünsürlərdən azad olacaqdır”[2, s.21]. Bunun sonunda da ingilis tacirlərinin 22 sentyabrda təşkil olunan birinci yığıncağında yeni ticarət şirkəti yaratmaq haqqında qərar qəbul edildi [6, s.21]. 2 gün sonra təşkil edilən ikinci yığıncaqda “Şərqi Hindistana, buraya yaxın olan digər ölkələrəvə adalara artıq bu il ekspedisiya təşkilinə hazırlıq” haqqında qərar qəbul edildi. Bu məqsədlə yaradılan qeydiyyat kitabına 101 tacir imza atarkən, açılan bank hesabına da 30.13 funt-sterlinq kapital qoyuldu.Qısa müddət ərzində səhmlərin ümumi miqdarı 72.000 funt-sterlinqə yüksəldi. 25 sentyabrda London tacirlərinin təşkil etdiyi üçüncü yığıncaqda şirkət ən vacib məsələlər- kraliçanın köməyini təmin etmək və şirkətin hüquqları haqqında fərman almaq məsələlərini müzakirə etdi. Belə ki, “Faunderşolda toplanmış tacirlər Şərqdə Britaniya hökmranlığını təmin etmiş təşkilatın yaranmasının şahidi oldular. Beləliklə, Faunderşol nəhəng Britaniya müstəmləkə imperiyasının beşiyinə çevrildi”[7, s.3].

1600-cü ilin dekabrında şirkətin 200 nəfər üzvü kraliça Yelizaveta ilə görüşdü. Həmin gün kral sarayı üçün o vaxta qədər görünməmiş qeyri adi bir gün idi. Kraliçanın, dəbdəbə ilə geyinmiş nazirlərin və saray əyanlarının qarşısında sadə geyimli tacirlər dayanmışdılar. Şirkət nümayəndələrindən biri kraliçaya müraciətlə bildirdi: “Əlahəzrət, bizim sürətlə hərəkət edən gəmilərimiz, pulumuz, adamlarımız vardır... Biz sizin əmrinizlə hər cür zəngin Şərq mallarını ingilis limanlarına gətirməyə hazırıq”. Bundan sonra 1600-cü il dekabrın 31-də kraliça şirkətin hüquqları haqqında 15 il müddətinə verilən xartiyanı imzaladı. Bu sənəd yeni yaranan şirkətə geniş səlahiyyətlər verirdi.Beləcə qoca kraliça sahibkarlıq ruhu hələdə güclü olan bir dövlət başçısı kimi heç tərəddüd etmədən burjuaziya ilə ittifaqa girdi. Bu İngiltərənin Şərqlə münasibətlərinin ticarət məqsədilə mənfəət hesabına yarandığı mənasına gəlirdi [8, s.5].

Beləliklə, Ost-Hind şirkətinin yaranması ilə təməli qoyulan İngiltərənin Şərq siyasətinin formalaşan ticari əsaslarını B.Əhmədov belə sıralayır:

1. XVI əsrin ikinci yarısında İngiltərədə kapitalist münasibətlərinin sürətli inkişafı Ost-Hind şirkətinin yaranmasının başlıca və həlledici səbəbi oldu. İngiltərənin kapitalist sənayesi yeni satış bazarları və xammal mənbələrinə ehtiyac hiss edirdi.
2. Dəniz quldurlarının uğurlu əməliyyatları və "məğlubedilməz Armada"nın darmadağın edilməsi İspaniya monarxiyasının zəifləməsinə və tədricən dənizlərdə ağalığın İngiltərəyə keçməsinə səbəb oldu, bu da İngiltərə burjuaziyanın Cənubi-Qərbi, Cənubi-Şərqi Asiya və Uzaq Şərq ölkələrinə soxulmasını sürətləndirdi.
3. Ost-Hind şirkətinin yaranmasında aparıcı rolu London burjuaziyası və burjualaşmış yeni əyanları oynadı. Bu işdə məşhur əsilzadələr və yüksək rütbəli dövlət məmurlarının da müəyyən rolu oldu.
4. İspaniya katolik monarxiyasının zəifləməsində maraqlı olan "tacirlər və quldurlar" kraliça Yelizaveta Tüdor İngiltərə burjuaziyasının və yeni dvoryanların təşəbbüsünü qətiyyətlə müdafiə etdi.
5. Əslində Ost-Hind şirkəti 1599-cu ildə yarandı,lakin İspaniya ilə aparılan danışıqlar şirkətin hüquq və imtiyazları haqqında xartiya verilməsini 1 il ləngitdi.
6. 1600-cü il dekabrın 31-də 15 il müddətinə verilmiş xartiya şirkətə geniş hüquq və imtiyazlar verir, Şərqdə Britaniya müstəmləkə imperiyasının təməlini qoyur və "Ümid burnundan Magellan boğazına" qədər müxtəlif ölkələrdə hökmranlıq yaratmaq imkanını nəzərdə tuturdu [2, s.25-26].

Ost-Hind şirkətini bəsit bir ticarət şirkəti adlandırmaq doğru deyildir. İngiltərə tərəfindən şirkət hüquqlarının təsdiq edilməsi ilə ingilis diplomatiyası da prosesə daxil oldu. Şirkətin nizamnaməsinə diqqət etdiyimizdə şirkətin dövlət prinsipləri əsasında necə formalaşdığı açıqca özünü biruzə verir. Şərq ölkələrindəki faktoriyalarda xidmət edən agentlərin fəaliyyətləri də Şərqi-Hindlə əlaqələndirilirdi. Ekspedisiya rəhbərlərindən biri Daunton şirkətin Hindistanın Surat şəhərindəki nümayəndəsinə "həm kiçiklərin, həm də böyüklərin davranışını sayıqlıqla izləməyi" əmr edir və göstərirdi ki, "əgər bəziləri həddindən artıq sərxoşluq etsələrvə ya dava səbəbini göstərməklə birinci gəmi ilə İngiltərəyə göndərmək lazımdır" [9, s.72].

Tacirlər və xüsusilə şirkət üzvləri qarşısında çox yüksək tələblər qoyulurdu. Bu baxımdan İngiltərənin xarici ticarət üzrə xəzinədarı T.Menin tacirin yiyələnmiş olduğu keyfiyyət və biliklər haqqındakı mülahizələri çox maraqlıdır. Onun irəli sürdüyü 12 maddədən ibarət tələblərdə deyilir:

1. Tacir yaxşı yazıçı, yaxşı riyaziyyatçı, qanunlarının fraxt müqavilərinin, fraxt və siğorta haqqında qanunlarının bilicisi olmalıdır.
2. Tacir bütün xarici dövlətlərin çəki, ölçü və pul sistemini bilməlidir, bunsuz ticarət işlərinə yaxşı rəhbərlik edə bilməz.

3. Tacir yaxşı gömrük, vergi, rüsum məsələlərini və mal idxalı ilə bağlı olan digər məsələləri bilməlidir.
4. Tacir Şərq ölkələrində hansı malların bol olduğunu və hansılarını olmadığını, bu malların haradan gətirilməsini bilməlidir.
5. Tacir tariflər sistemini, valyutalar haqqında qanunları bilməlidir.
6. Tacir adları cəkilən xarici dövlətlərdə hansı malların idxalı və hansı malların ixracının qadağan olunduğunu bilməlidir, əks halda o zərər çəkə bilər.
7. Tacir siğorta xidmətinin qanunlarını, qaydaları və adətləri yaxşı bilməlidir.
8. Tacir gəmilərin hazırlanması və təmiri üçün lazım olan bütün materialların qiyməti və keyfiyyəti haqqında biliyə malik olmalıdır.
9. Tacir ticarətin bütün üsul və metodları haqqında bilavasitə biliyə malik olmalıdır.
10. Tacir gəmiçilik sənətində mahir olmalıdır.
11. Müvəqqəti olaraq yad ölkələrdə yaşayan səyyahlar kimi tacir müxtəlif dillərdə danışmağı öyrənməli, əcnəbi şahzadələrin adi gəlirlərini və xərclərini səylə müşahidə etməli, onların qanunlarını, adətlərini, siyasətini, davranışını, dinini, incəsənətini və yaşayışını öyrənməli, onlar haqqında öz ölkəsinin xeyri üçün hərcəhətli məlumat almağa qadir olmalıdır.
12. Bütün tacirlərin böyük alim olması məcburi deyil, lakin gənclikdə o latın dilini bilməlidir [10, s.2-3].

Beləliklə, İngiltərə erkən müstəmləkə siyasətinin əsas prinsipləri,onun “mənəvi əsasları” və “əxlaqi başlanğıcı” ingilis tarixçisi R.Reynolds tərəfindən nəşr olunan Ost-Hind şirkəti xidmətçilərinin duasında öz əksini tapmışdır. Şirkətin xidmətçiləri “ulu və çox rəhimli tanrıya” müraciət edərək onu bizə öz vəzifələrimizi qətiyyətlə həyata keçirmək, namusla, yuxarılara itaətkar, məhəbbətli, dinc və bir-birimizə qarşı rəhmdil yaşamaq üçün öz xeyirxahlığını əsirgəməməyə çağırırdılar. “Qoy içərisində yaşadığımız bu hind xalqları bizim mülayim və ədalətli davranışımızı görüb bizim müqəddəs dinimizə, bizim ağamız və xilaskarımız İisus Xristosun (ona şərəf, şöhrət, hörməti indi və əbədi) Yevangeliyasına ədalətli hörmət etsinlər”. “Ayrıca, şirkətin baş şurasında onun 30 qırmızı və ağ zolaqlı, yuxarı sol küncündə göy düzbucaqlı olan bayrağı təsis edildi. Bu bayraq Birləşmiş Ştatların gələcək dövlət bayrağın prototipi idi” [2, s.26-27].

Müasir ingilis tarixşünaslığı Şərqi Hind şirkətinin yaranması prosesini, tarixini və İngiltərənin Şərq siyasətini müsbət baxışlarla analiz etmək tərəfdarıdırlar. Onlara görə, Ost-Hind şirkəti Hind xalqına və ümumiyyətlə, müstəmləkə xalqlarına “üç əvəzsiz hədiyyə” vermişdir:

a. Onların tarixi boyu heç vaxt görmədikləri siyasi birlik;
b. Təminatlı dinclik;
c. Şirkətin hakimiyyəti altında saysız-hesabsız despotların özbaşınalığını əvəz etmiş qayda-qanunlar [11, s.10].

Lakin əksini dilə gətirən tarixçilərdə az deyildir. Ramsey Murun məlumatına görə, Şərqdə baş verən çətinliklər və nöqsanlar yalnız şirkət başçılarının və ayrı-ayrı xidmətçilərin səhvlərinin nəticəsi idi [11].

R.Mazaninin fikrincə, təkcə XVII əsrin ortalarında Ost-Hind şirkətinə verilmiş xartiyaların diqqətlə öyrənilməsi Britaniya imperiyasının təsadüfən yaranması haqqında iddiaların səhv olduğunu müəyyənləşdirməyə imkan verir və göstərir ki,şirkətin fəaliyyətinin ilk dövründə yaradılmış "miniatür imperiya" əlverişli imkan və şəraitlə bağlı olaraq dönmədən inkişaf edirdi. Belə ki, "şirkətin təşəbbüsünün təbiəti onun agentlərini özlərinin möhkəmləndirilmiş məntəqələr və ordu ilə təmin etməyə məcbur edirdi.Xartiyanın hər dəfə yenilənməsi onun hakimiyyət və mülklərinin artması demək idi, onlardan hər biri şirkətin sırf ticarət təşkilatından imperiyanın genişlənən binasını idarə edən hakim qüvvəyə çevrilməsinə kömək edirdi" [12, s.10].

R.Mazani göstərir ki, "Hindistana ilk zamanlarda yalnız dinc ticarət məqsədilə yola düşən ingilis tacirləri ərazi tutmaq və ya hər hansı bir müstəmləkə imperiyası yaratmaq haqqında fikirləşə bilməzdilər. Onların ilkin tələbatı onlara dənizdə üstünlük qazanmağa, ticarətlərini genişləndirməyə və İngiltərə sənaye məhsulları üçün bazarlar təmin etməyə imkan verən qüvvə o dövr üçün nə zəruri, nə də mümkün idi. Onlar müharibə etməyə hazır idilər və lazım olduqda vuruşurdular"[12, s.10].

R.Mazaninin haqlı olduğu bəzi məqamlar mövcuddur. Şübhə yoxdur ki,ingilislərin Şərq siyasəti başlanğıcdan etibarən planlaşdırılmış geniş bir müstəmləkə siyasətinə əsaslanmırdı. Əksinə olaraq, bu prosesdə ingilislər Şərq siyasətində daha çox avropalı rəqibləri ilə mübarizə aparmışdılar.

Ancaq İngiltərənin Şərq siyasətinin köklü şəkildə Ost-Hindlə başladığını qeyd edə bilərik.Ost-Hind böyük səhmdarların inhisarçı ticarət şirkəti idi.Lakin görünən odur ki, şirkət öz fəaliyyətinin ilk dövrlərində kobud zorakılıq,şantaj və açıq hərbi müdaxilədən istifadə etmək üçün kifayət qədər güclü olmadığından onun Şərq siyasətində "dinc soxulma" prinsipi əsas yer tuturdu.Bu mənada ingilislərin ilkin mərhələdəki Şərq siyasətində yaltaqlıq, satın alma, intriqalar, yalançı dostluq kimi prinsipləri başlıca yer alırdı [2, s.48].

XVII əsrdə Hindistandakı ingilis həyat tərzi haqqında Villiam Dalrampl belə yazır: "Qucarat sahilindəki Moğol limanı Surat ingilis tacirləri ilə Moğol imperiyası xalqın ilk əlaqə yaratdığı nöqtə idi. Özlərinə "simsar" deyən ingilislər burada həm bir Oksbric kolleci və həmdə bir Moğol karvansarayının ortaq xüsusiyyətlərinə sahib bir binada yaşayırlardı. Hər gün

bir dua ilə başlayır və həm rəhbər və həm də rahib liderliyində yeyilən ümumi yeməklə sonaçatardı. Rahibin vəzifəsi simsarların davranışlarını izləmək, kilsəyə davam etmələrinə nəzarət etmək və xristianların xarici davranışlarına mane olmaq idi. Beləliklə, bir məğribi binasında rahat bir universitet səhnəsi yaşanır və simsarlar axşam yeməyindən sonra bir türk hamamına gedirdilər. Avropa yeməkləri olmadığından simsarlar Hindistanın yemək və mədəniyyətinə qısa vaxtda uyğunlaşdılar” [13, s.51].

XVII əsrdə İngilislər Şərq siyasətində baş aktyorlar idilər. Başda Hindistan olmaqla İngiltərənin bölgənin ənənəvi siyasətini (ikiüzlü siyasətini) dəyişdirdiyini iddia etmək doğru deyildir. İngiltərənin məqsədi daha geniş ərazilərdə öz təsirlərini genişləndirmək idi. Bu məqsədlə ingilislər Orta Şərqin açarı hesab edilən İranla münasibətlər yaratmağa cəhd edirdilər.

Nadir şahın uzaq görən siyasəti onun varisləri tərəfindən qavranılmadığı üçün, bölgənin nəzarət mexanizmi sürətlə avropalı güclərin əlinə keçməyə başladı. XVIII əsrin ikinci yarısında bölgədə meydana gələn hadisələr Qafqazda və İranda iqtisadi tərəfdaş olan Avropalı güclərin “sistemli işləyən pul kassası” olmaqdan çıxıb müttəfiq olmasına yol açdı. Rusiyanın şimaldan, Fransa və İngiltərənin cənubdan bölgəyə soxulmasında bu güclərin bir zamanlar ticarət adı ilə təsis etdikləri münasibətlər sisteminin siyasi və hərbi sistemə çevriləcək şəkildə etdiklərini ortaya çıxartdı.

100 illik Şərq ticarəti sayəsində Avropa dövlətləri də ağla sıxmaz dərəcədə iqtisadi inkişafa qovuşmuş və əldə etdikləri böyük qənimətlər dayanmadan artaraq yuxarıya doğru hərəkət etmişdi. 1785-ci ildə İngiltərəyə daxil olan xam pambıq 11 milyon librədən1850 ci ildə 588 milyon librəyə çatdı. Pambıqlı geyim istehsalatı 40 milyon yarddan 2.025 milyon yarda yüksəldi. 1816-1848 ci illər arasında pambıq idxalatçıları İngiltərənin hər il elan edilən bütün ixracatının toplam qiymətinin 40-50 faizini təşkil edirdi [14, s.52].

Şərq siyasəti üstündə dayanan bu böyük gəliri heç bir dövlət və hakimiyyət risk altına atmaq istəməzdi. Buna görə də, XVIII əsrin ortalarından etibarən İngiltərə Şərq siyasətinə olan istiqamətini dəyişdirib ticari güc olmaqdan çıxdı və eyni zamanda hərbi-siyasi müttəfiq halına gəlməsi başa düşülən oldu.

1792-1815-ci illəri əhatə edən Avropanın müharibə dövrü əslində “ilk dünya müharibəsi”nin bir sınağı idi. Bu 20 ildən artıq davam edən müharibə fəaliyyətləri sadəcə Avropa və ətrafındakı imperiyaları (Fransa, İngiltərə, Prussiya, Avstriya-Macarıstan, İtaliya, Rusiya, Osmanlı və Qacar İranı) əhatə etməklə qalmadı, müharibənin təsirləri Qərbi Hind adalarına, Şərqi Aralıq dənizi, Hindistan və Amerikaya (xüsusilə də 1812-1814-cü illər Amerika müharibəsi) qədər dünyanın bir çox yerlərinə sıçradı. Əslində bu müharibə dövlətlər arası müharibə olmaqdan ziyadə E.Hobsbavın qeyd etdiyi kimi

"dünya tarixində ilk dəfə çox fərqli iki düşməni üz-üzə gətirən müharibə idi: bir tərəfdə dövlətlər, digər tərəfdə isə sistemlər" [15, s.89].

Bu prosesdə dünyanın zəif həlqələriqırıldı və o həlqələr yeni güclərin əlinə keçdi. Qafqaz Rusiyanın, Hindistan İngiltərənin, Misir Fransanın, daha sonra İngiltərənin əlində imperialistləşməyə başlayan avropalı güclər üçün ən böyük qazanc oldu. Osmanlı və Qacar İranı ən ağır itkisi yaşayan imperiyalar olmaqla qalmadı, dünyadakı gedişat artıq onların sonunun çatdığını xəbər verirdi.

XVIII əsrin ikinci yarısında ortaya çıxan və XIX əsrin əvvəllərində Şərqin, xüsusilə də Orta Şərqin (Orta Asiya, Əfqanıstan,İran və Ərəb ölkələri) süqutu ilə nəticələnən hadisələrin bölgə xalqlarının və dövlətlərinin bir-biri ilə mübarizəsindən qaynaqlanmırdı. Bu güclər əvvəlki dövrlərdə də siyasi və hərbi olaraq eyni münasibətlər sisteminin içində yer alıblar. Problem, XVIII əsrin ikinci yarısında Asiyanın mərkəzi ilə hərəkat halında olan ticari və iqtisadi münasibətlərin Asiyanın sahillərinə doğru kəskin şəkildə yer dəyişdirilməsinin tam gerçəkləşməsi idi.

XVII əsrdə bunun təməlləri demək olar ki, tam şəkildə atılmışdı. Formalaşan yeni iqtisadi mexanizm sadəcə, İngiltərə deyil, eyni nisbətdə Rusiya və digər ölkələr tərəfindən də aparılmışdı. Belə ki, 1689-cu ildə Rusiya ilə Çin arasında Nerçinski və bunu tamamlayan 1727-ci ildə Kiaxta müqavilələri bir anda Orta Asiya ticarətinindayanmasına səbəb oldu. Eyni razılaşmalar Hindistan ilə İngiltərə, İngiltərə ilə Çin və digər Avropa ölkələri arasında əldə edilmişdi. 2005-ci ildə P.C. Perdure haqlı olaraq yazırdı ki, "1689-cu ildən sonra köçərilər, qaçaqlarvə tayfa kimliyini qoruyan xalqlar ya Rusiya, ya da Çinə tabe olmaq məcburiyyətində buraxıldılar. Xəritələr, səyyahlar, sərhəd mühavizəçiləri və etnoqraflar onların kimliklərinə və hərəkətlərinə qərar verməyə başladı. Razılaşmalar iki imperiyada da xarici və daxili siyasət baxımından sərhədlər arasında hərəkətlərin dondurulmasına və imperiyaların tanıdığı sərhədlər daxilində dayanmayan xalqların əzilməsinə təkan verdi" [16, s.161].

Uzun sürən Türk hakimiyyətindən və onların iqtisadi münasibətlərindən yorulmuş Çin və Hindistan kimi ölkələr də iqtisadi maraqlarını Asiyanın mərkəzində deyil, artıq dəniz sahillərində axtarmaqda maraqlı idilər. P.C.Perdure tərəfindən səsləndirilən bir fakta diqqət çəkmək bu baxımdan maraqlıdır. Belə ki, 1748-ci ildə Cunqar ilə Orta Asiya arasında hərəkət edən 136 nəfərlik ticarət karvanında 46 monqol və 90 müsəlman türk tacir vardı. Bu o, deməkidi ki, ticarət tamamilə türk-monqol tacirlərin əlində idi. Digər karvanlarında vəziyyəti eyni idi. Tərkibində türk olmayan karvanların başında belə türk dayanırdı [16, s.292-293]. XVIII əsrin ortalarından etibarən həmin tacirlər ya işsiz qaldılar, ya Rusiya və Çinin hakimiyyəti altına keçdilər, ya da ticarəti tərk etmək məcburiyyətində qaldılar. Ticarət qaynaqlarının bu şəkildə

Asiyanın mərkəzində yer alan ölkələrin nəzarətindən çıxıb, su kanalları üzərindən aparılması bu dövlətlər üçün fəlakətin başlanğıcı oldu. Nadir şahın Hindistan səfərinin altında yatan məqsədlərdən biri də köhnə ticarət xəttini yenidən bərpa etmək olduğunu unutmamaq lazımdır.

Avropa dövlətləri ilə Asiyanın zəngin ticarət qaynaqlarına sahib sahil ölkələrinin yaratdığı ticarət münasibətləri ticarətə birbaşa məhdudiyyətlər gətirirdi. Bu X. Bekvitin qeyd etdiyi kimi, bu tarix boyunca bilinən Orta Asiya siyasətinin məhv olması və Orta Asiya iqtisadiyyatının yıxılması mənasına gəlirdi [17, s.205]. Bu barədə J. Milvard yazırdı: "Şərq iqtisadiyyatının (İpək Yolu)həm daxili həm də qitələrarası dinamikası işləməməyə başladı" [11, s.74-75].

Başlanğıcda Avropa ölkələrin gətirəcəyi fəlakətlərdən, xüsusilə də müstəmləkələşdirmə siyasətindən xəbərsiz olan sahil ölkələri öz iqtisadi sistemlərini "qurudan sahil zolağına" istiqamətləndirmənin böyük faydalarını görürdülər. Belə ki,bu yolda ciddi gümüş və qızıl böhranı yaşayan Çin, Hindistan, Uzaq Şərq ölkələrinin bazarları Avropalılar tərəfindən gətirilən Amerika və Afrika qızılları ilə doldu. Hindistandakı Baburlu (Moğol) dövləti belə, özünün iqtisadi maraqlarını cənuba doğru istiqamətləndirdi.

XIX əsrin əvvəllərində Asiyanın mərkəzində davam edən dərin iqtisadi böhranın başlıca səbəblərindən biri də bu idi. Böhran o dərəcədə təsirli idi ki, Orta Asiya, Xorasan, Əfqanıstan, Azərbaycan və İranda yaşayan tayfalar bir-birlərinin əlindəki iqtisadi qaynaqları ələ keçirmək üçün kəskin müharibə aparırdılar. Həmin coğrafiyanın çox sayda xanlıqlara parçalanmasında bu amil diqqətə alınmalıdır. Maraqlıdır ki, davam edən bu müharibələrdə Avropa dövlətləri bu və digər gücün yanında yer alaraq ara müharibələri hər zaman qızışdırmışdılar. Məsələn ingilislər və ruslar Nadir şah Əfşarın ölümündən sonra İranda Zəndiləri dəstəkləyərək onları Qacarlara qarşı müdafiə edərkən, daha sonra Qacarların yanında yer alıb, onlara digər güclərə qarşı dəstək olmuşdular. İqtisadi qaynaqların quruması səbəbindən bəzi tayfalar yerlərini dəyişdirmək məcburiyyətində qaldılar. Manqışlaq (indiki Qazaxıstan ərazisi) ətrafında yaşayan türkmənlər hələ XVII əsrin axırlarından etibarən indiki Türkmənistan və Xorasana, Qilzailər isə Əfqanıstana köç etdilər. Orta Asiyada isə Manqut istilası meydana gəldi. Mərkəzi dövlətin iqtisadi imkanlarını və siyasi gücünü itirməsi ucbatından həmçinin Azərbaycanda da 20-yə yaxın xanlıq əmələ gəldi ki, onlar da bir-birləri ilə apardıqları mübarizə nəticəsində işğalçılar qarşısında zəif düşdülər.

Qeyd edək ki, XIX əsrin axırları Şərqin İngiltərənin həyatındakı tarixi əhəmiyyəti son dərəcə mühüm idi. Şərqin ingilis strategiyasının mərkəzində yer aldığını və bu strategiyanın sadəcə Hindistan yarımadasına gedən qısa dəniz yollarının (Misir, Orta Şərq, Qırmızı dəniz, İran körfəzi və Cənubi Ərəbistan) və uzun dəniz yollarının (Ümid burnu və Sinqapur) nəzarətini ələ keçirməklə

qalmayıb, bütün Hind okeanını nəzarət altında saxlamaqdan ibarət olduğunu qeyd etmək lazımdır. İngiltərə də bunu çox yaxşı bilirdi. İngiltərənin mənfəətlərinə zərər vurmaq istəyən güclər də hər zaman bu bölgələrdə var olmaq mübarizəsi aparmışdılar. Şərq ingilis ixracatının və idxalatının şah damarı idi. 1880-ci illərdə ingilis pambıq ixracatının 60 faizini tək başına Hindistan ilə Uzaq Şərqin payına düşürdü. Böyük Britaniyanın ödəmələr balansı Hindistanın illik ödəmələrdə əldə etdiyi gəlirlərlə qorunurdu[18, s.90-91].

XIX əsrin axırlarında dünya siyasət səhnəsində böyük güclər arasında kəskinləşən maraqlar XX əsrin əvvəllərində yeni bir istiqamət aldı. Artıq Qərb imperiyaları başlıca iki maraqdan çıxış edirdilər

A. Bir tərəfdə dünyadakı maraqlarını qorumaq istəyən tərəflər (Böyük Britaniya, Fransa, Belçika, Hollandiya, İspaniya, Portuqaliya və qismən də Rusiya və s.)

B. Digər tərəfdə isə dünyanı yenidən bölüşdürmək həvəsində olan tərəflər (Almaniya, İtaliya, Yaponiya, qisməndə ABŞ)

Lakin XX əsrin əvvəllərində meydana gələn bir sıra hadisələr tərəflər arasındakı qanlı savaşmanı bir qədər yubandırdı. Xüsusilə də dünya miqyasında özünü göstərən inqilab dalğası (1905-1907-ci illərdə Rusiya Birinci burjua inqilabı, 1905-1911-ci illərdə İran məşrutə inqilabı, 1908-ci ildə Gənc Türklər hərəkatı, Avropada meydana gələntətillər və üsyanlar və s.) bu güclərin diqqətini bir müddət özlərinin daxildəki problemlərinə çevirdi.

Bu dövrdə meydana gələn bir sıra müharibələr də (Rus-Yapon, balkan və Trablus qərb müharibələri) Birinci Dünya müharibəsini ləngitdi. Əslində böyük güclər arasında balans nisbətini 1877-1878-ci illərdə meydana gələn Osmanlı-Rusiya müharibəsi pozdu. Belə ki, müharibənin gedişatından daha çox sonu bu münasibətlərdə təyin edici olmuşdur. Berlində gerçəkləşdirilən sülh konfransı dünyanın hakim güclərinin zəif, həssas və güclü tərəflərini ortaya çıxardı. İmperiyaların zəif tərəfi olaraq milli və etnik münasibətlərin nə dərəcədə təsirli olduğu aydın oldu (bu mənada ilk dəfə “Erməni məsələsi” dünya siyasət səhnəsinə çıxarıldı).İmperiyaların həssas nöqtəsi olaraq sosial məsələlərin hələ də həll edilmədən qaldığı aydınlaşdı. Belə ki, Avropa ölkələrinin belə sosial məsələlərdə islahatlar aparmağa maraqlı olmadıqları özünü büruzə verdi. Buna baxmayaraq bir sıra ölkələr əhəmiyyətli dərəcədə “demokratik” fikirlərlə ayaqlaşmağa cəhd göstərdilər. İmperiyaların güclü tərəfi isə böyük güclərin əlində hərbi imkanların cəmləşməsi idi. Belə ki, XIX əsrin axırlarından etibarən sürətlə artan silahlanma gec-tez bir dünya müharibəsinin meydana gələcəyindən xəbər verirdi.

XX əsrin əvvəllərində böyük dövlətlər arasında maraqlar o dərəcədə kəskin fərqlənirdi ki, bu fərqlər arasında uyğunlaşma adına diplomatik cəhdlər

belə səmərəsiz idi. Məsələn Rusiya imperiyası "Xəstə adam" elan etdiyi Osmanlı imperiyasını qısa müddətdə bölüşdürülməsini istəyərkən, Almaniya Osmanlıya özünün müttəfiqi olaraq baxır, İngiltərə isə Osmanlını parçalamadan onu "Hindistanlaşdırmağa" çalışırdı [19, s.141].

İngiltərənin "Hindistanlaşdırma" siyasəti aparmaq istədiyi coğrafiya sadəcə Osmanlıdan ibarət deyildi. İngiltərə artıq XIX əsrin axırlarından etibarən İranda bu istiqamətdə fəaliyyətə başlamış, eyni siyasəti Qafqaz istiqamətində də yaymağa cəhd edirdi. Bu siyasət sadəcə siyasi,iqtisadi və hərbi strategiya üzərindən formalaşdırılmamışdı. Bu siyasətin ciddi şəkildə fikri və dini təməlləri də mövcud idi. Hindistanda farsça, ermənicə məktəblərin açılması, qəzet-jurnal-kitabların nəşrinə imkan tanınması İngiltərənin bölgədəki maraqlarına münasib istiqamətdə aparılırdı [20, s.106].

XX əsrin əvvəllərində Şərq xalqları üçün bir məsələ də özünün dəqiq ifadəsini tapmağa başlamışdı. Bu məsələ Pankaj Mişhranın da qeyd etdiyi kimi, Qərb dövlətlərinin təməl məqsədi "Asiyanın bədəninə sahib olmaq istədikləri" anlayışının şərqli ziyalılar tərəfindən qavranılmasıdır [21, s.17].

İranlı tarixçi G.R.Verheramın da qeyd etdiyi kimi, ümumi olaraq diqqətə aldığımızda Avropanın, o cumlədən, İngiltərənin Şərqlə apardığı siyasətdə Şərq ölkələri böyük və bərpası mümkün olmayan itkilərə məruz qalmışdı[22, s.112].

İngiltərənin Şərq siyasətinin əsas xarakterini müəyyən etmək lazım gələrsə, bu siyasət səmimiyyətsizlik, mənfəət oyunları, hiylə və insaf normalarından çox kənara çıxan münasibətlər əsnasında formalaşmışdır [23, s.43].

## ƏDƏBİYYAT

1.RudyardKipling, "Recessional",R.Kipling´sVerse,İnclusiveedition (1885-1918),London1927, p.475
2. KulkarniV.F., BritishStatesmaninİndia, Bombay 1961, 198 s.
3. Əhmədov B., XVIII əsrin birinci yarsında İngiltərənin Şərq siyasəti, Bakı: Nafta-press 1988, 230 s.
4.NotesteinW., TheEnglishpeople on theeve of colonistation 1603-1630, Newyork 1954, 180 s.
5. Sav H., Modern kapitalizmindoğuşu, tərcüməedən Turqut Erim,
İstanbul: Yöneliş 2001, 210 s.
6.Yılmaz Reha, "Birinci Dünya müharibəsinin başlanğıcında Osmanlı dövlətinin Qafqazsiyasəti", Azərbaycan Xalq Cumhuriyyəti və Qafqaz İslam ordusu, 2004, 525 s.

7. Choudeury K.N., TheEnglishEstİndiaCompany. A study an EarlyJoint-StockCompany, 1640-1699, New-York 1965, p.216
8.Опестов О.,Ворота Индии,Москва 1976, с. 240
9. Wright A., Early English adventures in the East, London 1917, p. 312
10. QuiasonD.S., English Country trade with the Phillippines, 1644-1765; London 1966, p. 230
11. Milward J., Eurasian Crossroads: A history of Xinjiang, New York: Columbiya University Press, 2007, p. 242
12. Masani R., BritaininÌndia, London 1960,p.440
13. Dalpymle V., Beyaz Moğollar, tərcümə edən Enver Günsel, İstanbul Turva Yay. 2005, 290 s.
14. SeeHenri, HistoireEconomique de laFrance, Paris 1928, v. II, p. 460
15. Hobsbavm E., İmparatorluk Çağı, 1875-1914, türkçəyə tərcümə edən Vedat Arslan,Ankara: Dost Yay.2012,480 s.
16. Perdure P.C., China Marches West: The King Conquest of Central Eurasia; Cambridge, Mass: Belknap Press of Harvard University Press, 2005, p. 290
17. Beckviz K.İ., İpekYoluİmaratorlukları, BronzÇağı´ndan Günümüzekadar OrtaAsyaTarihi, tərcüməedən Kurşat Yıldırım, Ankara: ODU Yay., 2011,428 s.
18. Hobsbavm E., DevrimÇağı 1789-1848,təcüməedən Musatfa Sina Çener, Ankara: Dost Yay., 2012, 480 s.
19. Ramsay W.M., Impression of Turkey During Twelve Years Wonderling, London 1897, p. 314
20. Yamauçi M., Hoşnut Olmamış Adam-EnverPaşa, Türkiye´denTürkistan´a, İstanbul: Bağlam 1995, 352 s.
21. Mişra P., Asya´nın Batıya İsyanı, tərcüməçi Ahmed Fethi, İstanbul: Alfa 2013, 705 s.
22. Verheram G.R., Nizami-siyasiyi və sazmanha-yiiçtimai der əsri –Qacar, Tehran 1367 hş., 76 s.
23. Karadeniz Yılmaz, İran´da Sömürgeçilik Mücadelesi və Kaçar Hanedanı (1795-1925), İstanbul: Baskış 2006, 485 s.

**UOT 94**

# HERALDİKA VƏ ONUN İNKİŞAF TARİXİ

***Afiq Nəsrəddin oğlu Abdullayev***
***AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu***
*afigabdullayev@mail.ru*

**Açar sözlər:** *heraldika, herold, perservant, simvol, gerb*

*Məqalədə heraldika elminin yaranma və inkişaf tarixindən bəhs edilir. Heraldika elminə müxtəlif səpkidə elmi yanaşmalar mövcuddur. Əgər nəzərə alsaq ki, heraldika xüsusi bir elm sahəsi kimi məhz Avropa qitəsində feodal monarxiyası və feodal svilizasiyası daxilində dövlət səviyyəsində təşəkkül edib, bu zaman məsələyə Avropa tarixi üzərində diqqət ayırmaq daha münasib olardı. XX əsrdən etibarən heraldika bir sıra digər elmi sahələrə də sirayət etdiyi üçün daha geniş çərçivədə tədqiq edilməsi elmi baxımdan zəruri sayılır.*

## ГЕРАЛЬДИКА И ИСТОРИЯ ЕЕ РАЗВИТИЯ

***Афиг Абдуллаев***

**Ключевые слова:** *геральдика, герольд, персервант, символ, герб*

*В данной статье описывается история возникновения и развития геральдической науки. Существуют различные научные подходы к геральдической науке. Если принять во внимание, что геральдика как особая область науки сформировалась на государственном уровне в рамках феодальной монархии и феодальной цивилизации на европейском континенте, было бы более уместно сосредоточиться на европейской истории. Начиная с 20-го века, геральдика содействовал многие другие области науки, более широкие исследования были признаны необходимыми с научной точки зрения.*

## HERALDRY AND THE HİSTORY OF İTS DEVELOPMENT

***Afig Abdullayev***

**Key words:** *heraldry, herold, perservant, symbol, gerb*

*This article describes the history of the emergence and development of heraldic science. There are various scientific approaches to heraldic science. If*

*we take into account that the heraldic as a particular field of science was formed at the state level within the feudal monarchy and feudal civilization on the European continent, it would be more appropriate to focus on European history. Since heraldry has infected many other fields of science since the 20th century, wider research has been considered scientifically necessary.*

Heraldika – tarix elminin köməkçi bölməsi. Belə ki, tarix elmi üçün əlavə elmi məlumatların öyrənilməsində heraldika elmi əlavə rol oynayır. Heraldikanın predmeti əsasən hər hansı simvolik xarakter və ya rəmzi əlamət daşıyan fiqurlar, ornamentlər, atributlar, petroqliflər, piktoqramlar [8, c.3], ideoqramlar, qrafemlər, işarələr, rəqəmlər, hərflər, rənglər, daşlar, metallar və təsvirlərin (astral, həndəsi, nəbati, heyvani, insani və s.), heraldik elemetlərin əks olunduğu əşyalar, alətlər, məmulatlar hesab edilir. Heraldika sahəsində istifadə edilən bütün elementlər özlüyündə heraldikanın əlifbası sayılır [3, c.9]. Heraldika elmi məhz bu göstərilən vasitələrləinsanların məfkurəsinə, ideology-yasına, mifologiyasına, mədəniyyətinə və mənsubiyyətinə aid məlumatları araşdırmağa və aşkarlamağa yönəlmiş elmi tədqiqat sahəsidir. Heraldika təkcə tarix elminin köməkçi sahəsi deyil, həm də incəsənət sahəsi kimi təzahür edir [1, c.115].

"Heraldika" qədim latın dilində olub, "heraldus" sözündən götürülüb və "carçı" mənasını verir [4, c.26]. Qeyd etmək lazımdır ki, kelt dilində də "herod" sözü "carçı" ilə eyni məna verir [8, c.31]. Britaniya Ensiklopediyasında isə "heraldika"nın qədim anqlo-sakson dilində "here wald" ("ordu yönəticisi" və ya "sərkərdə") sözündən yarandığı qeyd edilib [10]. Bundan başqa hələ antik dövrdə qədim alman tayfalarında xeyirxahlığı və qəhrəmanlığı ilə fərqlənən təcrübəli hərbçiləri "heer" (hərbçi) + "alt" (yaşlı) adlandırırdılar ki, bu söz almanca "veteran" mənasını anladır [2, c.10; 1, s.46].

Heraldikanın yaranma tarixi haqqında müxtəlif fikirlər mövcuddur. Məsələn, S.Yeqorov hələ qədim türk tayfalarında nəsli və ya hərbi mənsubiyyət bildirən "tamğa"ları, XII əsrdə Yaponiyada dövlətçilik rəmzi kimi meydana gələn "mon"ları, həmçinin qədim Assur, Babil, Misir, antik Roma və antik Afina kimi dövlətlərin istifadə etdiyi və dövlət üçün rəmzi əlamət daşıyan işarələri də heraldikanın inkişaf tarixinə daxil etmişdir [4, c.9-10, 13]. S.Yeqorovdan əvvəl V.Draçuk da eyni ilə bu mülahizəni irəli sürmüşdür[3, c.21]. Heraldika sahəsi üzrə başqa bir tədqiqatçı M. Medvedev isə heraldikanın orta əsrlərdə Avropada meydana gəldiyini, gerbşünaslıq mədəniyyəti və ya gerblər haqqında elm olduğunu qeyd etmişdir[6, c.27]. Əgər nəzərə alsaq ki, heraldikanın elementləri sadəcə gerbşünaslıqda deyil, digər bir çox sahədə də istifadə edilir, o zaman heraldik elementlər daşıyan bütün maddi-mədəniyyət nümunələrini heraldikanın tədqiqat sahəsinə daxil etmək olar.

Heraldika elmi Avropada meydana gəldiyi üçün bu elmin inkişaf tarixinə də məhz Avropa tarixi üzərindən nəzər salmağa çalışmalıyıq. Avropada heraldikanın inkişaf tarixini bu sahədə baş verən mühüm dəyişikliklərə əsasən bir neçə mərhələyə ayırmaq olar.

I. VIII – XII əsrlərdə heraldik elementlerin yaranması və yayılması: bu zaman xristian dininə mənsub olan Frank imperiyasının müsəlman dininə mənsub Əndəlus əmirliyi ilə təması nəticəsində heraldik elementlərə marağı artırdı.
II. XIII – XVIII əsrlərdə heraldika elminin təşəkkülü və təkmilləşməsi: bu dövrdə Vatikan məbədinin rəhbərliyi altında Avropa dövlətlərinin Yaxın Şərqə Xaç yürüşləri ilə xristian və müsəlman mədəniyyətləri yenidən təmasa keçir, Avropada heraldika sahəsində ikinci inkişaf və ya intibah dövrü başlayır.
III. XIX-XX əsrlərdə heraldika elminin digər elmlər ilə əlaqəli şəkildə inkişafı: bu mərhələdə heraldika digər elmlər ilə qarşılıqlı əlaqədən faydalanaraq yeni inkişaf dövrünə qədəm qoyur.

Qədim Roma imperiyası süqut etdikdən sonra Avropada feodal pərakəndəliyi başlamışdı. Avropada aristokratik feodal iyerarxiyası Karolinqlər sülaləsinin hakimiyyəti zamanı aydın şəkildə nəzərə çarpırdı. IX əsrdə Frank imperiyasının kralı Böyük Karl imperiya ərazisində mülkədar olan və ya müstəqil olan bütün kişilərin silah daşıması və döyüş sursatının olması haqqında fərman vermişdi[1, c.20-21]. Bu silahlı şəxslər silahlarında və geyimlərində fərqlənmə nişanı olaraq heraldik elementlərdən istifadə edirdilər. Müharibələrdə iştirak edən belə silahlı atlılar alman dilində “ritter”, fransız dilində “chevalier” (kavaler), rus dilində “рыцар”(riçar) adlanırdı.

Biz, Azərbaycan dilində onları “cəngavər” adlandırırıq. Bəzən müharibə olmasa belə, silahlı şəxslər arasında “cəngavər” rütbəsi almaq üçün hərbi müsabiqələr təşkil edilirdi. Bundan əvvəl, hələ VI əsrdən etibarən Avropada müharibələrdə və hərbi müsabiqələrdə fərqlənən və qalib gələn hərbçilərə “cəngavər” rütbəsi verilirdi. Böyük Karl vəfat etdikdən sonra Avropada feodal dağınıqlığı dövrü daha kəskin hal alır. Hərbi və mülki feodallar məhz bu dövrdə mənsub olduqları məfkurəni, mədəniyyəti və mənsubiyyəti, ideyasını və devizini simvolik xarakterizə edən heraldik elementlərdən kütləvi şəkildə istifadə etməyə davam etdilər. Feodal pərakəndəliyi artdıqca da şəxslərin və icmaların mülkiyyətinə, mənsubiyyətinə, mədəniyyətinə görə ictimai və hüquqi statusları daha çox sistemləşmiş, heraldik elementlərin istifadəsi fərqlənməyə və çoxalmağa başlamışdı.

IX əsrin ikinci yarısında “Cəngavər Yarışları”nda itkiləri nəzərə alan Papa II Yevgenibuyarışları mənasız ölümlərə görə, qadağan etmiş və “şeytan əməli” adlandırmışdı [9, c.20]. XI əsrin sonu və XII əsrin əvvəllərində Avropadan Yaxın Şərqə doğru Xaçyürüşləri zamanı “cəngavər” rütbəsi

alanların sayı xeyli artmışdı. Bu cəngavərlərin də Bizans və İslam mədəniyyətinin təsiri ilə simvolik xarakterli heraldik elementlərə marağı güclənirdi. Demək olar ki, Xaçyürüşləri heraldika elminin inkişafına və heraldik elementlərin istifadəsinə müsbət mənada ciddi təkan oldu və təsir etdi [7, c.17].

XII əsrdə“Cəngavər Yarışları”nın təşkil olunması yenidən vüsət aldı. Müsabiqədə qalib gəlmiş və cəngavər rütbəsi almış şəxslər üçün mukafat olaraq simvolik xarakterli heraldik elementlərin olduğu armalar və yagerblər təqdim edilirdi. Artıq simvolik xarakterli elementlərin hərbi sənətdə və mülki həyatda kütləvi istifadəsi nəticəsində heraldika bir elm kimi formalaşmağa başlayır və bu sahədə peşəkar fəaliyyət göstərən mütəxəssislər ortaya çıxırdı. Məhz monarxın və ya hər hansı böyük feodalın himayəsində çalışan, “Cəngavər Yarışları”nda təşkilatçı olan, arma, loqo, gerb tərtib edən və təqdim edən, məlumatları qeydə alan belə peşəkar mütəxəssisləri XIII əsrdən etibarən “herold” adlandırmağa başlamışlar [9, c.11]. Cəngavərlərin yalnız özləri arasında keçərli olan məxsusi işarələri, fikirləri, qanunları və qaydaları var idi. Bu sahədə də mütəxəssis olan heroldlar hakim kimi xüsusi idarəetmə mövqeyi tuturdular. Belə ki, “Cəngavər Yarışları”nda heroldlar siyahı üzrə döyüşçüləri dəvət edir, cəngavər qanunlarını onların təkrar yadına salır, qalib döyüşçüyə kralın adından mükafat təqdim verir, cəngavərin məxsusi devizini, armasını və ya gerbini təsvir və təqdim edirdilər.

Heroldlar şəxslərin nəsəbinə və rütbəsinə aid məlumatları, simvolik xarakter daşıyan işarələri, bu sahədə ümumi və xüsusi qaydaları yaxşı bilməli idilər. Heroldların rəhbəri bəzən “heroldmeister”, bəzən isə “gerb kralı” adlanırdı. 1442-ci ildə Almaniya imperatoru III Fridrix öz sahəsində peşəkarlığına görə herold Rudolf Romrixi “Rex Heraldorum” (“HeraldikaKralı”) titulu ilə təltif etmiş və diplom vermişdi [1, c.48]. Heroldların köməkçilərinə isə “perservant” deyilirdi [6, c.9].

Heraldika qanunları və qaydaları haqqında ilk ümumi elmi kitabın müəllifi Müqəddəs Roma İmperatoru IV Karlın sarayında məxfi məsləhətçi olan italiyalı hüquqşünas Bertola Saxoferrato sayılır. Onun "Tractatus de insignis et armis" adlı monoqrafiyası 1356-1359-cu illərdə yazılıb və ilk dəfə 1472-ci ildə Venesiyada nəşr edilib [1, c. 54; 4, c.31]. Həmçinin, şəxsən özü herold olmuş almaniyalı Petra Zuxenvert “Cəngavər Yarışları” haqqında ilk poemanı 1356-1396-cı illərdə qələmə almışdır[1, c.48]. XV əsrdə Fransa kralı VII Karlın dövründə kralın əmri ilə baş herold olan Berri bütün Fransa ərazisini gəzərək geneoloji məlumatları və simvolik işarələritoplayır.Daha sonra bu məlumatlar"Le registre de noblesse" adlı monoqrafiyada nəşr edilir[4, c.31].İngiltərədə rahibə Juliana Berners tərəfindən yazılan və 1486-cı ildə nəşr edilən “Book of St.Albans” əsəri heraldika sahəsində ilk biblioqrafik əsər sayılır [1, c.132].

XV əsrdə İngiltərədə kral III Riçardın fərmanı ilə xüsusi Herold Şurası (“College of Herolds”) fəaliyyət göstərməyə başlayır. Herold Şurasının üzvləri soylu ailələrdən seçilirdi. Onların vəzifəsi gerblərin təsviri, təqdimi, qeydiyyatı ilə məşğul olmaq, həmçinin heraldik elementlərin araşdırılmasını, yazılmasını, arxivləşdirilməsini, çıxarışların verilməsini təmin etmək idi [1, c.55-56].

O dövrdə Avropada gerblərin istifadəsio qədər vüsət almışdı ki, bəzən onlar arasında tamamilə bənzərlik olurdu. Bu qarışıqlığı həll etmək üçün 1696-cı ildə Fransa Kralı XIV Lüdovik gerblərin və ya armaların ümumiləşdirilməsi və fərqləndirilməsi, gerb kodekslərinin hazırlanması, həmçinin qeydə alınması üçün xüsusi fərman verir[5, c.19]. Beləliklə, Avropada ilk dəfə ümumi gerbşünaslıq məcmuələrinin hazırlanılmasına başlanılır. Həmçinin, heraldika artıq xüsusi bir elm sahəsi kimi qəbul olunur.

Avropada heraldika elementləri XVI-XVIII əsrlərdə dövlətlərin, təriqətlərin, təşkilatların, kralların, hersoqların, qrafların, cəngavərlərin və baronların, sexlərin, gildiyaların, şəhərlərin və kəndlərin gerbində, həmçinin bütün hərbi, mülki və nəsli simvolik xarakterli əşyaların və alətlərin üzərində əks olunurdu. Hətta heraldik elementlər dini mərasimlərə dəəhatəli şəkildə sirayət etmişdi [7, c.17].

1789-cu il Fransa burjua inqilabından sonra başlayan feodalizm sisteminin tənəzzülü və feodal iyerarxiyasının süqutu heraldik elementlərin də önəmini azaldırdı. 1790-cı ildə Fransa Konstitusiya Assambleyası feodalizm əlamətlərinin, feodal titulu və statusunu bildirən gerblərin, armaların ləvği haqqında qərar versə də, heraldika elementlərinin istifadəsi Napoleon Bonopartın imperiya yaratması ilə yenidən dövlət səviyyəsində əhəmiyyət daşımağa başlayır [7, c.36-39]. Lakin heraldika elmi tənəzzül etmək yerinə transformasiya edərək bu dəfə daha geniş elmi sahədə özünü göstəririr. Belə ki, XIX əsrin sonlarından etibarən heraldik element daşıyan bütün alətlər, əşyalar, silahlar, xalçalar, geyimlər, bəzəklər, miniatürlər, məmulatlar və s. artıq heraldika elminin tədqiqat sahəsinə daxil olurdu.

Nəticə etibarı ilə feodal iyerarxiyası tənəzzül etsə də, heraldika elmi tənəzzül etmədi və tərəqqi etməyə davam etdi. Artıq heraldik eleməntlərin təsvir edildiyi və ya istifadə olunduğu bütün məmulatlar heraldika elminin tədqiqat sahəsinə daxil ola bildi. Hazırda simvolik xarakter daşıyan heraldika elementlərindən icmalar, idarələr, klublar, komandalar, şəxslər, dövlət və şirkətlər, təriqət və təşkilatlar müxtəlif rəmzi məlumatların ifadəsi kimi də istifadə edirlər.

# ƏDƏBİYYAT

1. Арсеньев Ю.В. Геральдика. М., 2001
2. Введенский Г. Э. Азбука геральдики. СПб., 2003
3. Драчук В.С. Рассказывает геральдика. М., 1977
4. Егоров С. Геральдика для всех. М., 2002
5. Левандовский А.П. В мире геральдики. М.2008
6. Медведев М. Геральдика или истинная наука о гербах. СПб., 2008
7. Пастуро М. Геральдика. М., 2003
8. Санти-Мадзини Дж. Геральдика. М., 2007
9. Слейтер С. Геральдика. М., 2005
10. https://www.britannica.com/topic/heraldry

UOT 94

# GENERAL SİSİANOVUN QAFQAZDA HƏRBİ ƏMƏLİYYATLARI VƏ ÜSYANLAR

***Urfan Davud oğlu Həsənov***
***Gəncə Dövlət Universiteti***

**Açar sözlər**: *Rusiya, Qafqaz siyasəti, üsyan, müstəmləkə, imperiya, imperator, Şimali Qafqaz, Cənubi Qafqaz.*

*General Sisiyanov rus zabiti kimi imperiyanın siyasi iradəsini təmsil edirdi. Lakin, hərbi əməliyyatlar zamanı generalların seçim və fəaliyyətlərində subyektiv faktorlar da mövcud idi. O, təslim olmayan azadsevər qafqazlıları törətdiyi soyqırım və vəhşiliklərlə təslim edəcəyini düşünürdü. Onun və bir çox rus generallarının fəaliyyətlərində islamofobiya, türkofobiya və xristian təəssübkeşliyi özünü açıq şəkildə büruzə verirdi. Rusiyanın Qafqazda yanlış siyasəti, üsyanların artmasınaşərait yaratdı.*

## ВОЕННЫЕ ОПЕРАЦИИ ГЕНЕРАЛА СИСИАНОВА НА КАВКАЗЕИ ВОССТАНИЯ

***Урфан Гасанов***

**Ключевые слова**: *Россия, кавказская политика, восстание, колониализм, империя, император, Северный Кавказ, Южный Кавказ*

*Генерал Сисианов, как русский офицер, представлял политическую волюп империи. Однако присутствовали и субъективные факторыв выборе и в деятельности генералов вовремя военныхдействий. Он думал, что совершив геноцид и многочисленные злодеяния, непокорные свободолюбивые кавказцы сдадутся. В деятельностиего и многих других русских генералов проявлялись исламофобия, тюркофобия и христианский фанатизм. Ошибочная политика Россиина Кавказе вызвала на ростаниевосстаний.*

# GENERAL SISIANOV'S MILITARY OPERATIONS IN THE CAUCASUS AND UPRISINGS

***Urfan Hasanov***

**Key words**: *Russia, caucasus policy, rebellion, colonialism, empire, emperor, North Caucasus, South Caucasus*

*General Sisianov, as a Russian officer, represented the political will of the empire. However, there were subjective factors in the choice and action of generals during hostilities. He thought tha the would surrender the rebellious Caucasians with genocide and the atrocities committed by them. The activities of him and many Russian generals manifested islamophobia, turkophobia and christian fanaticism. Russia's erroneous policy in the Caucasus provoked an uprising.*

**Giriş**. General Sisianov müsəlmanlara və qafqazlılara qarşı öz nifrəti ilə seçilən rus generallarından idi. Əslində, onun qəddarlığı qorxaqlığından irəli gəlirdi. Çünki o, qafqazlıların çox cəsarətli və döyüşkən xalq olduğunu etiraf edirdi. O, düşünürdü ki, öz qəddarlığı ilə qafqazlıların ürəyinə qorxu salacaq və onların təslim olmasına nail olacaqdır. Onun Qafqazda apardığı hərbi əməliyyatlar bunu təsdiq edir. Halbuki, rus generallarının apardıqları yanlış siyasət Qafqazda üsyanların alovlanmasına səbəb oldu.

I Aleksandr Pavloviçin hakimiyyətə gəldiyi tarix (1801) XIX əsrin başlanğıcına təsadüf edir. O, atasına (I Pavel) edilən sui-qəsd nəticəsində hakimiyyətə gəldi və 24 il taxtda qaldı (1801-1825). Əvvəlki rus çarları kimi, onun da yetişdiyi mühit (sarayda liberal maaarifçilik ideyaları ilə tərbiyə olunması), soyu, həyat yoldaşı (Luiza Mariya Avqust Badenmark qrafının qızı idi), ətrafındakı insanlar, bir çox Avropa zadəgan ailələri ilə qohumluq və dostluq əlaqələri onu daha çox Avropa dəyərləri ilə bağlayırdı. Başda imperatorlar olmaqla, Çar Rusiyası hökumətinin və hərbi elitasının tərkibinə diqqət yetirəndə görürük ki, orada yüksək vəzifələrdə təmsil olunan şəxslərin əksəriyyəti Avropa mənşəlilər olmuşlar. Belə bir hökumət ilə Avropa ölkələri ilə savaşmaq və onlarla rəqabət aparmaq, asan məsələ deyildi.

I Aleksandr hakimiyyətə gələn kimi 1801-ci ildə (30 mart) 12 nəfərlik yeni şura yaratdı. Bu şuraya daxil olanlar arasında general, qraf Valerian Zubov da var idi. Valerian Zubov, I Pavelə sui-qəsd kompaniyasında yaxından iştirak edən və I Aleksandrın hakimiyyətə gəlməsində mühüm rol oynayan bir şəxs idi. O, Qafqaz canişinliyinin general qubernatoru olmaqla yanaşı, İran ilə savaşda (1796), Dərbəndin alınmasında, Cənubi Qafqazda hərbi nailiyyətlərdə ad

qazanmışdı. I Aleksandrın onu yeni şuraya daxil etməsi, Rusiyanın Qafqazda atılacaq mühüm addımlarından xəbər verirdi.

General Zubov tezliklə Rusiyanın İran və Hindistan ilə ticarət əlaqələrində aparıcı rol oynamasını təmin edən “Asiya ilə ticarətə ümumi baxış” layihəsini təqdim edir. Bu plana görə, Rusiyanın dünya ticarətində rolunu artırmaq üçün, Don və Volqa çayları arasında kanal tikmək, bununla, Xəzər, Baltik, Qara Dəniz və Aralıq Dənizinə və onun vasitəsilə Atlantik okeanına çıxış əldə etmək lazım idi. Zubova görə, İran ilə ticarət üçün Xəzər Dənizində əsas liman, artıq beynəlxalq ticarət mərkəzinə çevrilən Bakı şəhəri ola bilərdi. O, Rusiyanın Bakı vasitəsilə həm Cənubi Qafqazda, həm də İranda öz təsirini genişləndirmək imkanları əldə edəcəyinə əmin idi. Bu layihənin təhlükəsizliyi üçün, Qara Dənizə çıxışı olan Gürcüstan ilə Xəzər sahilində yerləşən Bakı arasında rus ordusunun yerləşdirilməsini təklif edirdi. Hindistan ilə ticarət əlaqələrini yaratmaq üçün Astrabad limanını ələ keçirmək və əlverişli quru yolların tapılmasını təmin etmək lazım idi. Onun bu layihəsi bəyənilsə də, layihəyə rəhbərlik etmək vəzifəsi ona verilmədi. V.Zubov 1804-cü ildə öldü.

I Aleksandr hakimiyyətə gələn kimi (1801), Kartli-Kaxetiya çarlığını (çar XII Georgi 1798-ci ildə taxta oturmuşdu) ləğv etdi, onu Rusiyaya mülki hakim tərəfindən idarə olunan Tiflis quberniyası adı altında birləşdirdi və Qazax, Borçalı, Şəmşədil sultanlıqları da ona daxil edildi. Bununla, orta əsrlərdən gürcü dövlətinə başçılıq edən yəhudi mənşəli Baqrationlar sülaləsinin hakimiyyəti bitdi. XII Georginin (1800-cü ildə öldü) oğlu XII David hakimiyyətdən uzaqlaşdırıldı. 1802-ci ildə Gürcüstanın baş hakimi və Qafqazın baş komandanı general Pavel Sisiyanov oldu [8, 496]. O, gürcü çar ailəsinin üzvlərini Rusiyaya göndərdi. Lakin, XII Georginin qardaşı Aleksandr taxtı bərpa etmək üçün, İranın himayəsinə sığındı.

Sisiyanov gürcü mənşəli Sisişvili (Panaskerteli) kökü gürcü çarlarına (Tamara) bağlı olan knyaz nəslindən idi. Onun əcdadlarının bir qismi XVIII əsrin əvvəllərində Rusiyaya yerləşmişdilər. Buna görə də Pavel Sisiyanov Moskvada anadan olmuş (1754) və hərbi məktəblərdə təhsil aldıqdan sonra bir çox döyüşlərdə seçilərək hərbi karyerasında yüksəlmişdir. İmperatriçə II Yekaterina onun hərbi nailiyyətlərini dəyərləndirmiş və 1796-cı ildə onu Cənubi Qafqaza qraf və general V. Zubovun yanına göndərmişdir. Onun Gürcüstana hakim təyin olunması gürcülərə bir qədər təskinlik verdi. Çünki onlar Sisişvili sülaləsini dolayı olaraq Baqrationlar sülaləsinin davamı hesab edirdilər. Bu baxımdan, Pavel Sisiyanov özünü şüuraltı şəkildə yeni gürcü imperatoru hesab edirdi.

I Aleksadr 1801-ci ildə Qafqaz qoşunlarının baş komandanı general Knorrinqə belə yazırdı: “Qonşu hakimlər və xalqlarla münasibət saxlayaraq, Rusiya tərəfdarlarının sayını artırmağa çalışılmalı, xüsusən də üzərlərində

hələlik Baba xanın (Fətəli şahın) hakimiyyəti yaranmamış İrəvan, Gəncə, Şəki, Şirvan, Bakı və başqa xanlar cəlb edilməlidir” [6, 67].

General Knorrinq Şimali Qafqazın hakimləri (Tərki şamxalı, Qara Qaytaqusmisi, Tabasaran hakimi və s), Quba və Talış xanları ilə Georgiyevskidə görüşlər keçirərək, onları öz tərəfinə çəkməyə çalışırdı. [6, 485]. Eynilə, İran şahının nümayəndəsi İran şahının nümayəndəsi də bir çox xanlarla (Qarabağ, Bakı) görüşərək, onları İran şahına tabe olmasını tələb edirdi. 26 dekabr 1802-ci ildə dekabrın 26-da Georgiyevskidə bağlanan müqaviləyə görə, imzalamada iştirak edən xan və hakimlər Rusiyanın himayəsini qəbul etdiklərini, İran ilə savaşda rusların tərəfində olacaqlarını bildirdilər. Lakin, bu müqaviləyə baxmayaraq, ruslar yerli xan və hakimlərə etimad etmirdilər. Sadəcə onları İran ilə yaxınlaşmaqdan çəkindirmək istəyir və sonra onların ərazilərini ələ keçirmək barədə düşünürdülər [2, 12-13].

1801-ci ildə Gürcü krallığının ləğv olunması və Tiflis quberniyasının yaradılması kral sülaləsini və onun tərəfdarlarını Rusiyadan narazı saldığı kimi, Azərbaycan xanları və Tiflis quberniyasına birləşdirilən ərazilərin hakimləri də I Aleksandrın fərmanına etiraz edirdilər [4, c. 1, 782, 799]. Rus ordusu işğal etdikləri yerlərdə yerləşirdilər. Buna görə Şəmşədil sultanlığının əhalisinin bir hissəsi Gəncə xanlığına məskunlaşdı. Cavad xan, rus ordusunun Şəmşədil sultanlığını tərk etməsini tələb etdi. Bu durum Osmanlı və İranı da narahat edirdi. Çünki onlar Cənubi Qafqazı öz tabeliyində olan ərazilər kimi qəbul edirdilər. Buna görə də, osmanlılar bütün Qafqaz müsəlmanlarını islam həmrəyliyi əsasında bir araya gələrək ruslara qarşı üsyana çağırdı. Lakin bu birliyi əldə etmək çətin idi.

Birincisi, Cənubi Qafqaz müsəlmanlarının böyük bir hissəsi şiə olduğu üçün, şimaldakı sünnilərlə bir araya gələ bilmirdi. İkincisi, hər bir xan və şamxal özünü digərlərindən üstün bildiyi üçün, digərinin ayağına getmək istəmirdi. Üçüncüsü, geniş yayılan qan düşmənçiliyi (xüsusilə, Şimali Qafqazda) müsəlmanların birliyinə mane olurdu. Qafqazı ələ keçirmək planları quran rus strateqləri bu amilləri dərindən bildikləri üçün, Qafqazda hərbi nailiyyətlər əldə edə bilirdilər. Ruslar vaxtilə Şeyx Mənsurun Qafqazda İslam həmrəyliyi modelinin qarşısını ona görə bütün gücləri ilə aldılar ki, o, Qafqazda birliyin yaranmasına, rus ordusunun çıxarılmasına və onun müstəqilliyinin təmin olunmasına şərait yarada bilərdi. Bunu, bir çox Qafqaz xanları və şamxalları da anlayırdı. Qafqaz xanları və şamxalları arasında qohumluq əlaqələrinin qurulması buna dəlalət edirdi. Qarabağlı İbrahim xan və Şəki xanının avar xanı Umma xan ilə qohumluq və dostluq əlaqələri vardı. Qubalı Fətəli xanı Şimali Qafqazın türkdilli xanları (azərbaycanlılar, kumıklar) dəstəkləyirdi [5, 131].Lakin, bu əlaqələr Qafqazın vahid siyasi güc kimi ortaya çıxmasına kifayət etmirdi. Çoxəsrlik tarixi hadisələrin təhlili göstərir ki, Cənubi Qafqaz və Dağıstan çoxəsrlik tarixi prosesdə bir-birinə bir çox cəhətdən

inteqrasiya olunmuş və Dağıstan Cənubi Qafqazın (Azərbaycanın) ayrılmaz bir hissəsinə çevrilmişdi.

Gürcüstan ərazisi Qafqazı işğal etmək üçün Rusiyaya hərbi məkan oldu. Məhz Gürcüstandan başlayaraq gürcü mənşəli rus generalı PavelSisiyanovun başçılığı altında Azərbaycan xanlıqları bir-birinin ardınca xüsusi amansızlıqla işğal olundular. Şimali Qafqaz ərazisinin də ələ keçirilməsində Gürcüstanın rolu əvəzedilməz oldu. Çünki Dağıstanı Cənubi Qafqaz (Azərbaycan) ilə birləşdirən əsas ticarət-kommunikasiya yolu bağlandı və Şimali Qafqaz blokadaya düşdü.

Gürcü feodalları istisna olmaqla, Qafqazdakı müsəlmanlar rusların varlığını qəbul etmirdilər. Qafqazın azadlıqsevər müsəlman əhalisinin xristian Rusiyaya tabe etdirilməsi çox çətin bir məsələ idi. Lakin, bu o demək deyildir ki, onlar Osmanlı və İranın bölgədə varlığından məmnun idilər. Qafqazda XVI əsrdən baş verən tarixi hadisələrin təhlili göstərir ki, qafqazlılar müstəqil olmağa can atırdılar. Lakin onların birləşə bilməməsi, qafqazlıların müstəqil olmasına mane olurdu.

Rusiya müsəlman qafqazlıların ona qarşı olmasını və azsaylı xristian qafqazlıların onu dəstəkləməsini nəzərə alaraq Qafqazın işğalında xristian amilindən fəal şəkildə istifadə etdi. Gürcülərlə yanaşı, Qafqazda erməni məsələsinin aktuallaşması buradan irəli gəldi. Rusiya Qafqazda öz sosial bazasını genişləndirmək üçün ermənilərin bölgəyə yerləşməsində maraqlı oldu. Bununla yanaşı, işğal etdiyi ərazilərdə xristianlaşdırma və ruslaşdırma siyasəti həyata keçirdi.

Dağlılardan fərqli olaraq, rus ordusu dövrün müasir silahları ilə silahlanmış, müasir hərbi biliklərə yiyələnmiş və döyüşlərdə mühüm rol oynayan toplara malik idilər. Belə bir ordu ilə qarşı-qarşıya döyüşmək çətin idi. Coğrafi şəraitin münasib olması dağlıların partizan döyüşünə keçməsinə şərait yaradırdı. Buna görə də dağlılar savaşlarda əsasən partizan döyüş metodlarına üstünlük verirdilər. Bu partizan dəstələri rusların Gürcüstanda yerləşən ordusuna qəflətən hücumlar edir və müəyyən hərbi nailiyyətlər əldə edirdilər. Bu hücumlar həm də rus əsgərlərinin təşvişə düşməsinə də səbəb olurdu. Çünki dağlıların cəsarətli savaşı onların psixologiyasına təsir göstərirdi. Xüsusilə, dağlıların partizan dəstələri ən çox Car-Balakən zonasında peyda olurdu. Buna görə də bu ərazilərin ələ keçirilməsi mühüm idi.

Artıq 1802-ci ildə rusların Dağıstan şamxalları ilə bağladıqları Georgiyevsk müqaviləsi, dağlıların və Talış xanlığının rusların himayəsinə daxil olmasını təsdiq edirdi. Dağıstan xalqları bu müqaviləyə görə, rusların Cənubi Qafqaza yürüşlərinə mane olmamalı idilər. Əvvəlki dövrlərdə müşahidə etdiyimiz kimi, dağlılar daima Azərbaycan xanlıqları ilə əlaqədə olmuş və onlara hərbi dəstək göstərmişlər. Bu müqavilə formal olaraq bu dəstəyin qarşısını alırdı. Ruslar plana görə Car-Balakəni, Cənubi Qafqaz xanlıqlarını ələ

keçirməli, oradan Osetiya, Abxaziya, Çeçenistan və Kuban bölgəsini işğal etməli idi [4, c.2, 1009 – 1011].

Sisiyanov kazaklardan, gürcülərdən və ermənilərdən ibarət rus ordusu ilə 1803-cü ildə Car-Balakənə hücum etdi və İlisu sultanlığını özünə tabe etdi. Bunun ardınca (4 dekabr) Meqreliya və İmeret knyazlıqları da Rusiyaya tabe oldular. Bunların ələ keçirilməsi Gürcüstan quberniyası üçün vacib idi. Çünki onun sərhədində yerləşən bu ərazilərdən Gürcüstana dağlıların hücumları olurdu. Həmçinin, Gürcüstan taxtına iddialı olan Aleksandrın da bu ərazilərdə dağlılarla birgə olduğu və gürcülər arasında öz tərəfdarlarının sayını çoxaltdığını bildirirdilər. Sisiyanov bu məlumatları araşdırmaq üçün, general Qulyakova tapşırıqlar verdi.

General Qulyakov 2 (14) mart tarixində (1803) Balakənə hücum etdi. O, Balakəni ələ keçirdikdən sonra Cara yollandı. Bu ərəfədə Şəki xanı da böyük bir ordu ilə Cara yaxınlaşdı. Şəki xanı Sisiyanova məktub göndərərək, tərəflər arasında sülh danışıqlarında vasitəçi olmağı təklif etdi. Sisiyanov ona yazdığı məktubda "kökə və qamçı" metodundan (rus çarına tabe olanlara müdafiə və himayə, olmayanlara ölüm) istifadə edərək öz şərtlərini irəli sürdü: şahzadə Aleksandrı təslim etmək, Car-Balakənə rus qoşununu yerləşdirmək, vergi ödəmək və 5 əmanət vermək. Dağlılar bu danışıqlardan sonra geriyə çəkilir və Qulyakov döyüşsüz Cara daxil olur (29 aprel). Tiflisə, general Sisiyanovun yanına sülh müqaviləsi bağlamaq üçün, dağlıların 9 nəfərlik bir heyəti gəlir və aşağıdakı şərtlərlə müqavilə imzalanır:

- Rus qoşunlarına rəhbərliyin icazəsi ilə kəndlərə yerləşmək hüququ verilir, onların ərzaq təminatını hərbi xəzinə ödəyir.
- Car, Balakən, Katex, Tala, Muxax və Cınnıx kəndləri sadiqliyin təminatı üçün əmanət verirlər və onlara aid olan digər kəndlərə məsuliyyət daşıyırlar.
- Onlar şahzadə Aleksandrı, və onun tərəfdaşlarını qəbul edib özlərində sığınacaq verməməli, Dağıstan dağlılarının öz ərazilərindən Gürcüstan ərazisinə keçməsinə icazə verməməlidirlər.
- Car-Balakənlilər əbədi olaraq Rusiyaya birləşir və hər il 220 pud ipək vergi ödəyir.
- İlisu Sultanlığı Rusiyaya tabe olur və hər il 10 pud ipək vergi ödəyir [9].

Sisiyanov, dağlıların inqiloyların xristianlığı qəbul etməsinə mane olmamasını da şərt qoşmuşdu. Qazikumık xan öz dəstəsi ilə 22 oktyabrda (1803) Gürcüstana hücum edərək Qulyakovun düşərgəsini mühasirəyə alır. Burada tərəflər arasında gərgin döyüş gedir. Dağlıların geri çəkilməsindən ruhlanan rus generalı, onları Zaqatala dağlarına qədər təqib edir. O, Muxax kəndində Car dəstələri tərəfindən öldürülür və rus ordusuna ağır itkilər verilir (15 yanvar 1804). Bundan sonra qonşu İlisu soltanlığı da Rusiya təbəəliyini qəbul edir [7, 45].

Carda baş verən hadisələrdə Sisiyanovun rolu az olmamışdır. Çünki ondan 1803-cü ilin martında Carda savaşanların əfv olunmasını istədikdə, o, öz məktubunda belə yazmışdı: "Kafir əclaflar! İstəyirsiniz ki, mən sizə inanım və əfv edim? Siz mənim gəlməyimi gözləyəcəksiniz və orada mən sizin bütün evləriniziyandıracağam, sizi yandıracağam, uşaqlarınızın və arvadlarınızın içalatını dartıb çıxaracağam." [4, c.2, 691].

Sisiyanov bu cür təhdidedici və psixoloji təzyiqgöstərici məktublarla digər Qafqaz liderlərinə də müraciət edirdi. O, Kabardin liderlərinə göndərdiyi məktubda belə yazırdı: "Sizin kimi inadkarların torpaqlarını qanla doydurmaq üçün, içimdəki qan qazanda olduğu kimi qaynayır və bütün bədənim buna təşnə olmuş kimi tir-tir əsir.... Gözləyin, bunu mən sizə deyirəm, süngü və atəşlərlə sizin qanınızı çaylara axıdacam. Torpaqlarınızdan keçən çaylarda palçıqlı su deyil, sizin ailələrinizin qanına boyanan sular axacaqdır." [4, c.2, 772].

Rus ordusunun Cənubi Qafqaz hücumlarının məhz Car-Balakəndən başlamasının əsas səbəblərindən biri də o idi ki, Car-Balakənlilərin həm bir çox Azərbaycan xanlıqlarının (Gəncə, Şəki), həm də dağıstanlıların əhalisi ilə yaxın qohumluqları vardır. Bu qohumluq əlaqələri Car-Balakəndə baş verən savaşlarda həm Azərbaycandan, həm də Dağıstandan hərbi dəstəyin reallaşmasına öz təsirini göstərirdi. Digər tərəfdən, bu ərazi Qafqazda mühüm strateji əhəmiyyət daşıyırdı. Bu ərazinin ələ keçirilməsi ruslara həm Gürcüstanda öz ordusunun təhlükəsizliyini təmin etməyə, həm də Cənubi Qafqazı işğal etməyə şərait yaradırdı. Rusların Car-Balakəndə yerləşməsi yerli əhalinin oranı tərk etməsinə səbəb oldu.

1804-cü ildə (9 yanvar) Gəncə xanlığı ağır döyüşlərdən sonra işğal edilərək rus imperiyasının ərazisinə daxil edildi, xanlıq ləğv olunaraq dairəyə çevrildi, şəhər imperatorun arvadının şərəfinə Yelizavetpoladlandırıldı. Gəncənin öz adını çəkənlər cəriməyə məruz qaldılar. Bunun ardınca, xanlığa tabe olan Samux hakimi Şirin bəy də təslim oldu [2, 15-16].
Sisiyanov Gəncəni qədim gürcü çarlığına aid olan bir ərazi kimi işğal etdi [6, 226]. Qacarlar nəslindən olan Gəncə xanı Cavad xanın öldürülməsi və Gəncə xanlığının ortadan qaldırılması, rusların Cənubi Qafqazı işğal etməsinə şərait yaratdı. Çünki Sisiyanov özü deyirdi ki, "Gəncə qalasının yerli mövqeyi bütün Adərbican üzərində hökmrandır və onun istilası Rusiya üçün birinci dərəcəli əhəmiyyətə malikdir." [6, 235].

Gəncə xanlığının ortadan qaldırılması və Rusiya ərazisinə tabe edilməsi, Gürcüstanın şərqdən təhlükəsizliyinə zəmanət verirdi. Gürcüstanın və Gəncənin ələ keçirilməsi İran üçün müharibə siqnalı idi. Sisiyanov Gəncə xanlığını qurban olaraq seçmişdi. Gəncə qətliamı digər xanlıqların gözünü qorxutmalı idi. Çünki Sisiyanov Gəncə qətliamının baş verməsi üçün Gəncə xanını öz məktublarında təhqiramiz ifadələri, hədələri və boynuna qoyduğu qeyri-real vergi yükü (20 min çevron) ilə təxribata çəkdi. Halbuki, Gəncə xanlığının buna

qədər Rusiya ilə diplomatik münasibətləri var idi. İkincisi, Cavad xan Sisiyanovun Rusiya himayəsini qəbul etmək təklifini rədd etməmişdi. Deməli, Sisiyanov Gəncə qətliamının baş verməsini öncədən planlaşdırmışdı.

Rusların xanlıqlar üzərinə planlı hücumları onu göstərirdi ki, Rusiya Cənubi Qafqazı İranın əlindən qoparmaq niyyətindədir. Rus ordusu hərbi-texniki baxımdan müasir olduğu üçün uğurla irəliləyirdi. A.Bakıxanov yazırdı ki, "İran rusların ardıcıl uğurlarını dəhşətlə qarşılayırdı. İran şahı 70 minlik qoşununu Zaqafqaziya sərhədlərində cəmləşdirdi." [3, 158].

1804-cü ildə Sisiyanov İrəvan xanlığı uğrunda İran ordusu ilə döyüşə girdi və məğlub olaraq geri çəkildi. İran rusların bu hücumlarının qarşısını almaq üçün bütün Qafqaz müsəlmanlarına kafir ruslara qarşı birləşmək və savaşmaq barədə fətva verdi. [4, c.2, 639 – 775]. Bu məsələylə bağlı bir çox Azərbaycan və Dağıstan xanları Naxçıvanda İran şahı ilə görüş keçirdilər. Osmanlı hökuməti də Şimali Qafqaz xanlarını bir araya gətirmək üçün müəyyən tədbirlər gördü.

1805-ci ildə (14 may) Qarabağ xanlığı ilə Rusiya arasında bağlanan Kürəkçay müqaviləsinə görə, Qarabağ xanlığı da Rusiyanın tərəfinə keçdi. Bunun ardınca 21 mayda Şəki xanlığı, 27 dekabrda Şirvan xanlığı və Şamaxı Rusiyaya tabe olmaq barədə müqavilə imzaladılar. Artıq, Bakıya, Xəzər sahillərinə yol açılmışdı.

İran ordusu mövcud durumda gözləmək mövqeyində dayana bilməzdi və buna görə də o Qarabağa hücum edərək rus qoşunlarını geri çəkilməyə vadar etdi. Bunun ardınca onlar Qazaxa daxil oldular və sakinləri Rusiyaya qarşı üsyana dəvət etdilər. Koryaginin 570 nəfərlik dəstəsi buraya gələrək, savaşa başladılar.

Ruslar avqust ayında (1805) Bakıya yaxınlaşıb, qalanı mühasirəyə aldılar və təslim edilmələrini tələb etdilər. Sisianovun təklif etdiyi şərtlər belə idi:

- Xarici siyasət və hərbi məsələlərdə xan Qafqazdakı rus qoşunları baş komandanlığının sərəncamlarına tabe olmalı;
- xan ildə 10 min manat məbləğində məvacib almalı;
- Bakı qalasında toplarla birlikdə 600 min əsgərdən ibarət qarnizon yerləşdirilməli;
- Bakı xanlığı Rusiya təbəəliyini qəbul etməli;
- xanlığın ərazisi Rusiyaya birləşdirilməli;
- xanlığın bütün gəlirləri çar xəzinəsinə göndərilməli;
- şəhərxüsusiqaydalarüzrəidarəolunmalı idi [2, 20-21].

Bakılı Hüseynqulu xan bu şərtlərlə razılaşaraq Sisiyanov ilə görüşmək üçün, onu qalanın yanında gözlədi. Sisiyanov polkovnik Eristavinin müşayiəti ilə həmin yerə mühafizəsiz gəldi. O, burada Hüseynqulu xanın əmisi oğlu

İbrahim bəy tərəfindən qətlə yetirildi və onun kəlləsi İran şahı Fətəli şaha göndərildi. Bu hadisə rus ordusunun Bakıdan geri çəkilməsinə və qeyri-müəyyənlik durumuna düşməsinə səbəb oldu. 1806-cı ildə Sisiyanovun yerinə təyin olunan general İ.V. Qudkov Bakı, Dərbənd, Quba xanlıqlarına hücum edərək onları Rusiyaya tabe etdi. Bakı və Quba xanları İrana qaçmağa məcbur oldular. Dərbənd və Quba xanlıqları Tərki şamxallığına aid edildilər və sonra əyalətlərə bölündülər.

Bu ərəfədə Car-Balakəndə Avar və Dağıstan xanlarının silahlı dəstələrindən ibarət üsyançılar ruslara qarşı ayağa qalxmışdı. Şəkidən Car-Balakənə yollanan rus qoşunları onları mühasirəyə alaraq məğlub etdilər. Qazıqumıx hakimi Surxay xan öz dəstəsi ilə təkbaşına Azərbaycana daxil oldu və dəstək almadığı üçün geri çəkildi. Rusiya hökuməti üsyan edən və antirus mövqeyində olan xanları yeniləri ilə əvəz etdi.

**Nəticə**. General Sisiyanov hərbi əməliyyatları Qafqazda üsyanların artmasına və qafqazlıların Rusiyaya qarşı nifrət bəsləməsinə səbəb oldu. Əslində, Rusiyanın Qafqazda apardığı qəddar müstəmləkəçilik siyasəti İngiltərənin "dəyirmanına su tökdü." Rusiyanın Qafqazda yanlış siyasəti üsyanların artmasına, üsyançıların təşkilatlanmasına və qəzavat şəklində meydana çıxmasına şərait yaratdı.

## ƏDƏBİYYAT

1. Azərbaycan tarixi. Yeddi cilddə. III cild (XIII-XVIII əsrlər). Bakı. "Elm". 2007. 592 səh.
2. *Azərbaycan tarixi*. Yeddi cilddə. *IV cild* (XIX əsr). Bakı. Elm. 2007. 504 səh
3. Bakıxanov A.Gülüstani-İrəm. B., 1951. 252 səh
4. Акты, собранные Кавказской Археографической комиссией (АКАК): [В 12-ти т.] /Арх. гл. упр. наместника Кавк; Под общ. ред. А. Д. Берже. Тифлис 1866-1904.
5. Алиева С.И. Азербайджан и народы Северного Кавказа (XVIII – начало XXI вв.). Баку, Издательский дом "Şərq-Qərb", 2010. 620 səh.
6. Дубровин Н. Закавказье от 1803 по 1806 г. СПб., 1866. 543 səh.
7. Иваненко В.И. Гражданское управление в Закавказье. Тифлис, 1911.
8. *История России XVIII-XIX веков*. Под *ред. Милова Л*.В.«*Эксмо*», 2008. 784 səh.
9. https://ru.wikipedia.org/wiki/Джаро-Белоканский_поход_(1803

**UOT 930.22**

# BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ AZƏRBAYCAN-BÖYÜK BRİTANİYA ƏMƏKDAŞLIĞI

***Ceyhun Mübariz oğlu Ələkbərov***
***AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu***
*jeyhun.alekperov@yahoo.com*

**Açar sözlər:** *Böyük Britaniya, beynəlxalq münasibətlər, neft layihələri, Xəzər, BP, Qafqaz*

*Məqalə Azərbaycan Respublikası ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasındakı ikitərəfli əlaqələrin kifayət qədər uzun və zəngin tarixinə həsr edilib. Müəllif iki dövlət arasında XX əsrin sonundan XXI əsrin başlanğıcınadək olan dövr ərzindəki ticarət münasibətlərinə, neft amilinə və humanitar əlaqələrə diqqət yetirir. Məqalədə Azərbaycan və Böyük Britaniya arasındakı ikitərəfli əlaqələr beynəlxalq əməkdaşlıq sistemi çərçivəsində tədqiq edilir, beynəlxalq miqyasda əməkdaşlıqla bağlı bir çox müsbət və mənfi cəhətlər təhlil edilir. Məqalənin sonunda tədqiqat zamanı önə çıxan məqamlar və nəticələr təqdim edilir.*

## АЗЕРБАЙДЖАН И ВЕЛИКОБРИТАНИЯ В СИСТЕМЕ МЕЖДУНАРОДНОГО СОТРУДНИЧЕСТВА

***Джейхун Алакберова***

**Ключевые слова:** *Великобритания, международные отношения, нефть, Каспий, BP, Кавказ*

*Статья посвящена достаточно долгой и богатой истории двусторонних отношений между Азербайджанской Республикой и Соединенным Королевством Великобритании и Северной Ирландии. Автор уделяет огромное внимание торговым отношениям, нефтяному фактору и гуманитарным связям между двумя странами в период конца XX – начала XXI вв. В статье исследуются двусторонние отношения между Азербайджаном и Великобританией в системе международного сотрудничества, анализируются многие аспекты, как положительные, так и отрицательные, связанные с сотрудничеством на международной*

*арене. В заключительной части статьи представляются основные выводы и положения, вытекающие в ходе исследования.*

## AZERBAIJAN AND THE UNITED KINGDOM WITHIN THE SYSTEM OF INTERNATIONAL COOPERATION

***Jeyhun Alakbarov***

**Key words:** *UK, international relations, oil projects, Caspian Sea, BP, Caucasus*

*The article deals with the long-term and fruitful history of bilateral relationship between the Republic of Azerbaijan and the United Kingdom of Great Britain and Nothern Ireland. The author pays great attention to the trade relations, the oil factor and the cultural relationship between two countries since the end of the 20th to the beginning of the 21st centuries. The study analyzes the bilateral relations between Azerbaijan and the United Kingdom in the framework of the system of international cooperation by discovering different points regarding the global interaction both positive and negative. In conclusion, logical outcomes and main provisions are provided.*

Dünyadakı inteqrasiya proseslərinin sürətləndiyi, enerji siyasətinin mühüm əhəmiyyət kəsb etdiyi bir zamanda Azərbaycan Respublikasının beynəlxalq əlaqələrinin və xüsusilə də Böyük Britaniya ilə olan münasibətlərinin öyrənilməsi vacib məsələlərdəndir.

Hazırda enerji siyasəti və təhlükəsizlik amili müasir dünyada ən çox araşdırılan problemlərdən biridir. Qloballaşma, enerji resurslarının öyrənilməsi və bu kimi başqa aktual məsələlərə dair müxtəlif müəlliflərin çeşidli məqalələri, kitabları nəşr olunmuşdur. Beynəlxalq münasibətlər sistemi çərçivəsində ikitərəfli və çoxtərəfli əlaqələr mövzusunun müasir tarixşünaslıqda geniş müzakirə predmetinə çevrilməsi onun aktuallığından xəbər verir. Müxtəlif dillərdə bu səpkidə bir çox elmi əsərlər yazılmış, elmi ədəbiyyat və dövrü mətbuatda mövzuya dair zəngin materiallar, statistik məlumatlar verilmişdir.

Mövzunun aktuallığını şərtləndirən amillərdən biri də müasir dövrdə dünyadakı inteqrasiya prosesinin geniş vüsət alması və bu prosesdə dünya xalqları ilə bərabər Azərbaycan xalqının da iştirak etməsidir. Hazırda dünyada bir çox regional və qlobal layihələr hazırlanaraq həyata keçirilir. Bu isə, öz növbəsində, ciddi elmi tədqiqat mövzusudur. Müasir dünyanın başlıca inkişaf istiqamətlərindən biri olan qloballaşma problemi çərçivəsində Azərbaycan-Böyük Britaniya əlaqələri mühüm strateji əhəmiyyət kəsb edir. Bu əlaqələrin

əsasını təşkil edən neft amili isə iki ölkənin müxtəlif beynəlxalq platformlarda qarşılıqlı əməkdaşlıq və tərəfdaşlıq prinsiplərinə əsaslanmalarını labüd edir. Azərbaycan Respublikasının Böyük Britaniya ilə beynəlxalq əməkdaşlıq sistemi çərçivəsindəki əlaqələrinin əhatəli öyrənilməsi həm elmi, həm də siyasi-iqtisadi baxımdan çox aktualdır. Bütün bunlar mövzunun tədqiq edilməsinin vacibliyini bir daha sübut edir.

XXI əsrin əvvəllərində beynəlxalq əlaqələr şəbəkəsi artıq ənənəvi milli dövlətlər sistemi çərçivəsindən kənarda inkişaf edir. Beynəlmiləl korporasiyalar, əksəriyyəti transmilli xarakter daşıyan qeyri-hökumət təşkilatları və elmi cəmiyyətlərin yaratdıqları bu şəbəkə internet sayəsində daha böyük sürətlə inkişaf edir, qlobal miqyasda daha səlis və əhatəli əməkdaşlıq üçün münbit olan qeyri-rəsmi bir dünya sistemini yaradır.

Müxtəlif dövlətlərin siyasi çəkisindən və beynəlxalq nüfuzundan asılı olmayaraq, onların qlobal problemlər qarşısında bərabər vəziyyətə düşməsi yeni dünya nizamını səciyyələndirən əsas xüsusiyyətlərdəndir. Bu isə, öz növbəsində, bütün dövlətlərin dünyanın taleyi baxımından eyni məsuliyyəti daşımasından və bəşəriyyətin getdikcə qlobal ümumiliyi daha çox dərk etməsindən xəbər verir. Məsələn, lokal siyasi, etnik və dini münaqişələrin aradan qaldırılması kimi problemlər artıq ayrı-ayrı dövlətlərin daxili işi hesab edilmir. Beynəlxalq hüquq normalarının qorunmasını qarşısına məqsəd qoymuş təşkilatların müxtəlif dövlətlərin ərazisində baş verən münaqişələrə aktiv surətdə müdaxilə etməsi məhz yeni dünya nizamını xarakterizə edir.

Mövcud geosiyasi vəziyyəti öz xeyrinə dəyişmək məqsədilə hüdudlarından kənarda, digər ölkələrdə hakimiyyəti devirmək, yaxud ona təzyiq göstərmək gücü və iradəsinə malik olan dövlətlər aktiv geostrateji mövqeyə sahib ölkələr hesab edilirlər [12].

Geosiyasi mərkəzlər isə güc amilinə görə deyil, yerləşdikləri olduqca vacib coğrafi mövqeyə görə mühüm əhəmiyyət kəsb edən dövlətlər sayılır. Geostrateji mövqeyə malik dövlətlərin yürütdükləri siyasət qarşısında nümayiş etdirəcəkləri potensial acizlik faktoru da geosiyasi mərkəzlərin müəyyən edilməsində mühüm rol oynayır.

Hazırda beynəlxalq münasibətlər sisteminin daimi iştirakçıları olaraq qəbul edilən milli dövlətlərdən başqa beynəlxalq təşkilatların da dünya siyasətindəki rolu sürətlə artır. Dövlətlər arasındakı münasibətlərin tənzimlənməsi, dünyada baş verən siyasi proseslərə təsir gücü baxımından bütöv bir sistem təşkil edən beynəlxalq təşkilatlar xüsusi missiya daşıyırlar. Müxtəlif tarixi mərhələlərdə beynəlxalq təşkilatlar dünyanın siyasi həyatına vacib və son dərəcə əhəmiyyətli təsir etmişlər. Bu təsir isə, öz növbəsində, dövlətlərarası münasibətlərin beynəlxalq institutlar çərçivəsinə alınmasına, qarşılıqlı əməkdaşlıq münasibətlərinin formalaşmasına təkan vermişdir.Hazırda ən nüfuzlu və təsir mexanizmlərinə malik beynəlxalq təşkilatlar arasında Beynəlxalq Valyuta

Fondu, Dünya Bankı, Ümumdünya Ticarət Təşkilatı və digərlərinin adlarını çəkmək olar.

Yeni dünya nizamının xarakterik xüsusiyyətlərindən biri isə məhz qloballaşma prosesidir. Məhz bu səbəbdən, Azərbaycan Respublikası ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında qurulmuş ikitərəfli münasibətlərdən savayı, bu ölkələrin beynəlxalq əlaqələr sistemi çərçivəsində çoxtərəfli əməkdaşlıq praktikasından irəli gələn bütün tələbləri yerinə yetirmələri və qarşılıqlı münasibətləri tənzimləyərkən ilk növbədə beynəlxalq hüququn subyekti kimi üzərilərinə düşən vəzifələri əldə rəhbər tutmaları olduqca vacibdir.

Belə ki, Azərbaycan və Böyük Britaniya arasındakı ikitərəfli münasibətlər yeni dünya nizamının bərqərar olması fonunda inkişaf etdirilir. Bu isə o deməkdir ki, istənilən halda ikitərəfli münasibətlərin inkişaf dinamikasına çoxtərəfli beynəlxalq münasibətlər prizmasından baxılmalıdır.

Ötən əsrin sonlarındakı geosiyasi dəyişikliklərdən sonra Qərb ölkələrinin Qafqaz regionuna olan marağı son dərəcə artmışdır. Bölgənin əlverişli geostrateji mövqeyi və zəngin təbii ehtiyatları şübhəsiz ki, bu məsələdə mühüm rol oynamışdır. Qərbi Avropa ölkələrinin bölgəyə olan marağının tarixi kökləri vardır [11]. Sovet İttifaqının dağılması kimi tarixi fürsəti çox yaxşı dəyərləndirən Qərb ölkələri köhnə maraqlarını əldə rəhbər tutaraq Cənubi Qafqaz regionuna nüfuz etmənin yollarını axtarmağa başlamışdılar.

Dünyada baş verən dəyişikliklər Böyük Britaniyanın xarici siyasət doktrinasına da təsirsiz ötüşməmişdir. Təsadüfi deyil ki, keçmiş SSRİ coğrafiyasında yaranmış yeni dövlətlərin bir-birinin ardınca suverenliyini elan etdiyi bir zamanda gənc Azərbaycan Respublikasının müstəqilliyini tanıyan ilk dövlətlərdən biri də 31 dekabr 1991-ci il tarixdə məhz Birləşmiş Krallıq olmuşdur.

XXI əsrin əvvəllərindən etibarən, dünyanın bütünləşməsi, vahidləşməsi tendensiyaları müşahidə olunmaqdadır. Bəzi tədqiqatçılar qloballaşma və bütünləşmə prosesini Qərb sivilizasiyası dəyərlərinin bütün dünyaya zorla qəbul etdirilməsi cəhdi kimi qiymətləndirirlər ki, buna da elmi ədəbiyyatda mondializm deyilir. Bu mənada XIX əsrin sonları XX əsrin əvvəllərində bənzər bir missiyanı həyata keçirən Böyük Britaniya XX əsrin ikinci yarısında estafeti Amerika Birləşmiş Ştatlarına vermişdir [7,25].

Britaniya imperializmini səciyyələndirən əsas xüsusiyyət onun birinci növbədə iqtisadi maraqları əldə rəhbər tutmasından ibarət idi. Azərbaycan Xalq Cümhuriyyəti zamanında Böyük Britaniyanın Bakıya hərbi müdaxiləsini də məhz iqtisadi maraqlar şərtləndirmişdi. Qeyd etmək lazımdır ki, XX əsrdə beynəlxalq münasibətlər sistemində təşəkkül tapan "iqtisadi müstəmləkə" anlayışı da bilavasitə Britaniya imperializminin məhsulu idi [11].

Britaniya dövlətçiliyindən və onun iqtisadi qüdrətindən bəhs edərkən London Beynəlxalq Klubunun əhəmiyyətindən söz açmamaq mümkün deyildir. Dünyada qısaca London birjası kimi tanınan təşkilat qeyri-formal iqtisadi struktur sayılsa da, bu gün beynəlxalq valyuta münasibətlərinin formalaşması və inkişafında mühüm rol oynayır. Klubda sənayesi inkişaf etmiş iri dünya dövlətləri təmsil edilirlər. Burada müxtəlif səpkili maliyyə proqramları həyata keçirilir və iqtisadi dirçəlişin təmin edilməsi məqsədilə iri məbləğdə kreditlər ayrılır [3,115].

Qloballaşma dərinləşdikcə bəzi Qərb dairələrində, xüsusən ABŞ politoloqları içərisində dünyanı ümumi mərkəzdən idarə edən "ümumdünya hökumətinin" mövcudluğuna ehtiyac olması haqqında fikirlər də çoxalır. Onların fikrincə, qloballaşmanın getdikcə bütün dünyada genişlənməsi, iqtisadi, siyasi, sosial-mədəni inteqrasiyanın dərinləşməsi, liberal-demokratik sistemlərin universallaşması dünyada yeni millət və dövlətüstü orqanların yaranmasına və insanlararası məsələlərin onlar tərəfindən tənzimlənməsinə ehtiyac yaradır. "Ümumdünya hökuməti" hesab ediləcək belə təşkilatlar bəzi suveren hüquqları milli dövlətlərdən alaraq öz əlində cəmləşdirəcək, bəşəriyyətin ədalətli idarəçiliyini həyata keçirəcək [1,159].

Ərazisinin kiçik olması və əhalisinin sayının az olmasına baxmayaraq, nəhəng enerji ehtiyatlarına sahib olan Azərbaycan geosiyasi nöqteyi-nəzərdən böyük əhəmiyyət kəsb edir. Onu Xəzər dənizi hövzəsi və Orta Asiyanın zənginliklərinin yerləşdiyi qabın qapağı adlandırmaq mümkündür. Əgər Azərbaycan tamamilə hər hansı bir ölkənin nüfuz dairəsinə düşərsə, o zaman Orta Asiya dövlətlərinin müstəqilliyi heç bir məna kəsb etməz. Dövlət müstəqilliyi təhlükə altında olarsa, Azərbaycanın özünə aid olan zəngin neft yataqları Rusiyanın nəzarəti altına keçə bilər. Rusiya torpaqlarından yan keçərək neft boruları vasitəsilə Qərb bazarlarına çıxan müstəqil Azərbaycan, eyni zamanda, enerji istehlakçısı olan inkişaf etmiş iqtisadiyyatların Mərkəzi Asiyanın enerji ilə zəngin respublikalarına çıxışını təmin edəcək iri bir magistrala çevrilməkdədir. Azərbaycan və Mərkəzi Asiyanın, eyni zamanda, Ukraynanın gələcəyi prinsipial dərəcədə Rusiyanın gələcəkdə hansı mövqeyə sahib olacağından asılı ola bilər [4,32].

Azərbaycan Respublikasının xarici siyasət konsepsiyasının təməli milli və suveren dövlət quruculuğunu, eləcə də beynəlxalq münasibətlər sistemində bərabərhüquqlu üzvlüyə nail olmağı qarşısına məqsəd qoymuş demokratik qüvvələrin hakimiyyətə gəlişi ilə qoyulmuşdur. Müstəqil Azərbaycan demək olar ki, bütün dünya dövlətləri tərəfindən tanınmış, müxtəlif beynəlxalq təşkilatların əksəriyyətinə üzv olmuşdur. Azərbaycanla əlaqələr qurmanın marağında olan iri dövlətlər səfirliklər səviyyəsində diplomatik münasibətlərin yaradılması təşəbbüsü ilə çıxış etmişlər.

Azərbaycanın xarici siyasət xəttinin uğurla həyata keçirilməsində XX əsrin sonu XXI əsrin əvvəllərində dünyada baş vermiş proseslər və Azərbaycandakı dəyişikliklərin böyük rolu olmuşdur [5,15].

Məlumdur ki, Böyük Britaniyanın Azərbaycanda ciddi iqtisadi maraqları vardır. Ona görə də iqtisadi sahədəki əməkdaşlığı perspektivləri daha böyükdür. İqtisadi sahədə əməkdaşlıq dedikdə isə əsasən enerji daşıyıcıları sahəsindəki əməkdaşlıq nəzərdə tutulur. XXI əsrdə iri neft dövləti və siyasi güc olmaq üçün Azərbaycanın qarşısında geniş imkanlar açılmışdır. Təbii ehtiyatlarla zəngin Xəzər bölgəsinin strateji əhəmiyyəti isə getdikcə daha da artmaqdadır. Bu məsələdə də Azərbaycanın Britaniya təcrübəsinə ehtiyacı vardır. Enerji ehtiyatlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü məsələsində nüfuzlu Britaniya şirkətlərinin iştirakı təmin edilməli, enerji siyasəti və kommersiya məsələlərini əhatə edən dialoq dərinləşdirilməlidir.

İkitərəfli əlaqələrin qurulması qarşılıqlı səfərlərin intensivləşməsi ilə müşayiət olunmuşdur. Hələ 3-6 avqust 1992-ci il tarixində Britaniya höküməti Xarici işlər və birlik işləri departamentinin nümayəndə heyəti, sentyabr ayında isə sabiq baş nazir Marqaret Tetçer, ölkənin ticarət və sənaye naziri Maykl Hezltayn və BP neft şirkəti rəhbərinin Bakıya səfərləri olmuşdu. 1992-ci ilin sentyabrında Azərbaycan Respublikası Müdafiə nazirliyi, 1993-cü ilin mayında isə Azərbaycan höküməti nümayəndə heyətləri Londona səfər etmişdilər [8].

Azərbaycanda enerji sahəsində çalışan ingilis şirkətlərindən söz açarkən, BP şirkətinin fəaliyyətinə toxunmamaq mümkün deyildir. Dünyanın ən iri enerji şirkətlərindən biri olan BP şirkətinin Azərbaycanda fəaliyyətə başladığı dövr 1991-ci ili əhatə edir. Hələ XXI əsrin əvvəllərində dünyanın müxtəlif bölgələrində 13 milyon insana xidmət göstərən bu Britaniya nəhəngi enerji kəşfiyyatı, neft və qazın işlənməsi, emalı və çatdırılması, o cümlədən neft-kimya məhsulları və nəqliyyat vasitələri üçün yanacaq istehsalı üzrə ixtisaslaşmışdır [10].

2000-ci illərin əvvəllərində BP rəhbərliyinin Azərbaycanı şirkətin fəaliyyət göstərdiyi beş prioritet bölgədən biri elan etməsi enerji sahəsindəki əməkdaşlığın miqyasından xəbər verirdi[10]. Azərbaycanın enerji ehtiyatlarına böyük ehtiyacın olduğunu təkcə ingilis neft şirkətlərinin rəhbərləri deyil, eyni zamanda, Böyük Britaniyanın yüksəksəviyyəli rəsmiləri də bəyan edirdilər. Belə ki, Böyük Britaniya hökumətinin üzvləri ölkələrinin enerji təhlükəsizliyindən bəhs edərkən xüsusilə XXI əsrin ikinci onilliyində Azərbaycan və digər strateji bölgələrdən çatdırılacaq enerji daşıyıcılarına böyük ehtiyac duyacaqlarını dəfələrlə etiraf etmişdilər.

Təsadüfi deyil ki, müstəqilliyinin ilk illərində gənc Azərbaycan Respublikasına kredit zəmanətləri vermiş ilk Qərb ölkəsi elə məhz Böyük Britaniya olmuşdur. 1995-ci ilin sonlarında Azərbaycan-Böyük Britaniya Ticarət və Sənaye Şurasının yaradılmasından sonra Azərbaycan Respublikasına böyük

etimad göstərən Birləşmiş Krallıq hökuməti müvafiq memorandumun imzalanmasından cəmi bir neçə ay sonra Azərbaycana ixrac kreditlərinin verilməsi barədə qərar çıxarmışdır.

Azərbaycan və Böyük Britaniya arasında ikitərəfli münasibətlərin araşdırılması zamanı bir sıra problemlərin mövcudluğu da üzə çıxır. Bunlar əsasən iqtisadi sahədəki əməkdaşlıqla əlaqədardır. Azərbaycana gələn ingilis diplomatları və iş adamları dəfələrlə respublikada yerli işgüzar mühitin biznesin aparılması üçün əlverişli olmadığını bildirirdilər. Britaniya şirkətlərinin mövqeyinə görə, Azərbaycanda biznesin inkişafına çətinlik törədən amillər sırasına hakimiyyət strukturlarındakı bürokratiya, süründürməçilik və layihələrin həyata keçirilməsi zamanı rast gəlinən vergilərdir [2,122].

Qeyd olunduğu kimi, müəyyən bürokratik əngəllərlə üzləşən bir sıra ingilis şirkətləri Azərbaycandakı fəaliyyətlərini dayandırmaq barədə qərar qəbul etmişdilər. Belə ki, Azərbaycanda biznes şəraitinin əlverişsiz olduğunu əsas gətirən “Morrison” şirkəti, Britaniya Yaxın Şərq Bankı, dünyaca məşhur HSBC bankının Bakı filialı və müasir dövrdə Azərbaycanın neft sənayesinə sərmayə qoymuş ilk Qərb şirkətlərindən olan “Remco” neft şirkəti respublikanı tərk etməli olmuşdular.

Heç şübhəsiz ki, bu məsələdə getdikcə özünü göstərən və 2008-ci ildə daha da dərinləşən dünya iqtisadi böhranının da böyük təsiri olmuşdu.

Bütün bunlardan belə bir nəticə çıxarmaq olar ki, iki ölkə arasındakı münasibətlərdə daha çox strateji tərəfdaşlığa üstünlük verən Azərbaycan və Böyük Britaniya əməkdaşlığın gücləndirilməsinə və iqtisadi əlaqələr başda olmaqla, ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsinə səy göstərirlər. Bu baxımdan, iki ölkə arasındakı iqtisadi əməkdaşlığa zərər verə biləcək hər hansı bir addımın qarşısı alınmalı, münasibətlərin şəffaflığına xüsusi diqqət yetirilməlidir. İki ölkə arasındakı əlaqələrin inkişaf templərini ləngidən bütün maneələr aradan qalxarsa, Azərbaycan və Böyük Britaniya arasındakı həm siyasi, həm də iqtisadi münasibətlər yeni mərhələyə qədəm qoya bilər.

Şübhəsiz ki, gənc Azərbaycan Respublikası ilə dünyanın ən qabaqcıl ölkələrindən biri olan Böyük Britaniya arasındakı əlaqələr böyük perspektivlərə malikdir. Bununla belə, nəzərə almaq lazımdır ki, iki ölkə arasındakı əlaqələrin perspektivindən bəhs edərkən, rəsmi Bakı müəyyən aspektlərə xüsusi diqqət yetirməlidir. Böyük Britaniya demokratik islahatlar aparan, liberal cəmiyyət və bazar iqtisadiyyatı modelini seçən Azərbaycan üçün nümunə ola bilər. Bu ölkənin dünya siyasətində tutduğu mövqe və qazandığı misilsiz təcrübələrdən yüksək səviyyədə istifadə edilməlidir.

Azərbaycanın Avropaya inteqrasiya proseslərində iştirakı baxımından Böyük Britaniyanın rolu çox mühümdür. Hələ 1996-cı il aprelin 22-də Lüksemburqda Avropa İttifaqının Azərbaycan, Ermənistan və Gürcüstanın dövlət başçıları ilə ilk görüşü çərçivəsində “Avropa İttifaqı və Azərbaycan

Respublikası arasında tərəfdaşlıq və əməkdaşlıq haqqında" Saziş imzalanmışdı. Sazişdə Azərbaycanda demokratiya və iqtisadi islahatların dəstəklənməsi, ticarət və investisiya qoyuluşuna yardım edilməsi, Avropa İttifaqı və Azərbaycan arasında müntəzəm siyasi dialoq və hərtərəfli tərəfdaşlığın yaradılması nəzərdə tutulurdu. Həmin sənəd 1996-cı il oktyabrın 28-də Azərbaycan, 1998-ci ilin aprelində isə Birləşmiş Krallıq tərəfindən ratifikasiya edilmişdir. Saziş Avropa İttifaqına daxil olan bütün dövlətlər tərəfindən təsdiq olunduqdan sonra 1999-cu il iyunun 22-də Lüksemburqda Avropa İttifaqı ölkələrinin xarici işlər nazirləri ilə Qafqaz ölkələrinin dövlət və hökumət başçılarının zirvə görüşü keçirilmişdir. İyulun 1-dən etibarən saziş qüvvəyə minmiş, həmin ilin oktyabrında isə Avropa İttifaqı və Azərbaycan arasında Əməkdaşlıq Şurasının ilk görüşü keçirilmişdir [1,127].

Əlbəttə ki, Avropa İttifaqı ilə siyasi dialoqun aparılması və çoxşaxəli əməkdaşlığın inkişaf etdirilməsi baxımından Böyük Britaniyanın yardımından faydalanmaq Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edir. Avropa-Atlantika Əməkdaşlıq Şurası çərçivəsində əlaqələrin inkişaf etdirilməsi, NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramı ilə əlaqədar fəaliyyətlərin genişləndirilməsi və digər proseslərdə Böyük Britaniyanın dəstəyi böyük önəm daşıyır. Təhlükəsizlik məsələlərini əhatə edən dövlətlərarası dialoqun davamlılığı təmin edilməli, terror təşkilatları, mütəşəkkil cinayət şəbəkələri, silahların və narkotiklərin qanunsuz dövriyyəsi və saxtakarlığa qarşı həm beynəlxalq müstəvidə mübarizə aparılmalı, həm də ikitərəfli əməkdaşlıq inkişaf etdirilməlidir.

İkinci Dünya müharibəsindən sonra Böyük Britaniya dünyanın müxtəlif bölgələrində yeni təsir imkanlarının axtarışlarına başladı, dünya siyasətindəki yeni yeri və rolunu müəyyən etməyə çalışdı. Böyük Britaniya yenə də dünyanın fərqli bölgələrində güclü mövqeyi olan və hərbi-siyasi qüdrətə malik olan bir imperiya statusunu saxlayırdı. Doğrudur, imperiyanın mövcud əzəməti artıq onun iqtisadi imkanları ilə tarazlaşmırdı, ona görə də Britaniya xarici siyasətinin yeni hədəf və məqsədləri daha çox praqmatikliyi ilə seçilirdi. Avrasiyada yaranmaqda olan siyasi və geosiyasi vəziyyət Mərkəzi Asiya və Qafqaz regionundakı yeni geoiqtisadi perspektivləri şərtləndirirdi. Digər tərəfdən, sadəcə geoiqtisadi maraqlara hesablanmış Britaniya siyasəti bir o qədər də diqqət cəlb etməyə bilərdi. Xarici siyasət xəttini iqtisadi maraqlar üzərində quran rəsmi London həm Vaşinqtonla sıx əməkdaşlıq etməyə səy göstərir, həm də özünün kifayət qədər müstəqil hədəf və məqsədlərini əldə rəhbər tuturdu [6,52].

Ümumilikdə deyə bilərik ki, Böyük Britaniyanın Qafqaz bölgəsindəki maraqlarının diapazonu Birləşmiş Ştatlarınkından daha genişdir. Təhlükəsizlik və sabitlik kimi məsələləri prioritet hesab edən ABŞ-ın bölgədəki strateji maraqları sadəcə neft gəlirləri ilə məhdudlaşır. Əslində Qafqaz və Mərkəzi Asiya regionunda məqsəd və hədəfləri nə qədər bəsit görünsə də, elə Böyük

Britaniyanın da bölgədəki strateji maraqları hələlik ancaq neft və qaz layihələri ilə kifayətlənməkdədir. Hazırda, dünyada ABŞ və Britaniya geosiyasi və geoiqtisadi maraqlarının uzlaşdığı və bir vəhdət təşkil etdiyi bir neçə ingilis layihəsi mövcuddur. Bu layihələrin uzun və qısa vədədə həyata keçirilməsini planlaşdıran Britaniya diplomatiyası Qafqaz bölgəsinin özəlliklərini və problemlərini çox dərindən araşdırmışdır. Qafqazı əhatə edən bu proqram çərçivəsində vətəndaş cəmiyyəti, yerli mətbuat, ictimai əlaqələr və xalqlararası münasibətlərin inkişafına yönəldilmiş müəyyən texnologiyalar tətbiq edilir, konfranslar, seminarlar və dəyirmi masalar kimi müxtəlif aksiyalar təşkil edilir. Bu texnologiyalar mövcud duruma təsir vasitələrinin formalaşdırılmasına və uzunmüddətli perspektivlərə hesablanır. Belə rıçaqların yaradılması yerli hakimiyyət dairələri və vətəndaş cəmiyyətinin nümayəndələri ilə sıx və geniş iş aparılmasını nəzərdə tutur. Ona görə də birinci mərhələdə Britaniyanın Qafqaz layihəsi bölgədəki siyasi və sosial vəziyyətə təsir edə biləcək şəbəkə sisteminin yaradılmasını nəzərdə tutur [12].

Bu gün Cənubi Qafqazda mövcud olan spesifik beynəlxalq vəziyyətin yaranmasında məhz Böyük Britaniyanın xüsusi rolu vardır. Belə ki, müəyyən mənada rəsmi Londonun prinsipial mövqeyi sayəsində reallaşan bir sıra regional dinamik enerji-tranzit layihələri bölgədə nisbi təhlükəsizlik rejiminin bərqərar olması ilə nəticələnmişdir. Qafqazdakı siyasi ritmləri özünün enerji maraqlarına tabe etməyə çalışan ingilis diplomatiyası, hətta bölgədəki lokal münaqişələrin dondurulmasına da müəyyən dərəcədə rəvac vermişdir.

Göründüyü kimi, Böyük Britaniya Azərbaycanın yerləşdiyi regiona xüsusi maraq göstərir və onunla strateji tərəfdaşlıq münasibətlərini genişləndirmək arzusundadır. Artıq 1992-ci ildən Rusiya və Ukraynanın ardınca Birləşmiş Krallığın Bakıdakı diplomatik nümayəndəliyinin fəaliyyətə başlaması bu dövlətin Azərbaycana böyük əhəmiyyət verməsinə dəlalət edirdi. Məlumat üçün bildirilməlidir ki, Böyük Britaniyanın Gürcüstan və Ermənistandakı səfirlikləri 1995-ci ildə açılmışdır. Hal-hazırda, Birləşmiş Krallığın Bakıdakı səfirliyi Moskvadan sonra keçmiş SSRİ məkanında Böyük Britaniyanın ən iri ştata malik diplomatik missiyasıdır [1,121].

Azərbaycan və Böyük Britaniya arasındakı siyasi münasibətlərin inkişaf perspektivlərindən bəhs edərkən, parlamentlərarası əlaqələrin rolu xüsusi vurğulanmalıdır. Bu əlaqələrin genişləndirilməsi və effektivliyinin artırılmasına ehtiyac vardır. Parlament mədəniyyətinin beşiyi olan Böyük Britaniyanın qanunverici orqanında fəaliyyət göstərən və bütün siyasi partiyaları əhatə edən Britaniya-Azərbaycan Parlament Qrupu Azərbaycan ilə əlaqələrin daha da inkişaf etdirilməsində müstəsna rol oynaya bilər. Təqribən 20 millət vəkilindən ibarət Qrup ikitərəfli münasibətlərin inkişafına böyük töhfə verir. Eyni zamanda, Azərbaycan parlamentində yaradılmış 13 millət vəkilindən ibarət Dostluq qrupunun fəaliyyətini də genişləndirmək lazımdır. İngilis qanun-

vericiliyinin misilsiz təcrübəsindən yararlanmaq üçün azərbaycanlı millət vəkillərinin Londona etdiyi səfərlər nə qədər vacibdirsə, onların britaniyalı həmkarlarının Bakıya etdikləri səfərlər də bir o qədər əhəmiyyətlidir.

Azərbaycan və Böyük Britaniya arasında əməkdaşlığın genişləndirilməsi perspektivləri baxımından prezident Heydər Əliyevin "Azərbaycan Respublikası ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında tərəfdaşlıq münasibətlərinin genişləndirilməsi tədbirləri haqqında" 25 avqust 1998-ci il tarixli Sərəncamının da böyük əhəmiyyəti vardır. Sənəddə iki ölkə arasında hərtərəfli əlaqələrin inkişaf etdirilməsi məsələləri öz əksini tapmışdır. Sərəncamın icrasına bir sıra nazirlik və hökumət təşkilatları cəlb edilmişdir [1,129].

Dövlət proqramları və yeni müştərək layihələrin həyata keçirilməsi yolu ilə maliyyə, rabitə, səhiyyə, turizm, sənaye və kənd təsərrüfatı sahələrindəki mövcud əlaqələr daha da inkişaf etdirilməli, yeni imkanlar yaradılmalıdır. Londonun dünyanın maliyyə mərkəzlərindən biri olduğu məlumdur. Bu baxımdan, ikitərəfli münasibətlər çərçivəsində bu şəhərin potensialından maksimum istifadə edilməli, nüfuzlu maliyyə institutları ilə sıx əlaqələr qurulmalıdır. Xüsusilə qeyd etmək lazımdır ki, Böyük Britaniyanın dəstəyi Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına tamhüquqlu üzv kimi qəbul edilməsi prosesində də həlledici ola bilər.

İki ölkə arasında bir xeyli inkişaf etmiş humanitar əlaqələrin bugünkü səviyyəsi ilə kifayətlənməməli, elm, təhsil və mədəniyyət sahəsindəki əməkdaşlıq əlaqələri daha da inkişaf etdirilməlidir. Müəllim və tələbə mübadiləsi proqramlarının həyata keçirilməsi sahəsindəki təcrübə elm ocaqları və təhsil müəssisələri arasındakı əlaqələrin inkişaf etdirilməsinə sərf edilməli, mədəniyyət tədbirlərinin keçirilməsi intensiv xarakter daşımalı, iki ölkə cəmiyyəti arasında mədəni körpü qurulmalıdır.

Azərbaycan Respublikası ilə Birləşmiş Krallığın beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı uğurla davam etdirilmiş və fundamental xarakter almışdır. Məsələn, iki ölkə 2011-2012-ci illərdə Azərbaycanın BMT Təhlükəsizlik Şurasında qeyri-daimi üzvlüyü çərçivəsində səmərəli əməkdaşlıq etmiş, Əfqanıstanda davamlı sülh və sabitliyin bərqərar olması istiqamətində birgə səylər göstərmişlər.

İkitərəfli iqtisadi əlaqələr də bu dövrdən sonra məhz artan temp üzrə inkişaf etmişdir. 1992-ci ildən etibarən, Azərbaycanda fəaliyyət göstərən bp şirkəti ardıcıl surətdə "Əsrin müqaviləsi" çərçivəsində "Azəri-Çıraq-Günəşli" yataqları və "Şahdəniz" layihəsi kimi hasilatın pay bölgüsünə dair imzalanmış əsas sazişlərin həyata keçirilməsində iştirak etməyə davam etmişdir. "Şahdəniz-2" layihəsi üzrə əsas texniki operator və aparıcı iştirakçı şirkətlərdən olan bp ilə əməkdaşlıq Azərbaycan üçün son dərəcə əhəmiyyət kəsb etməyə davam edir. Belə ki, 17 dekabr 2013-cü ildə Bakıda bu layihə üzrə yekun investisiya qərarı

ilə bağlı imzalama mərasimi keçirilmiş və mərasimdə bir çox ölkələrin yüksək rəsmiləri ilə yanaşı, Birləşmiş Krallığın xarici işlər naziri Uilyam Heyq də iştirak etmişdir [10].

Məlumdur ki, 2011-ci ildə iki ölkə arasında ticarət dövriyyəsi 501 milyon ABŞ dolları təşkil etmiş və Birləşmiş Krallıq Azərbaycanın 15-ci iri ticarət tərəfdaşı, Avropa İttifaqı ölkələri arasında isə 4-cü iri ticarət tərəfdaşı olmuşdur. Birləşmiş Krallıq yenə də Azərbaycanda ən iri xarici sərmayədar olaraq qalmaqdadır. Sonrakı illərdə Azərbaycanda 300-ə yaxın Britaniya şirkəti fəaliyyət göstərmişdir. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin rəqəmlərinə əsasən, 2012-ci ildə Britaniya sərmayələri Azərbaycan iqtisadiyyatına qoyulmuş bütün xarici sərmayələrin 51,7%-ni təşkil etmişdir.

İki ölkə arasında işgüzar təmasların genişləndirilməsi, həmçinin ticarət və sərmayə əlaqələrinin genişləndirilməsi məqsədilə 2009-cu ilin sentyabr ayında Britaniya-Azərbaycan Biznes Şurası (BABŞ) təsis olunmuşdur. Biznes Şurası mütəmadi olaraq Britaniya şirkətlərinin təmsilçilərindən ibarət nümayəndə heyətlərinin Azərbaycana səfərlərini və Londonda Azərbaycana həsr olunmuş biznes tədbirlərini təşkil edir [8].

Azərbaycan və Böyük Britaniya arasındakı çoxtərəfli əməkdaşlığın digər sahələrində olduğu kimi mədəni əlaqələrin inkişaf tempi də qənaətbəxş hesab edilə bilər. Azərbaycanda fəaliyyət göstərən və Britaniya mədəniyyətini təbliğ edən müxtəlif humanitar təşkilatların təcrübələrini öyrənərək, Britaniyada Azərbaycan dili və mədəniyyətini yaymaq məqsədilə müvafiq işin aparılması çox faydalı olacaqdır.

XXI əsrin başlanğıcında mədəni və humanitar əlaqələrin inkişafı yüksək templə davam etdirildi. Birləşmiş Krallıqda fəaliyyət göstərən Azərbaycan təşkilatlarının sayı əhəmiyyətli dərəcədə artdı. 1997-ci ildə təsis olunmuş İngiltərə-Azərbaycan Cəmiyyəti humanitar sahədə əməkdaşlığın inkişaf etdirilməsi prosesini sürətləndirdi və bu, sonrakı illərdə ikitərəfli mədəni əlaqələr üçün möhkəm zəmin yaratdı. Məlumdur ki, Birləşmiş Krallıq xaricdə təhsil almaq istəyən azərbaycanlı gənclərin maraq göstərdikləri əsas ölkələrdəndir. "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə dövlət proqramı"çərçivəsində dünyanın 27 ölkəsində 1842 azərbaycanlı tələbə təhsil aldı və bunlardan 419 nəfəri Birləşmiş Krallığın müxtəlif universitetlərindən məzun oldu [9].

Birləşmiş Krallıqda fəaliyyət göstərən Azərbaycan təşkilatları və Azərbaycan tələbə cəmiyyətlərinin sayındakı artım da humanitar əlaqələrin sonrakı illərdə artan temp üzrə inkişaf etdiyindən xəbər verir. Bunların arasında Avropa Azərbaycan Cəmiyyəti (TEAS), Azərbaycan Evi, London Azərbaycan Bazar Günü Məktəbi ("Kaspian Xəzri"), SOAS-Azərbaycan Tələbə Cəmiyyəti, Ekseter-Azərbaycan Tələbə Cəmiyyəti, UCL-Azərbaycan Cəmiyyəti, eləcə də

Kembric, Oksford, Mançester, Şeffildvə Aberdin tələbə cəmiyyətlərinin adlarını çəkmək kifayətdir [8].

Son olaraq geosiyasi reallıqları nəzərə almaqla onu söyləmək mümkündür ki, önümüzdəki illərdə dünyada real funksiyaya malik olan qlobal əməkdaşlıq sisteminin yaranacağı istisna edilməməlidir. Çox güman ki, getdikcə bu sistem bütün dünyada sabitlik və sülhə görə məsuliyyəti öz üzərinə götürmək iqtidarında olan beynəlxalq stabilizator funksiyasını daşıyacaqdır.

"Əsrin müqaviləsi" ilə həyata keçməyə başlayan milli neft strategiyasının gerçəkləşdirilməsində ingilis şirkətləri strateji və ən etibarlı müttəfiq missiyasını yerinə yetirirlər. BP şirkətinin bu layihənin gerçəkləşməsi, "Bakı-Tbilisi-Ceyhan" əsas neft ixrac boru kəməri və "Bakı-Tbilisi-Ərzurum" qaz kəmərinin tikilməsində Azərbaycanın ən əsas tərəfdaşı qismində çıxış etməsi Azərbaycan-Britaniya iqtisadi müttəfiqliyinin ən bariz nümunəsi hesab edilə bilər. Buna görə də Azərbaycan-Britaniya münasibətlərinin beynəlxalq iqtisadi əlaqələr sistemi kontekstində öyrənilməsi daha məqsədəuyğundur. Bu problemin elmi müstəvidə araşdırılması beynəlxalq iqtisadi münasibətlər sisteminin yeni iştirakçısı olan Azərbaycan Respublikasının iqtisadi siyasət nəzəriyyəsinin, ixrac-idxal strategiyasının, səmərəli investisiya siyasətinin işlənib-hazırlanması baxımından çox effektiv nəticələr verə bilər. Azərbaycan və böyük iqtisadi potensiala malik Britaniya arasındakı münasibətlərin yeni mərhələyə qədəm qoyduğunu söyləmək mümkündür.

## ƏDƏBİYYAT


1. Həsənov Ə. M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: Azərnəşr, 2005
2. Məmmədli E. C. Azərbaycan-Böyük Britaniya münasibətləri (1991-2003). Bakı: Adiloğlu, 2003
3. Бжезинский З. К. Великая шахматная доска. Москва: Международные отношения, 1998
4. Гулузаде В. М. Кавказ: среди врагов и друзей (статьи, интервью, выступления). Баку, 2001
5. Gaskarth J. British Foreign Policy Crises, Conflicts and Future Challenges. London, 2013
6. James L. The Rise and Fall of the British Empire. London, 2001
7. Lunn J. Miller V. Smith B. British Foreign Policy Since 1997. London, 2008, June 23
8. www.mfa.gov.az
9. www.britishcouncil.org
10. www.bp.com
11. www.bbc.com
12. www.theguardian.com

**UOT 94(479.24)**

# XIX ƏSRDƏ ŞƏKİ BÖLGƏSİNDƏ İPƏK TOXUCULUĞUNUN VƏZİYYƏTİ

***Nuranə Niyazi qızı Mazanova***
***Azərbaycan Dövlət Neft və Sənaye Universiteti***
*gasimova.nurana@mail.ru*

**Açar sözlər:** *Azərbaycan, Şəki, ipək, ipəkçilik, ipək toxuculuğu, sənətkarlıq*

*İpək iqtisadi əhəmiyyətinə görə əsrlər boyu Azərbaycan xalqının məişətində və təsərrüfat həyatında mühüm rol oynamışdır. Şəki bölgəsi Azərbayacanın əsas ipəkçilk və ipək toxuculuğu mərkəzlərdən biri olmuşdur. XIX əsrdə daxili və xarici bazarlarda ipək məmulatlarına olan tələbatın artması nəticəsində ipək toxuma sənətinin gəlirli sahələrdən birinə çevrilməsi, bu sənət sahəsinin yüksək inkişaf səviyyəsinə çatmasına səbəb olmuşdu. Bu dövrdə ipək toxuculuğunun xarakterində də dəyişiklik baş vermiş, ipək məmulatları istehsalı əmtəə istehsalı xarakteri almışdır. İpək toxuculuğunda ixtisaslaşmanın dərinləşməsi kəlağayı kimi Şəki bölgəsinə xas dünyaca məşhur ipək məmulatları istehsalının genişlənməsinə səbəb olmuşdur. XIX sərin sonlarında xam ipəyin Rusiyanın toxuculuq fabriklərinə daşınması, əvəzində isə ucuz fabrik məhsullarının bölgəyə kütləvi idxalı nəticəsində rəqabətə tab gətirməyən yerli kustar ipək toxuculuğu tədricən tənəzzülə uğramışdır.*

## СОСТОЯНИЕ ШЕЛКОТКАЧЕСТВО В ШЕКИНСКОМ РЕГИОНЕ В XIX ВЕКЕ

***Нурана Мазанова***

**Ключевые слова:** *Азербайджан, Шеки, шелк, шелководство, шелкоткачество, ремесло*

*Шелк по своему экономическому значению на протяжении веков играл важную роль в быту и хозяйственной жизни азербайджанского народа. Шекинский регион был одним из главных центров шелководство и шелкоткачество Азербайджана. Превращение ремесленного шелкоткачества водну из прибыльных отраслей в результате растущего спроса на шелковые изделия, во внутренних и во внешних рынках в XIX веке,*

*привело к высокому уровню развития этого ремесла. В этот период произошло изменения и в характере шелкоткачества, производство шелковых изделий приняло характер товарного производство. Углубление специализации в шелкоткачестве привело к расширению производства шелковых изделий, характерных для Шекинского региона, всемирно известные, как кялагаи. В результате поставки шелка-сырца на российские текстильные фабрики и в замен массовый ввоз дешевых шелковых изделий фабричного производсво на регион, в конце XIX века, местное кустарное шелкоткачествоне выдерживая конкуренции, постепенно пришло к упадоку.*

## STATE OF SERICULTURE IN THE SHEKI REGION IN THE XIX CENTURY

***Nurana Mazanova***

**Key words:** *Azerbaijan, Sheki, silk, sericulture, silk weaving, craft*

*For centuries, silk has played an important role in the everyday life and economic life of the Azerbaijani people. Sheki region was one of the main centers of silkworming and silk weaving in Azerbaijan. The transformation of handicraft of silk weaving into one of the profitable industries as a result of the growing demand for silk products in the domestic and foreign markets in the 19th century led to a high level of development of this craft. During this period, there was a change in the nature of silk weaving, the production of silk products took the character of commodity production. The deepening of specialization in silk weaving has led to the expansion of the production of silk products characteristic of the Sheki region, world-famous as the kalagai. As a result of the supply of raw silk to Russian textile factories and in return for the massive import of cheap silk products from factory production to the region, at the end of the 19th century, local handicraft silk weaving, unable to withstand competition, gradually fell into decline.*

Şimali Azərbaycan tarixən ipəkçiliyin inkişafı üçün əlverişli təbii-coğrafi şəraitə malik olan bir ölkə olmuşdur. Azərbaycan ipəyinə və həm də ondan toxunan məmulatlara dünyanın bir sıra ölkələrində yüksək qiymətləndirilirdi. İpək həmişə dünya bazarlarında böyük gəlir gətirən məhsullar sırasında olmuşdur. İpəkdən toxunan parçalar Avropada qızıl qiymətinə satılırdı. İpəkdən çarşab, çecim, parça, kələğayı və s. toxunurdu ki, Azərbaycanın hər yerində olduğu kimi Şəkidə də bu toxuculuq sahələri geniş yayılmışdı.

İpək sapdan toxunan parçalara, baş örtüklərinə, digər geyim və məişət ehtiyaclarına tələbat gücləndikcə baramaçılıqla bərabər ipəkçilik də inkişaf edir. Onun emalında yeni üsullar, yeni istehsal münasibətləri yaranırdı. Bu ilk növbədə xam baramadan ipək sapı açılması kimi gecikdirilməsi mümkün olmayan bir işin vaxtında görülməsi ilə bağlı idi. Belə xam mal çox qaldıqda öz keyfiyyətini itirə bilərdi. Məhz bu səbəbdən də xalq baramının ilkin emalının qeydinə özü qalmağı, sövdəgarı, taciri, ipəkçiliklə məşğul olan xırda kustar sənaye sahiblərini gözləməyi üstün tuturdu. İpəkemalının texniki səviyyəsi aşağı olmasına baxmayaraq Şəki ipək ustaları yüksək keyfiyyətli ipək istehsal edirdilər.Təsadüfi deyildir ki, Şəki ipəyi Azərbaycan sərhədlərindən çox-çox uzaqlarda məşhur idi [7, s. 67].

Xam ipəkdən toxunan parçaların istehsalı ilə "Şərbaf" adı ilə tanınan peşəkar ustalar xüsusi şərbaf karxanalarında məşğul olurdular. Xam ipək toxuculuğunda dar peşə ixtasaslaşması nəticəsində basmaqəlib üsulu ilə əlavə bəzək vurulmuş kəlağayı istehsalı xüsusi ayrı istehsal sahəsinə çevrilə bilmişdi. Əsasən şəhər şərbafxanaları ilə bağlı olan və kişi məşğuliyyəti kimi təşəkkül tapan xam ipək toxuculuğundan fərqli olaraq keciməmulatı istehsalı ilə bilavasitə kümdar qadınlar məşğul olurdular.

Şərbafxanalarda bu sahənin sənətinə bələd olan şərbafın əməyi böyük idi. Burada onun bilavasitə nəzarəti ilə barama açılıb kələf çarxı üzərinə sarınması, xam ipək tellərini seçib yenidən günü üzərinə sarınması, ipək tellərinin toplanması, ara ipəyin sarınması, çillə çəkilməsi, çillənin bölünməsi, çillə taylarını nirə və şanaya düzülməsi, parçanın toxunması, boyanması və naxışlanması işləri görülürdü. Bu işlərlə mancanaqçı, nəqqat, tovçu, sarıyıcı, karatan, karaçı, tərrah, kargər, pəstəkar, boyaqçı məşğul olurdular. Bu əməliyyatları icra edənlərin hamısı peşəkar ustalar idilər. Hazır məhsulun tədarükü və satışı şərbafxana sahibi tərəfindən həyata keçirilidi[11, s. 123].

Keci toxuculuğu iləbaramaçılıqla daha çox kəndlərdə məşğul olurdu. Keci sap hazırlamaq üçün əsasən çıxdaş (tompal, çatal, kəpənəklənmiş, kəmsarıq) baramadan istifadə edilirdi [11, s. 123].

Cənubi Qafqazda uzun müddət ipəkçiliklə məşğul olmuş rus mütəxəsisi Mirimanov baramadan ipək tellərinin alınmasından bəhs edərək yazırdı: "Kül və ya sabun qarışdırılmış suda bişirilərək pilə halına salınan baramadan əl iyi ilə əyrilən keci sap ikiqat, üçqat və dördqat olmaqla kələflənərək yumaqlandıqdan sonra teşi və yaxud da cəhrədə bükdərilirdi. Kümdarlar arasında teşi vasitəsilə keci sapa tovvermə üsulu daha geniş yayılmışdı.Kecidən əsasən ev şəraitində cecim, tətinlik, xasqırmızı, aloyşa, alaca, çuxa, şalvar, köynək və s. məmulatlar toxunulurdu. Keci sapından həm də tikiş sapı kimi də istifadə etmək olurdu. Kecidən toxunmuş mallar yüksək keyfiyyətliliyi, yumşaqlılığı, möhkəm və davamlılığı ilə seçilirdi və onlardan 40-50 il istifadə etmək olurdu" [10, s. 94].

Xam ipək əldə etməyin ən sadə yolu isti suda isladılmış baramalardan üç və ya dörd tel ayıraraq ağac lövhəciyinin deşiyindən keçirməklə, çəkib dartmaqla onlardan xam ipək teli sarımaqdır. Bu üsulla sarınmış ipəkdən müxtəlif növ parçalar, o cümlədəncicim və çarşabtoxunurdu [11, s. 125].

Şəhər və kənd evlərində divar boyu uzadılmış dör döşəyi, nimdar, mütəkkə, balınc, puşti,
yataq döşəyi və yorğan üzü, taxta və camaxadan pərdəsi, yük örtüyü, buxarı qabığı, kərdək, canamaz, süfrə üçün ən yaxşı və münasib parça növü cicim hesab olunurdu. Cicim ipək parçasından köynək, şalvar, çuxa, arxalıq, qurşaq, patava kimi geyimlər hazırlanırdı. Cicim ipək parçasından həmçinin heybə, yəhər qaşı, ladı, kəpək kisəsi, duz kisəsi, qaşıqlıq və digər məişət ləvazimatları hazırlamaq olurdu. Xalis ipəkdən toxunmuş cicim parçadan hazırlanmış geyimlər və s. cah-cəlala bərabər tutulur və qiymətli ev əşyası hesab olunurdu [11, s. 126].

Nuxa şəhərində yüksək keyfiyyətli cicim toxunurdu. Burada cicim toxuculuğu ilə 25 usta məşğul olduğu məlumdur. Bu cür parçanın bir arşını bazarda 50 qəpiyə satılırdı [9, s. 383].

Cecimi qadınlar evdə toxuyurdular. Adətən tək toxunulduğu halda, ikiqat və mürəkkəb ornamentli cecim parça növlərinin toxunması zamanı toxucunun yanında ipək tellərini aralamaqla məşğul olan daha bir köməkçinin olması lazım gəlirdi [11, s.125]. Əvvəllər ipəkdən örtük (yorğan) hazırlandığı halda XIX əsrin 80-ci illərində buna tələbat azaldığından az hallarda toxunulurdu.

Dekorativ-tətbiqi sənət məhsulları içərisində özünün orijinal bəzək texnikasına görə kəlağayının xüsusi yeri var. Belə ki, bütün orta əsrlər boyu həm texnoloji, həm də məzmun etibarilə təkmilləşən və inkişaf edən kəlağayıçılıq sənəti XVIII-XIX əsrlərdə Azərbaycanda öz inkişafının ən yüksək mərhələsinə çatmışdır.

Əsrlərcə tarixi olan kəlağayının ərsəyə gəlməsi mürəkkəb proses olduğundan burada bir neçə peşə növünün nümayəndəsi - toxucu (tərrax) (kəlağayı toxuyan), boyaqçı (kəlağayını boyayan), qəlibçi (qəlibin köməkliyi ilə kəlağayıya müxtəlif naxışlar vuran), kəlağayıçı (ornamentalist sənətkar) iştirak edir. Çəkisi 125 qram olan, bir üzükdən keçə bilən bu unikal örtüyün boyanıb, naxışlanması iki gün çəkir və qəribə görünsə də, adətən bu qadın baş geyimi kişilər tərəfindən hazırlanırdı. Belə ki, qaynayan rənglərlə, qəliblə işləmək kimi çətin işin öhdəsindən yalnız kişilər gələ bilərdi [4, s. 191].

Kümdarların bir çoxunun evində sadə quruluşlu baramadan sap açmaq üçün "Ocaq baraması" adlanan primitiv qurğular olurdu. Ocaq baramasında ipəyin kələfləri çarxdan çıxarıldıqdan sonra onu davelçilərinə satır və ya öz davellərində sarıyaraq, qoşalaşdırıb istənilən yoğunluqda parça və ya kələğayı toxutmağa yararlı sap halına gətirilirdi. XIX əsrin ikinci yarısından başlayaraq

ipəkçilikdə baş verən güclü inkişaf Şəkini Şərqin iri baramaaçan ipək sapı buran, ipək parça və kəlağayı toxuculuğu, boyaqçılığı ilə məşğul olan mərkəzə çevirməsinə gətirib çıxardı. Nəticə etibarilə şəhər və kəndlərdə iri kümxanalar təmərküzləşmiş və mexanikləşdirilmiş baramaaçan, ipək buran, parça toxuyan, boyaq-bəzək vuran sexlərin və yaxud kiçik ölçülü fabriklərin sayı ildə-ilə artmağa başladı.

Davellər ən azı 40-50 kv. metr sahəsinə malik olan xüsusi iri otaqda yerləşirdi. Həmin otaqda mərrə və çillə adlanan kustar şəkildə hazırlanmış dəzgahlar olurdu. Mərrənin gövdəsi, çarxları, mağaralar qoyulmuş qovşağı yerli ağac materiallarından hazırlanırdı. Mərrənin oxuna çoxlu sapsarınma çarxları geydirilirdi və çarxlardan saplar lazımi sayda qoşalandırılaraq qarşıdakı mağaralara bərkidilir. Belə ardıcıllıqla çarxdakı kələfləri sapları mağaralara ilişdirilib qurtardıqdan sonra mərrənin anqırac adlanan dişli çarxlar və hərəkətedici qayışdar yerləşən hissəsi ayaq və ya əllə hərəkətə gətirildikdə çarxlar və mağaralar eyni sürət götürüb sapların çarxlardan mağaralara sarınmasını təmin edir. Fırlanmanın sürətindən asılı olaraq sapmağaralara sarındıqca həm eşilir və həm də burulurdu. Bununladatoxucu üçün lazım olan sapın hazır olmasının birinci mərhələsi başa çatırdı. İkinci mərhələ çillə hazırlayan dəzgahda tamamlanırdı. Mərrədə sarınan mağaralar çillə dəzgahının qovşağına keçirilirdi.Mağaradakısapların ucları qovşağın qarşısındakı mehpərə keçirilmiş, mexaniki yolla hərəkət edən, eni iki metrə, diametri isə bir metrə yaxın barabana (diyircəyə) çillənin (əricinosnovanın) lazım olan eninə uyğun ilişdirilirdi [8, s. 185].

Kəlağayı toxumaq məqsədilə hazırlanan çillə barabana sarındıqca toxuma prosesində sapların dolaşmaması üçün hər beş metrdən bir çillənin saplarıçarpaz bağlanırdı. Çillə barabanının iyirmi yeddi dəfə dövründən sonra toxucu dəzgahına salınmaq üçün çıxarılır, yenidən sarıma prosesi davam etdirilirdi.Kəlağayı toxumaq üçün hazırlanan çillələrin (əriclərin) eni kəlağayıların nəzərdə tutulmuş eninə müvafiq olaraq, çirtmə kəlağayıları üçün 80x80 sm, digər kəlağayılar üçün isə 120x120 sm, 140x140 sm, 160x160 sm enində hazırlanırdı. Çillətoxucu dəzgahlarında parçanın,
kəlağayının əsas sap qovşağını təşkil edir. Buqovşağın hazır məhsul halına salınması üçün dəzgahın sağa-sola hərəkət edən məkiki çillə saplarının bir gedişdə üstündən, qayıdışda isə altından hərəkət edir, beləliklə toxuma prosesində xam parça alınır. Beləparçalar boyadılır, güllənir və hazır məhsula çevrilirdi [8, s. 186].

Kəlağayının tarixi, Böyük İpək Yolunda şimalla cənub, qərblə şərq arasında əlaqələndirici hissə olan və əsrlər boyu ipəkçilik ölkəsi kimi məşhur olan Azərbaycanda ipəkçiliyin inkişaf tarixi ilə sıx bağlıdır.Şəki sənətkarlarının ipəkdən hazırladığı kəlağayılar həm yerli bazarlarda, xaricdə Rusiyada, Osmanlı dövlətlərindəsatılır, habelə Avropa bazarlarına yol açmışdı.Şəki

sənətkarları tərəfindən hər yaşa və zövqə uyğun kəlağayılar istehsal olunurdu.Bazarlarda daha çox qırmızı, ağ, palıdı, yerli, yelənli kəlağayılar satıldığından, ustalar məhz bu cür kəlağayıların istehsalına üstünlük verirdilər. Həmyerli kustar istehsala məxsus Gəncə, Şəki, Şamaxı, Basqalkəlağayılar, həm də gətirilmə kəlağayılar varlı qadınlarının gündəlik geyim dəstində, yoxsullarınisə bayramlq (boğçalıq) paltarları içərisində əsas yer tutudu. Adətən, təsəyin və ya çalmanın üstündən örtülən kəlağayının baça bağlamaqüçün onu diaqnol boyunca qırqac edir, uclarından birini sinə üstünəsərbəst buraxıb, digər ucunu sərbəst qalan qanadın üstündən kürəyəatırdılar. Kəlağayın kürəyə atılan qanadından yaşmaq kimi də istifadəedilirdi.

Kəlağayının naxışlanması üçün taxta və dəmirdən hazırlanmış xüsusi qəliblərdən istifadə edilirdi.Qəliblər hazırlanarkən milli ornamentlərə, xüsusilə buta formasında olan naxışlara üstünlük verilirdi. Kəlağayını naxışlayarkən müştərinin arzusuna uyğun qəliblərdən də istifadə edilirdi.

Kəlağayını boyamaq zərgər dəqiqliyi tələb edirdi. Ani bir səhv kəlağayını məhv edə bilərdi. Kəlağayınıboyamaq üçün xüsusi rənglər hazırlanırdı. Qırmızı, göy, yaşıl boyalara üstünlük verən Şəki ustaları lazım gəldikdə xüsusi boyalar da hazırlaya bilirdilər. Bu boya ilə başqa heç nəyi boyamaq mümkün deyildi. Rənglər üyüdülmüş sarağan ağacından əldə edilirdi. Belə ki, sarağan rənglərin qarışmasının qarşısını alırdı. Boyaq maddələri qədim ənənələrə əsaslanırdı.

Qədim ənənələrə malik olan Azərbaycan tikmə sənətinin təsvir vasitəsi olduqca zəngin və rəngarəngdir. Buraya müxtəlif növ sap, parça, muncuq, pilək və s. bədii materiallar daxildir. Tikmə sənətində ən çox rəngli ipək saplar işlədilir. Lakin keçmişdə bu məqsədlə qızıl və gümüşdən kəsilmiş incə tellərdən, ağac qabığı və fil sümüyündən hazırlanmış lövhəciklərdən, metal piləklərdən hətta qiymətli daş-qaşdan da geniş istifadə edilmişdir.

Xam baramadan hasil olan 19-20 dünya ipək sapı ən möhkəm və etibarlı sap hesab edilirdi. Belə sap toxuculuq üçün yaramırdı. Ocaq baramaaçma üsulu ilə alınan tel kələflərini sabunlu qaynar suda qaynatdıqdan sonra onu ev şəraitində cəhrədə əllə və hərəkət etdirilən mildə burduqdan sonra iynə sapı, boyadıldıqda isə təkalduz və digər bədii tikmələrdə istifadə etmək olurdu. Adətən, parça üzərindəki tikmələr və ya əl ilə düzmələr (buradan da "təkəlduz" - sözü əmələ gəlmişdir) öz təbiəti etibarı ilə yerliyi ağıryana olan parçaları sevir (məxmər, mahud, ipək parça) [2, s. 17].

Sənətkarlığın təkəlduzluq (paltar və ev şeyləriüstündə ipək sapla tikiş) sahəsi Azərbaycanda yalnızŞəkidə geniş yayılmışdı. Bu işlə əsasən kişilər məşğul olurdu. Busənətkarlar əsasən sifariş ilə işləyirdilər. Sifarişçi öz materialını təkəlduza verərək onun üstündə hansı naxışıtoxumasını tapşırırdı. Sənətkar sifarişçidən günəmuzd haqq, eyni zamanda işlətdiyi ipək sapın haqqını alırdı [7, s. 48].

XIX əsrdə Şəkidə mahud parça üzərində toxunmuş təkəlduz tikmə novü daha da inkişaf edərək digər sənət sahələrini üstələməyə başladı. Artıq şəhərdə 22 yəhər üzü bəzəyən, 50 başmaq üzü bəzəyən, 16 püstü (balış) üzü tikən dükan fəaliyyət göstərirdi. Şəki tikmələrinin Sankt-Peterburq, Moskva, Kiyev, Həştərxan və digər şəhərlərdə alıcıları var idi [5].

Şimali Azərbaycana səyahət etmiş Aleksandr Düma Şəki təkalduz ustalarının bədii tikmə sənəti sahəsindəki məharətinə heyranlığını gizlədə bilməyərək yazmışdır: "Şəkidə mən 24 rubla bədii tikməli 2 ədəd yəhər aldım. Belə yəhəri Fransada 200 franka da ala bilməzdim. Düzünü desəm, onu bizdə heç bir qiymətə tapmaq mümkün deyil" [1, s. 329].

Mənbələr göstərir ki, Aleksandr Düma Şəkidə olduğu vaxt burada 20-dən artıq təkəlduz emalatxanası mövcud idi. Burada həm təkəlduz məmulatları istehsal olunur, həmdə satılırdı. Hər emalatxanada 5-6 nəfər usta çalışırdı. Bu da təkəlduzluq sənətkarlığının əmtəə xarakter daşıdığını göstərir [3, s. 134-135].

Təkəlduz tikmədə iki sadə alətdən - qasnaq və qarmaqdan (qüllab) istifadə edilir. Hər hansı bir məmulata naxış saldıqda əvvəlcə parçanı qasnağa tarım çəkib onun üzərinə ikinci bir qasnağı kip otuzdururdular. Sonra parçanın üzərinə naxış konturları iynə ilə deşilmiş kağız qoyub, tabaşir tozu ilə naxışın rəddini məmulat və ya parçaya köçürürlər [12, s. 58].

Tikmə sənəti əsrlər boyu qadınların sevimli məşğuliyyəti olmuşdur. Yalnız xırda əmtəə istehsalı səviyyəsinə yüksələndən sonra onunla kişilər də məşğul olmağa başlamışdır. Bəhs olunan dövrdə tikmə sənəti əvvəlki mövqeyini itirir, güləbətin, pilək, zərənduz və s. tikmə növləri tədricən aradan çıxırdı. Lakin təkəlduz tikmə ənənələri hələ də davam edirdi. XIX əsrin birinci rübündə Şəkidə mahud parça üzərində müxtəlif rəngli ipək saplarla təkəlduz tikmə digər sənət növlərini kölgədə qoymuşdu.

XIX əsrdə tikmə sənətinin yaşanmasının əsas səbələrindən biri də tikmə məmulatlarının cehiz kimi qızlara verməkdən ibarət olmuşdur. Belə ki, bunun sayəsində bu sənət sahəsi yaşamaqda davam etmişdi. XIX əsrdə tikmə ustaları qanovuz, mahud, məxmər üzərində işləyirdilər. Parçalar əsasən tünd qırmızı, qara, yaşıl, sürməyi, zoğalı rəngdə olurdu. Çəhrayı və bənövşəyi rəngli məxmər parçalardan güləbətin tikmə üçün "yerlik" götürülürdü. Varlılar isə misqalı tirmə üzərində güləbətin sapla naxış tökürdülər. İncəlik bu sənətin əsas xüsusiyyətlərindən biridir. Nuxalıların naxış tikməsi zəngin rəng çalarları, şəkillərin ornamentliliyi ilə diqqəti cəlb edir [12, s. 59].

Güləbətin işləmə hamar və qabarıq olmaqla iki cür hazırlanırdı. "Zəminduzi" adlanan hamar tikmə texnikası ilə məmulatı bəzəmək üçün düzbucaqlı çərçivəyə bənzər taxta kargah (dəzgah) və iynədən istifadə edirlər. Müvafiq parça kargaha tarım çəkildikdən sonra, onun üzərinə kağızdan kəsilmiş naxış motivləri(eskiz) qoyub əvvəlcə adi sapla, sonra isə zərli və ya gümüşü (güləbətin) saplarla paralel surətdə bənd edilirdi. Güləbətin tikmədə işlənən

qızılı və gümüşü tellər ya xalis halda, ya da ipək, yaxud iplik sapa sarınıb istifadə olunurdu. Saplar metal tellərin rənginə uyğun seçilirdi. Zəruri elastikliyi əldə etmək məqsədilə, tellər xüsusi simkeşlər tərəfindən yüksək əyarlı gümüşdən hazırlanırdı. Qızıl tel almaq üçün gümüşü qızıl suyuna salırdılar. Güləbətin tikmələrin parlaqlığını, naxışların qabarıqlığını artırmaq məqsədilə tünd yerlikdən istifadə olunurdu[6]**.**Şəki güləbətini Cənubi Qafqazda ən yaxşı güləbətin hesab olunurdu. Güləbətin naxışlı paltarın qiyməti, naxıxışların işlənmə səviyyəsindən asılı olaraq 6-15 rubl olurdu. Belə naxışlı paltarlara Cənubi Qafqazda böyük ehtiyac olduğundan tez də satılırdı. XIX əsrin 30-cu illərində 2 700 rublluq güləbətinin satıldığı məlumdur [9, s. 383, s. 385].

"Məlihəduz" adlanan qabarıq tikmə növü "örtmə" tikiş üsulu ilə yerinə yetirilirdi. Bu zaman saplar bir-birinin yanına paralel və çox sıx bəndlənirdi. Güləbətin tikmənin bu üsuluna haşiyə bəzəyində daha çox müraciət olunurdu. Tikiləcək naxışların seçilmiş parçanın özərində bir qədər qabarıq alınması üşün qalın sap və qaytandan istifadə edilirdi.

XIX əsr Azərbaycan milli geyimlərinin get-gedə dəyişməsi və sıradan çıxması ilə səciyyələnir. Gündən-günə öz simasını itirmiş köhnə libaslar Rusiyadan gətirilmiş ucuz parçalarla əvəz olunurdu. Buyeni, sadəbiçimli, bərbəzəksiz paltarlar get-gedə məişətə daxil olurdu ki, bu da tədricən qəzalara, oradan dakəndlərə yayılaraq bütünlüklə milli geyimin sıradan çıxmasına səbəb gətirib çıxarırdı. "Bu surətlə, Rusiya kapitalizmi Qafqazı dünya əmtəə tədavülünə cəlb edirdi, onun yerli xüsusiyyətlərini -qədim pədərşahi qapalılıq qalıqlarını aradan qaldırır və öz fabrikləri üçün özünə bazar yaradırdı. İslahatdan sonrakıdövrün əvvəllərində əhalisi az olan və ya əhalisi dünya təsərrüfatından və hətta tarixdən də kənarda qalmışdağlılardan ibarət olan bir ölkə - neft sənayeçiləri, şərab alverçiləri, buğda və tütün fabrikçiləri ölkəsinə çevrilirdivə rəhmsiz Kupon cənabları məğrur dağlının şairanə milli paltarını soyundurub ona avropalı bir lakey paltarıgeydirirdi" [2, s. 17].

Beləliklə, Şəkidə geniş şəkildə istifadə olunan ipək toxuculuğunun inkişaf tapması burada ipəkçiliyin inkişafı ilə bağlı olmuşdur. XIX əsrin sonlarında Şimali Azərbaycanda kapitalizmin inkişaf etdiyi bir dövrdə diyarın özündə, o cümlədən Şəkidə istehsal olunan ipəyin imperiyanın ipək toxuculuğu sənayesinə, ayrı-ayrı fabriklərə daşınması əl əməyinə əsaslanan sənət sahələrinə böyük zərbə vurmuş oldu. Lakin bununla belə Şəkidə ipək toxuculuğu sahəsi yaşadılırdı.

## ƏDƏBİYYAT


1. Əsədova N. Şirvanda kəlağayi sənəti - Milli Azərbaycan Tarixi Muzeyində qorunan materiallar əsasında // Müasir Azərbaycandan tarixi Şirvanşahlar dövlətinə səyahət. Beynəlxalq elmi konfransin materialları. 23-24 oktyabr 2018-ci il. Memarlıq, Arxeologiya, Etnoqrafiya, Epiqrafika, Numizmatika, Tarix, Fəlsəfə, Ədəbiyyat. Birinci hissə. Baki, 2018, s. 186-193.
2. Fərəcov S. Əsrləri aşan tikmə sənəti // "Mədəniyyət" qəzeti, 23 noyabr 2018-ci il.
3. Fərəcov S. Lifli rəssamlıq sənəti: tikmələr // "Mədəniyyət" qəzeti, 28 yanvar 2011-ci il
4. Əfəndi R. Azərbaycan incəsənəti. Bakı: Şərq-Qərb, 2007, 160 s.
5. Əfəndiyev R. Azərbaycanın maddi mədəniyyət nümunələri. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1960, 34 s.
6. Дюма А. Кавказ. Перевод с французского. Тбилиси: Мерани, 1988, 647 с.
7. İsmayıl M., Bağırova M. Şəki xanlığı. Bakı: Azərnəşr, 1997, 76 s.
8. Quliyeva N. Şəki kəlağayı istehsalının xüsusiyyətləri // Tarix və onun problemləri, 2013, №3, s. 185-189
9. Легкобытов В.С. Обозрение Российских владений за Кавказом в статистическом, этнографическом, топографическом и финансовом отношениях. Часть 3. СПб.: Типография департамента внейней торговли, 1836, 397 с.
10. Мириманов Г.Н. Кустарные шелковые промыслы в Шушинском уезде // Труды КШС, т. 8, Тифлис: 1896.
11. Описание Кавказского шелководство // Сборник материалов для описания местностей и племён Кавказа. Выпуск XI. Тифлис: Типография канцелярии Главнончальствующего гражданскою частью на Кавказе, 1891, отдел II.
12. Пикулев И. Нухинское искусство вышивки // Народное творчество, 2007, № 5. с.58-59.

**UOT 94**

# TARİXİN TƏDRİSİ PROSESİNDƏ MƏNƏVİ DƏYƏRLƏRİN AŞILANMASI

***Şəhla Rafiq qızı Məmmədli***
***İlham Yaqub oğlu Həsənov***
***AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu***
*shahla.mamedli@gmail.com*
*ilham.hesenov60@mail.ru*

**Açar sözlər:** *tarix dərsləri, mənəvi dəyərlər, mənəvi münasibətlər, tarixi şəxsiyyətlər, tərbiyə üsulları*

*Dəyərlər, onların dərk edilməsinə diqqət tarixin dönüm nöqtələrində xüsusi əhəmiyyət kəsb edir. Müasir dünyamızda dəyərlərə müraciət təhsil sahəsində dövlət siyasətinin mühüm prinsiplərindən olmalıdır. Tarixin tədrisində yeni forma və üsulların tətbiqi bu gün qanunayğun olmaqla yanaşı, həm də zəruridir. Təhsilin humanistləşməsi şəraitində tədris daim dəyişən dünyada yaşamağa və işləməyə hazır olan güclü şəxsiyyət yaradılmasına yönəldilməlidir.*

*Tarix dərsləri tələbələrin şəxsiyyətində bir çox müsbət keyfiyyətlərin yaranmasına təsir edir. Tarixin tədrisi tələbələrdə vətəndaşlıq, vətənpərvərlik kimi keyfiyyətlərin tərbiyə edilməsi üçün dəyərli imkanlar verir.*

# ВОСПИТАНИЕ НРАВСТВЕННЫХ ЦЕННОСТЕЙ В ПРОЦЕССЕ ПРЕПОДАВАНИЯ ИСТОРИИ

***Шахла Маммедли, Ильхам Гасанов***

**Ключевые слова:** *уроки истории, духовные ценности, моральные отношения, исторические личности, методы воспитания*

*В плане воспитания духовно-нравственной личности урок истории обладает наибольшими возможностями. Настоящее воспитание историей, это представление ученику реальных возможностей примерять на себе исторические роли. На уроках истории внимание учащихся привлекается к важным вопросам самоопределения личности, к проблемам нравственного выбора. Урок нужно организовать таким*

*образом, чтобы учащиеся постоянно оказывались в ситуации решения вопроса о том, как отнестись к данному историческому событию. Определяя значение данного события, ученик проводит фактический анализ.*

## EDUCATIONOFTHEMORALVALUESINTHEHISTORYCURRICULA

***Shahla Mammedli, Ilham Hasanov***

**Key words:** *history lessons, spiritual values, spiritual relations, historical personalities, method of education*

*Values and their understanding become more crucial in the turning points of history. To refer to the modern approaches and technology in the teaching of history is necessary and logical. Studying history students able to track destiny of history makers, at the same time enrich their natural and spiritual world. Sometimes learning history of political characters students compare their life with the life of heroes of history, try to understand their motives and aims in different historical situations. As a philosophical problem the role of personalities in history is an important issue.*

Böyüməkdə olan nəslin tərbiyəsi bütün xalqlar və dövlətlər üçün son dərəcə aktual hesab edilir. Şəxsiyyətin tərbiyəsi prosesində mənəviyyatın doğru istiqamətdə formalaşması müstəsna əhəmiyyətə malikdir. Tarix fənni bu mənada mənəvi dəyərlərin formalaşması prosesində bilavasitə iştirak edir. Bu gün tarix fənni üzərinə xüsusi missiya düşür ki, bu da zəngin mənəviyyata malik şəxsiyyət yetişdirmək, ölkəsinə gərəkli vətəndaş hazırlamaqdan ibarətdir. Mənəviyyatı zəngin insan xeyirxahlığın, həqiqətin humanist dəyərlərini özündə əks etdirən, öz xalqının mədəniyyətini dərindən mənimsəyən, yaşadığı dünyaya qayğı ilə yanaşan vətəndaşdır. Tarix dərsləri şagird və tələbələrin mənəvi tərbiyəsi üçün geniş imkanlar açır. Bu dərslər onlarda vətənlərinin taleyinə məsuliyyət hissi formalaşdırır, həmvətənləri ilə fəxr etmək, ümuminsani dəyərləri anlayaraq mənimsəmək, bu və ya digər tarixi və ya siyasi hadisəyə şəxsi münasibət müəyyən etmək imkanı verir. Tarix dərsləri şagird və tələbələrdə onları əhatə edən dünyanı görərək dərk etmək, bu dünyada düzgün istiqamət tutmaq, öz rolunu və missiyasını anlamaq, hərəkətlərinin məqsəd və mahiyyətni doğru yönləndirmək, dəyərlərlə bağlı lazımi qərarlar qəbul etmək vərdişlərini inkişaf etdirir. Mənəvi tərbiyə humanitar təhsilin əsasıdır və tarix fənni şəxsiyyətin mənəvi tərbiyəsi sistemində mühüm yer tutur.

Tarixi irslə tanışlıq, sələflərinin təcrübəsini öyrənmək, ayrı-ayrı xalqların və şəxsiyyətlərin mənəviyyat təcrübəsini təhlil edərək bunları öz həyatında tətbiq etmək mənəvi mədəniyyətin formalaşmasına xidmət edir. Tarix

dərslərində müəllim mənəvi tərbiyənin mənəviyyat, əxlaq, etnik mədəniyyət, şəxsiyyət kimi mühüm elementlərini inkişaf etdirə bilər. Bu prosesdə tarixi tədris edən öz dəyərlərini biruzə vermədən, şagird və tələbələrə istiqamətverici mövqe tutmalıdır. Fikrimizcə, tarixçi tədris prosesində aşağıdakılara diqqət yetirməlidir:

1. Özünüdərketməni inkişaf etdirməlidir
2. Insanın tarixən dəyişkən olduğunu çatdırmalıdır
3. Istənilən tarixi dövrün ayrıca bir dəyər və bənzərsiz olduğunu anlatmalıdır.

Tarix müəllimi ilk növbədə anlatmalıdır ki, hər dövrün insanlarının özəyi mövcuddur və bu özək də müxtəlif sivilizasiyalara aid dəyərləri yaradır. Bu cür özək hər insanda var. Şəxsiyyətin dəyərləri bu özəkdir və dövrə uyğun ola da bilər, olmaya da bilər. Tarix birdir, ona verilən qiymət isə minlərlədir. Tarix deyil, ona verilən qiymət dəyişir.

Tarixlə tərbiyə şagird və tələbələrin mənəvi-əxlaqi keyfiyyətlərinin əsas tərkib hissəsi olmalıdır. Bu məqsədlə müəllim hər dərsdə materialla bağlı mənəvi tərəflərə diqqət yetirməlidir. Şagird və tələbələrdə hər zaman mənəviyyatla bağlı düşünmə həvəsi yaratmaq asan məsələ deyil, lakin müəllim arzuolunan nəticə əldə etmək üçün tez-tez mənəvi mahiyyətli hadisələri diqqət mərkəzində saxlamalıdır. Keçmişin dəyərlərini, müxtəlif tarixi dövrlərdə yaşayan insanların mənəvi problemlərini öyrənən tələbələr öz davranışlarına, digər insanların hərəkətlərinə də qiymət verməyə başlayırlar, fəaliyyət motivlərini fərqləndirir, şəxsi keyfiyyətlərə diqqət yetirirlər. Bütün bunlar mənəvi ideALların formalaşmasına kömək edir [4,21]. Mənəvi-əxlaqi tərbiyənin mənbəyi olaraq dini irs və xalqın mədəniyyəti mühüm əhəmiyyət kəsb edir. Ümumiləşdirilmiş mənəvi keyfiyyətlərə bir çox digər mənəvi keyfiyyətlər də daxildir:

1. İntizam və məsuliyyət
2. Xeyirxahlıq və nəzakət
3. Əməksevərlik , düzgünlük və s.

Mənəvi münasibətlərin özünəməxsusluğu mənəvi tərbiyəyə müstəsna əhəmiyyət bəxş edir. Mənəvi münasibətlər geniş planda insana münasibəti, yəni şəxsiyyətin bütün sosial münasibətlərini: siyasi, hüquqi, estetik, elmi, ekoloji və ictimai həyatın digər sahələrini əks etdirir. Sosial mədəniyyətin inkişafı həyatın bütün sahələrində və insanlarla münasibətdə biliklərlə zənginləşməkdən başqa, insanda ictimai xüsusiyyətlərin də inkişafına, insan fəaliyyətinin yüksək anlamda qavranımına, cəmiyyətə aktiv xidmətə, humanist ideallara, hərəkətlərin sosial dəyərlərə uyğunlaşdırılmasına da təsir etmiş olur. Mənəvi tərbiyə vasitələri bunlardır:

1. təhsil
2. müəllimin şəxsi nümunəsi
3. inandırma

4. şagird və tələbələrlə münasibət qurmaq bacarığı (pedaqoji takt)
5. xəbərdarlıq, təqdiretmə və cərimə tədbirləri

Göstərilən üsulların tətbiqi şagird və tələbələr tərəfindən dərsin qavranımına, humanist ideallara, hərəkətlərin sosial dəyərlərə uyğunlaşdırılmasına da təsir etmiş olur. Bunun nəticəsi olaraq, cəmiyyətə aktiv xidmətə hazır nəsil yetişir. Tələbələrin mənəvi-əxlaqi sahəsi müəllim tərəfindən son dərəcə ehtiyatlı və taktik hərəkətlər tələb edir. Tərbiyə olunanın ruhun sağlamlığı əhəmiyyətli dərəcədə məhz bundan asılıdır. Bu vacib məqamı nəzərə alaraq bir çox alim və tədqiqatçıların diqqəti şagird və tələbələrin mənəvi-əxlaqi tərbiyəsi metodları və mexanizmlərinin araşdırılmasına yönəlmişdir. Metodlar içərisində adekvat emosiyaların oyandırılması, dəyərlərin vurğulanması və fərqləndirilməsi təklifləri var. Bu metodların müəyyən ardıcıllığı dəyərlərin mənimsənilməsi, onların emosional qəbulunu, şəxsiyyət tərəfindən dərk edilərək dəyərlər sırasına salınması mexanizmini işə salır. İnandırmaq, aşılamaq, bənzətmək, uyğunlaşdırmaq və s.mexanizmlərdən istifadə edilməlidir. Bunları bilərək hesaba qatmaq şagird və tələbələrin mənəvi-əxlaqi tərbiyəsi prosesini daha təsirli edə bilər. Mexanizmlərin seçilməsində şagird və tələbələrin yaşı, pedaqoqun məharəti, tərbiyənin real prinsipləri nəzərə alınmalıdır. Tədqiqatçı Kadir Ulusoy göstərir ki, şagird və tələbələrə aşılanacaq hər hansı davranış həm ənənəvi, həm də demokratik qaydalara uyğunlaşdırılmalı və günün tələbləri də nəzərə alınmalıdır [1,36].

Vətənpərvərliyin tərbiyəsi, tarix dərslərində vətənə təmənnasız, fədakar sevgi aşılanması mənəvi tərbiyə sistemində əsas yer tutur. Qeyd edək ki, şovinizm və digər xalqlara nifrət müqəddəs hiss olan vətənpərvərliklə qəti olaraq əlaqəli deyildir. Vətən tarixinin tədrisində şagird və tələbələrin öz ölkələrinin qəhrəmanlıq səhifələri ilə, görkəmli xadimləri ilə tanışlığı mühüm məqamdır və dərin vətənpərvərlik hissinin aşılanmasında təsiredicidir.

Mənəvi tərbiyə cəzavermə tədbirləri üzərində qurula bilməz. Bu halda şagird və tələbələrin şüurlu fəaliyyəti və iradəsi zədələnir, riyakarlıq və aldatma inkişaf edir. Eyni zamanda, avtoritar əsaslarla, sözlə təzyiq etməklə ruhunu yaralayaraq mənəvi tərbiyə vermək olmaz. Mənəviyyat özündən böyük yoldaşlarla qarşılıqlı sevgi, bir-birini anlama, birgə şüurlu fəaliyyət nəticəsində inkişaf etdirilir. Müəllim dərslərdə eqoizm, mənsəbpərəstlik, riyakarlıq, məkr və sairə bu kimi mənfi xüsusiyyətləri pisləməlidir. Şagird və tələbələr üzərində nümunə xüsusilə böyük təsirə malikdir. Müəllim və valideynlərin mənəviyyat nümunəsi tədris prosesində tarix dərsləri, həmçinin ədəbiyyat və digər fənlərlə tamamlanaraq gənc nəslin düzgün mənəvi ideallarının formalaşmasına yardım edir.

Tarixi tədris edən müəllim şagird və tələbələrinin millətlərarası insani münasibətlərdə doğru mövqe tutmasına təsir etməlidir. Belə ki, bir çox ölkələrin

iqtisadi və siyasi həyatında baş verən dəyişikliklər çoxmillətli dövlətlərin millətlərarası münasibətlərində də özünü biruzə verir. Millətlərarası münasibət mədəniyyəti şagird və tələbələrin ümumi səviyyəsindən, imüminsan və mənəviyyat normalarını qəbul edib onlara riayət etmək bacarığından asılıdır. Aydındır ki, millətlərarası ünsiyyət mədəniyyətinin əsasında humanizm, etibarlıq, bərabərhüquqluq və əməkdaşlıq durur [6]. Millətlərarası ünsiyyət mədəniyyətinin tərbiyəsi prosesi bir çox nühüm məqamları əhatə etməlidir ki, bunların da içərisində böyüməkdə olan nəslin insan hüquq və azadlıqları barədə elmi biliklər sistemi ilə tanışlığı, millətlər, onlar arasındakı münasibətlər, irqlər, dini konfessiyalar, vətəndaş və ümuminsan hisslərinin, şüurunun formlaşması barədə biliklər vacibdir. Tarixçinin vəzifəsi tədris etdiyi fənn köməyi ilə mənəvi keyfiyyətlərin formalaşmasına yardım etmək, öz dəyərlərini məcburi qəbul etdirməkdən çəkinərək, şagird və tələbələri istiqamətləndirmək, tarixi faktlara dəyər verə bilmək bacarığı ilə silahlandırmaqla mənəvi inkişaflarına təkan verməkdir.

Tarixi materiala dayaqlanaraq müəllim tarixi şəxsiyyətdə, insanda olan müsbət keyfiyyətləri önə çıxarmalı, mənəvi dəyərlərin mahiyyət və məzmununu açmalı, bununla belə tarixin mənfi təcrübəsini də inkar etməməlidir [3,27]. Bu gün müxtəlif sivilizasiyalara münasibətdə tolerantlığın tərbiyəsi xüsusilə aktualdır. Suxomlinskiyə əsasən, tarix dərslərində mənəvi dəyərlər tərbiyəsinin aşağıdakı mərhələlərini diqqətə almaq doğru olardı [7, 78-79]:

1. aksioloji - şagird və tələbələrin yüksək dəyərlərə müraciəti;
2. qnoseoloji - şagird və tələbələrin yüksək dəyərləri dərketmə prosesinə daxil edilməsi;
3. kognitiv - şagird və tələbələrin yüksək dəyərlər prizmasından özlərini və öz imkanlarını dərk etmələri;
4. oryantasyon– insanın dünyaya, başqalarına, özünə münasibətini müəyyən edən mənəvi çəgirdəyinin aşkar edilməsi;
5. resultativ -insanın "mən" strukturunun yaranması mexanizmi.

Mənəvi tərbiyə müxtəlif üsullarla olmalıdır və bunlardan biri müəllimin öz şəxsiyyəti ilə tərbiyələndirməsidir. Rus tarixçisi V.O.Klyuçevskiy deyirdi ki, tədris etdiyin fənni də , öyrətdiyin insanı da sevməlisən. Pedaqoq dərslərində müsbət tərəflərinin maksimum açılmasına nail olmalıdır [5,63]. Müəllim söylədiyinin sadəcə qəbul edilməsinə deyil, araşdırılaraq qəbul edilməsinə çalışmalı, problem situasiyalarda xüsusi texnikadan istifadə etməlidir. Məsələn, "Rusiyanın paytaxtı nədən Moskvadır?", "Türkiyənin paytaxtı nədən Ankaradır?" və s. kimi sullar üzərində çalışan şagird və tələbələr əlavə materiallar araşdıraraq, fərqləndirmə aparırlar, nəticə çıxarırlar. Problemin müstəqil araşdırılması şagird və tələbələri mənəvi baxımdan tərbiyələndirir, özlərini tədqiqatçı hesab edirlər, qüvvələrini sınayırlar, tarixi problemlərdə özlərinə inam əldə edirlər. Tədris materialı əsasında tərbiyə də mənəvi tərbiyə yolunda

bir vasitədir [7, 201]. Düzgün seçilmiş tarixi faktlar, insanların hərəkətləri barədə və keçmiş dövrlərdə tarixi hadisələr barədə tərbiyəvi əhəmiyyətli məlumatlar tarix dərslərində mütləq olmalıdır. Material əsasında müəllim xalqların, dövrlərin, şəxsiyyətlərin mənəvi təcrübə dəyərlərini göstərməlidir.

Dərs materialına əsaslanaraq müəllim mənəvi arama məqsədi daşıyan müxtəlif tapşırıqlar verməlidir. Məsələn, "Çingizxan, Napoleon, Hitler görkəmli adamlardır, yoxsa qatildirlər?" "Bu müharibədə siz kimin tərəfində olardınız?", "Üsyançılara qoşulardınızmı?" Bu kimi suallara verilən cavablar şagird və tələbələrin mənəvi mövqelərini biruzə verir. Müxtəlif tarixi rollar çərçivəsində şagird və tələbələr özlərini bu və ya digər tarixi dövrdə hiss edirlər. Məsələn, söhbət Birinci Dünya Müharibəsindən gedirsə,tələbələr tarixin ağır məqamlarında yaşayan insanların faciəsini anlamağa çalışırlar. A.Makedonski, II Mehmet C.Kennedi, M.Qandi, M.K. Atatürk. İ.Stalin, O.Bismark və bir çox tarixi şəxsiyyətlərə şagird və tələbələr tərəfindən mənəvi dəyər verilməsi də hər zaman diqqət mərkəzində olmalıdır. Tarix dərslikləri şagird və tələbələrdə mənəvi dəyərlərin formalaşdırılması istiqamətində hazırlanaraq aşağıdakı məsələlərin həllinə yardım etməlidir:

- şagird və tələbələrdə ölkəsinin taleyi üçün məsuliyyət hissini formalaşdırmaq;
- vətənə məhəbbət, həmvətənliləri ilə qurur duymaq hissini aşılamaq;
- şagird və tələbələrin ümuminsan mənəvi dəyərlərini dərk edərək qəbul etmələrinə nail olmaq;
- şagird və tələbələrdə bu və ya digər tarixi və siyasi hadisələrə şəxsi münasibət formalaşdırmaq.

Humanitar fənn olaraq tarix fənninin vəzifəsi xalqların tarixi təcrübəsi ilə tanışlıq əsasında mənəvi keyfiyyətlərin formalaşmasına təsir etməkdir. Mənəvi mədəniyyət mənbələri olaraq bunlara diqqət yetirmək lazımdır:

- görkəmli mütəfəkkirlərin (yerli və xarici) əsərləri;
- xalq pedaqogikası;
- dini təlimlərin (dastan, nağıl, əfsanə) mənəvi tərəfləri
- mənəvi ideallarınəks olunduğu incəsənət əsərləri

Tarixi material dərsdə şagird və tələbə tərəfindən şüurlu surətdə, ürəkdən qəbul edilməli, formalaşmaqda olan dəyərlərə, etnik və mənəvi mədəniyyətə təsir göstərməlidir [8,102]. Dərsin tərbiyəvi əhəmiyyəti aşağıdakı nəticələrə gətirməlidir:

- hər bir tarixi dövrün malik olduğu mənəvi dəyərlərin mahiyyət və məzmununu müəyyən etməyi öyrənmək (xeyir və şər nədir və tarixin müxtəlif dövrlərində onlar haqqında təsəvvürlər necə dəyişmişdir, hansı dövrlər mənəvi inkişaf istiqamətini tutmuş, hansı mərhələdə maddi dəyərlərə üstünlük

verilmişdir, hansı sivilizasiyalar zamanın sınağından çıxa bilməmiş və nə üçün zəif olmuşdur və s.) ;

- yüksək dəyərlərə müraciət etmək (igidliyə, qardaşlığa, sevgiyə,), eyni zamanda tarixin acı təcrübəsini də göstərmək;
- müxtəlif sivilizasiyalara münasibətdə onların dəyərlərinə tolerant yanaşma formalaşdırmaq

Tarix dərsləri əvvəlki dövrlərin mühüm hadisələrini yaşayaraq dərk etməyə, keçmişin bütün müsbət tərəflərindən istifadə etməyə xidmət etməlidir. Belə ki, sağlam cəmiyyətin maddi və mənəvi dəyərləri bilən nəsil yetişdirmək arzusu daim olacaq [8, 94]. Bununla yanaşı, keçmişi ideal olaraq qəbul etmək də doğru sayılmaz. Sələflərimizin həyatında mənfi tərəflər də az olmamışdır. Tarixi öyrənmək də bizə keçmişdə mənfi olanı dəf etməkdə yardım edir.

Hökmdarların fəaliyyətinə həsr olunmuş dərslərdə məsələn, "siz xeyirxah məqsədləri olan, lakin islahatları ilə ölkədə qarışıqlıq yaradan tarixi şəxsiyyət barədə nə deyə bilərsiniz?", "fəaliyyəti müsbət nəticələr verən, lakin qəddar üsullarla buna nail olan tarixi şəxsiyyət barədə fikriniz nədir?" kimi sualların müzakirə olunması son dərəcə müsbət nəticələr verir. Şagird və tələbələr bu suallara müxtəlif cavablar verərək, mənəvi dəyərlərini inkişaf etdirirlər. Tarix dərslərində öyrədilənə özünü tarixi rolda görmək imkanı vermək onun özünütərbiyəsinə, materialı daha yaxşı qavramasına təsir edir. Tarix dərslərində şagird və tələbələr tarixlə tərbiyə olunmalıdır. Öyrədilənlər anlamalıdırlar ki, tarix ilk növbədə onlara kor olmamağı, siyasətçilərin əlində oyuncağa çevrilməməyi öyrədir. Şagird və tələbələr gözəl şüarlar və sözlər arxasında əslində kimin olduğunu anlamalı, onun əsl məqsədlərini dərk edərək şüurlu qərarlar qəbul etməlidirlər [2,45]. Tarix dərslərində müəllim əvvəlki dövrlərin insanlarına hörmət, əxlaqi dəyərləri qoruyan və inkişaf etdirən, vətəndaşlıq hisslərini tərbiyə edən şəxsiyyətlər yetişdirir [3,18]. Yüksək mənəvi dəyərlərə malik insan yetişdirmək asan deyil, lakin buna valideynlərin, müəllimlərin, pedaqoqların birgə səyi nəticəsində nail olmaq mümkündür.

## ƏDƏBİYYAT

1. Ulusoy K. Trakya Üniversitesi Sosyal Bilimler Dergisi. 2010 iyun, cild 12 № 1, s. 32-51

2.Dilmaç B. İlköğretim Öğrencilerine İnsani Değerler Eğitimi Verilmesi ve Ahlaki Olgunluk Ölçeği İle Eğitimin Sınanması, Yayınlanmamış Yüksek Lisans Tezi. Marmara Üniversitesi. Eğitim Bilimleri Enstitüsü. 1999.

3.Hoca S. R. Tarih Felsefesi Bağlamında Türkiye'de Tarih Eğitimi ve Uygulanan Politikalar, Yayımlanmamış Yüksek Lisans Tezi, Ankara Üniversitesi, Sosyal Bilimler Enstitüsü,1995.

4. Зенченко, Е. В. Патриотическое воспитание на уроке истории и во внеурочное время. Эксперимент и инновации в школе2015, № 2. s. 20–23
5. Гуревич А. Вдохнуть в историю душу: лекция о средневековой культуре. Лицейское и гимназическое, 1999. № 6.s.56-64
6. Медведева. Е. А. Формирование ценностных ориентаций учащихся в процессе преподавания истории http:// festival.1 september. ru/articles/ 514031.
7.Сухомлинский В.А. Как воспитать настоящего человека: М.,1990, 288 s.
8. Шемшурина А.И. Основы этической культуры. М., 2001,111 s.

**UOT 94(479.24)**

# ŞİMALİ AZƏRBAYCANDA TAXILÇILIQ
## (XIX əsrin ikinci yarısı-XX əsrin əvvəlləri)

***Rəsmiyyə Mürsəl qızı Məmmədova***
***Azərbaycan Dövlət İqtisad Universiteti***
*resmiyye.memmedova18@mail.ru*

**Açar sözlər:** *Şimali Azərbaycan iqtisadiyyatı, Çar Rusiyası, kapitalist münasibətləri, taxılçılıq, kənd təsərrüfatı*

*XIX əsrin II yarısı - XX əsrin əvvəlləri Şimali Azərbaycanın sosial-iqtisadi inkişaf tarixində çox mühüm, mahiyyətcə yeni bir tarixi mərhələni təşkil edir. Bu tarixi mərhələnin əsas xüsusiyyətlərindən biri Şimali Azərbaycan iqtisadiyyatında kapitalist münasibətlərinin sürətli inkişaf yoluna qədəm qoymasından ibarətdir. Şimali Azərbaycan iqtisadiyyatında kapitalist münasibətlərinin meydana çıxması hələ XIX əsrin I yarısından başlasa da, onun kənd təsərrüfatına nüfuz etməsi XIX əsrin II yarısına təsadüf edir. Şimali Azərbaycanın kənd təsərrüfatında əkinçiliyin mühüm sahəsi taxılçılıqdan ibarət idi. Tədqiqatçıların hesablamalarına görə, Şimali Azərbaycanda yığılan dənli bitkilərin məhsulunun təxminən 95%-ni buğda, arpa və düyü təşkil edirdi.*

## ЗЕРНАВОДСТВО В СЕВЕРНОМ АЗЕРБАЙДЖЕ
## (во второй половине XIX-в начале XX века)

***Расмия Мамедова***

**Ключевые слова:** *Экономика Северного Азербайджана, Царская Россия, капиталистические отношения, зерноводство, сельское хозяйство*

*Во второй половине XIX и в начале XX века сельское хозяйство было основным сектором экономики Северного Азербайджана. Большая часть обрабатываемых земель в Азербайджане были засеяны зерновыми культурами. И этот продукт полностью отвечал потребностям населения региона. Российская империя оказала очень серьезное влияние на все сектора экономики, включая сельское хозяйство. Важной областью сельского хозяйства на севере Азербайджана было зерноводство. По*

*оценкам исследователей около 95% зерновых, собираемых в Северном Азербайджане составляли пшеница, ячмень и рис.*

## GRAINING IN NORTHERN AZERBAIJAN
## (in the second half of the XIX-at the beginning of the XX century)

***Rasmiyya Mammadova***

**Key words:** *The economy of northern Azerbaijan, tsarist Russia, capitalist relations, grain production, agriculture*

*In the second half of the 19th and the beginning of the 20th century, agriculture was the main sector of the economy of Northern Azerbaijan. Most of the cultivated land in Azerbaijan was sown with crops. And this product fully met the needs of the population of the region. The Russian Empire had a very serious impact on all sectors of the economy, including agriculture. An important area of agriculture in the north of Azerbaijan was grain growing. According to researchers, about 95% of the grain harvested in Northern Azerbaijan was wheat, barley and rice.*

XIX əsrin II yarısında çar Rusiyasının Şimali Azərbaycanda kommunikasiya xətlərinin bərpası və tikintisinə diqqəti artırması, yeni şose yollarının, çay və dəniz gəmiçiliyinin inkişafına, xüsusilə də dəmir yolu xətlərinin çəkilməsinə diqqəti artırması, 1883-cü ildə Cənubi Qafqaz dəmir yolunun Bakı-Tiflis, 1900-cü ildə isə Vladiqafqaz dəmir yolunun Bakı-Petrovsk [11] xətlərinin işə salınması nəticəsində Şimali Azərbaycanın ümumrusiya və dünya bazarlarına cəlb edilməsi prosesi daha da gücləndi. Şimali Azərbaycanın kənd əhalisinin böyük əksəriyyətinin əsas məşğuliyyətini kənd təsərrüfatının ənənəvi sahələrindən olan əkinçilik və maldarlıq təşkil edirdi. Ümumrusiya bazarında ucuz kənd təsərrüfatı xammalına tələbatın getdikcə artması nəticəsində Şimali Azərbaycanda əkinə yararlı torpaqların və əkin sahələrinin sahəsi getdikcə genişlənirdi. Bəhs olunan dövrdə taxılçılığın, eləcə də digər əkinçilik təsərrüfatı sahələrinin inkişafına 1850-ci ildə Tiflisdə yaradılmış Qafqaz Kənd Təsərrüfatı Cəmiyyəti də müsbət təsir göstərdi. Cəmiyyətin nizamnaməsində yazılmışdı ki, onun məqsədi taxılçılıq və digər sahələrdə yüksək məhsuldarlığa nail olmaq üçün əkinçilik alətlərinin təkmilləşdirilməsinə çalışmaqdır [10].

Belə ki, XIX əsrin 80-ci illərində Şimali Azərbaycanda əkinə yararlı torpaq sahələri 800 min – 1 mln. desyatin, əkin sahələri isə 500-600 min desyatin idi. XIX əsrin sonunda bu nisbət müvafiq olaraq 1,5 mln. desyatin və

900-1 mln. desyatin, 1917-ci ildə isə 1,6 mln. desyatin və 1,3 mln. desyatin təşkil etmişdi [7]. Göründüyü kimi, XIX əsrin 80-ci illərinə nisbətən XX əsrin əvvəllərində Şimali Azərbaycanda əkinə yararlı torpaqların və əkin sahələrinin həcmi təxminən 2-2,5 dəfə artmışdı [9].

Şimali Azərbaycanın kənd təsərrüfatında əkinçiliyin mühüm sahəsini taxılçılıq təşkil edirdi. Tədqiqatçıların hesablamalarına görə, Şimali Azərbaycanda yığılan dənli bitkilərin məhsulunun təxminən 95%-ni buğda, arpa və düyü təşkil edirdi [9]. Qeyd etmək lazımdır ki, Şimali Azərbaycanda yığılmış taxıl məhsullarının dəqiq həcmini müəyyənləşdirmək, demək olar ki, qeyri-mümkündür. Məhz buna görədir ki, müxtəlif tədqiqat əsərlərində ölkədə yığılmış taxıl məhsullarının illik miqdarı ilə bağlı fərqli rəqəmlərlə rastlaşmaq mümkündür. Tanınmış tədqiqatçı V.D. Moçalovun hesablamalarına əsasən, 1883-1885-ci illərdə Şimali Azərbaycanda orta hesabla 40 mln. pud, 1894-1898-ci illərdə isə 79 mln. pud taxıl məhsulları əldə edilmişdi [7]. Görkəmli Azərbaycan tarixçisi prof. M.Ə.İsmayılovun araşdırmalarına görə isə 1896-1900-cü illərdə Şimali Azərbaycanda 57.047.168, 1901-1903-cü illərdə 42.226.766, 1907-1910-cu illərdə 33.465.916, 1911-1914-cü illərdə isə 39.222.208 pud [5] taxıl istehsal edilmişdi.

Beləliklə, XIX əsrin 70-ci illərinin birinci yarısında Şimali Azərbaycanda ildə orta hesabla 30 mln. pud [5] taxıl yığıldığı halda, 1882-1890-cı illərdə bu göstərici orta hesabla 41,7 mln. puda, 1891-1900-cü illərdə 53,8 mln. puda, 1901-1913-cü illərdə isə 37,6 mln. puda bərabər olmuşdur. 1905-1907-ci illərdə Şimali Azərbaycanda baş vermiş məhsulsuzluq nəticəsində taxıl məhsullarının yığımı il ərzində orta hesabla 14-22 mln. pud arasında tərəddüd etmişdir[10].Tədqiq olunan dövrdə Şimali Azərbaycanda taxıl məhsulları yığımı üzrə rekord göstərici 1896-cı ildə qeydə alınmış və həmin il 71.543.784 pud taxıl becərilmişdi [5, s.238].

Şimali Azərbaycanda taxıl məhsullarının istehsalı əsrin son rübündə inkişaf etdiyi halda, XX əsrin əvvəlindən başlayaraq taxıl yığımı getdikcə azalmağa başlanmışdır. XX əsrin əvvəllərində taxıl istehsalı üzrə yalnız 1914-cü il istisna təşkil edir ki, həmin il bir məlumata görə 52.215.512 pud, digər məlumata görə isə 54.369.090 pud taxıl yetişdirilmişdi [12]. Taxıl məhsulları yığımının azalması və məhsuldarlığın aşağı düşməsi müxtəlif səbəblərlə bağlı idi. Məhsuldarlığın aşağı düşməsinə kənd təsərrüfatı texnikasından az istifadə edilməsi, torpağın ənənəvi üsullarla becərilməsi, aqrotexniki qaydalara əməl edilməməsi kimi texniki səbəblərlə bərabər, quraqlıq, daşqınlar, qışda soyuq, yayda isti küləklərin olması, çəyirtkə basqını və s. kimi təbii fəlakətlər böyük təsir göstərirdi [6]. Bununla yanaşı, taxıl məhsulları yığılmasının azalmasına XIX əsrin sonu və xüsusilə də XX əsrin əvvəllərindən başlayaraq daha məhsuldar və qiymətli texniki bitkilərin əkilməsi üçün ayrılan torpaq sahələrinin artırılması da müəyyən təsir göstərirdi [7].

Şimali Azərbaycanın ən iri taxılçılıq bölgələri Bakı quberniyasının Lənkəran qəzası, Yelizavetpol quberniyasının Yelizavetpol, Ərəş, Nuxa və Şuşa qəzaları olmuşdur [5]. Bunu aşağıdakı statistik rəqəmlər də təsdiq edir. Hesablamalara görə, 1902-ci ildə Yelizavetpol quberniyasında yığılmış 28.280.480 pud taxıl məhsulunun 6.805.440 pudu Nuxa, 5.892.760 pudu Şuşa, 3.720.568 pudu Yelizavetpol, 3.094.416 pudu Ərəş, 2.405.536 pudu Cəbrayıl, 2.437.520 pudu Zəngəzur, 2.135.302 pudu Qazax və 1.788.842 pudu Cavanşir qəzalarının payına düşürdü [5]. 1910-cu ildə Bakı quberniyasında yığılmış 12.264.974 pud taxıl məhsulunun 2.208.910 pudu Lənkəran, 1.344.503 pudu Şamaxı, 1.141.680 pudu Göyçay qəzasının payına düşürdü. Taxıl məhsulları istehsalı üzrə Şimali Azərbaycan quberniyaları Cənubi Qafqazın digər quberniyalarına nisbətən aparıcı mövqeyə malik idi. 1901-ci ildə Cənubi Qafqazda yetişdirilmiş 82.633.712 pud taxılın 30 milyon puddan çoxu, başqa sözlə 35%-i ŞimaliAzərbaycan quberniyalarında əldə edilmişdi [5]. Şimali Azərbaycanda yetişdirilmiş taxıl məhsullarının adambaşına düşən miqdarını müəyyənləşdirmək baxımından prof.M.Ə.İsmayılov tərəfindən tərtib edilmiş aşağıdakı cədvəl [5] olduqca maraqlıdır.

***Cədvəl №2***

Şimali Azərbaycanda adambaşına düşən taxılın həcmi

| İllər | Əhalinin sayı | İstehsal edilmiş ümumi məhsul (pudla) | Adambaşına düşən məhsul (pudla) |
|---|---|---|---|
| 1897 | 1.750.131 | 64.984928 | 37 puddan çox |
| 1902 | 1.780.743 | 32.415.483 | 16 puda qədər |
| 1908 | 2.094.028 | 41.503.018 | 20 puddan çox |
| 1910 | 2.324.878 | 30.650.437 | 15 puda qədər |
| 1913 | 2.231.946 | 50.128.202 | 25 puda qədər |

Hesablamalara görə, Şimali Azərbaycanda il ərzində ərzaq üçün adambaşına 15-16 pud, təqribən bir o qədər də mal-qara üçün yem və toxum tələb olunurdu [6]. Bütövlükdə adambaşına il ərzində 30 pud taxıl məsrəf edildiyini nəzərə alsaq görərik ki, 1897-ci il istisna olmaqla Şimali Azərbaycanda satış üçün artıq taxıl məhsulu yox dərəcəsində idi. Göründüyü kimi, əksər illərdə Şimali Azərbaycanda əldə olunmuş taxıl məhsulları əhalinin öz tələbatını ödəməyə kifayət etmirdi. Məhz buna görə də il ərzində Şimali Azərbaycana Rusiyadan 9-12 mln. pud taxıl gətirilirdi [7]. Lakin bu heç də o demək deyildir ki, Şimali Azərbaycanda əksər illərdə əmtəəlik taxıl əldə olunmurdu. Cədvəldə əksini tapmış statistik məlumatlar göstərir ki, 1897-ci ildə Şimali Azərbaycanda adambaşına 7 pud əmtəəlik taxıl düşmüşdür. Lakin qeyd etmək lazımdır ki, əhalinin bir hissəsi (275.664 nəfər) [7] şəhərlərdə yaşadığı

üçün kənd təsərrüfatı ilə məşğul olmur və taxılı, taxıl məhsullarını mütləq satın alırdı.

XX əsrin əvvəllərindən etibarən şəhər əhalisinin sayı daha sürətlə artmağa başlamışdı. Bundan əlavə, kənd əhalisinin heç də hamısı taxılçılıqla məşğul olmurdu və məhz buna görə də taxıl məhsullarını satın almaq məcburiyyətində qalırdı. Digər tərəfdən yoxsul kəndlilərin böyük bir hissəsi vergi və mükəlləfiyyətləri ödəmək üçün öz istehlakı üçün nəzərdə tutulan taxılın bir hissəsini bazara çıxarırdı [5]. Şimali Azərbaycan qəzalarında taxılın becərilməsinin müxtəlif bölgələr üzrə qeyri-bərabər bölgüsü də əmtəəlik taxılın həcminə təsir göstərirdi. Məsələn, 1898-ci ildə Bakı qəzasında adam başına 9 puddan bir qədər çox, Cavad qəzasında 31 pud taxıl düşmüşdüsə, bu rəqəm Lənkəran qəzasında 97 pud təşkil edirdi [6]. Göründüyü kimi, Bakı qəzasının əhalisi taxıla böyük ehtiyac hiss etdiyi halda, Lənkəran qəzasında əldə edilən taxılın böyük əksəriyyəti satış üçün nəzərdə tutulurdu. Əmtəəlik taxılın bir hissəsi daxili bazarın tələbatının ödənilməsinə yönələrək Şimali Azərbaycanın şəhərlərində, hətta kənd yerlərində satılmaqla yanaşı, digər hissəsi Rusiya, Gürcüstan və Dağıstanın [6] coğrafi baxımdan yaxın rayonlarına göndərilirdi. Şimali Azərbaycanın mühüm taxılçılıq mərkəzlərindən olan Lənkəran qəzasında 1913-cü ildə 3.600.000 pud buğda, 2.600.000 pud arpa satılmışdı [9].

Şimali Azərbaycanın taxıl məhsulları becərilməsində əsas yeri buğda və arpa məhsulları tuturdu. 1909-cu ildə Bakı quberniyasında 10 mln. pud buğda, 5 mln. pud arpa, 1912-ci ildə isə müvafiq olaraq 12,7 mln. buğda, 7,8 mln. pud arpa yığılmışdı [1]. Oxşar mənzərə Yelizavetpol quberniyası üçün də xarakterik idi. Hesablamalar göstərir ki, Yelizavetpol quberniyasında orta hesabla hər il 10-12 mln. pud buğda, 5-9 mln. pud arpa əldə edilirdi [1].

1912-ci ilə aid olan statistik məlumatlara görə, Şimali Azərbaycanın iki (Bakı və Yelizavetpol) quberniyasında 23.308.000 pud buğda, 11.600.000 pud arpa və 1.171.000 pud düyü (çəltik) yığılmışdı [5].

## ƏDƏBİYYAT

1. Azərbaycan tarixi. 7 cilddə, IV cild. Bakı, 2000
2. Авалиани С.А. Крестьянский вопрос в Закавказье. Т. I -III. Одесса, 1912; т. IV. Тифлис, 1920
3. Богданова Н.Г. Аграрные отношения в Азербайджане в 1870-1913 гг. // Исторические записки, т. 12, 1941
4. GRDTA, f. 13, siy. 7, iş 2141
5. İsmayılov M. XX əsrin əvvəllərində Azərbaycanın kənd təsərrüfatı. Bakı, 1960
6. Исмаилов М.А. Государственные крестьяне Азербайджана в конце

XIX в.
7. Мочалов В.Д. Крестьянское хозяйство в Закавказье в конце XIX в. М., 1958
8. Обзор переселенческого дела в Закавказье. Тифлис, 1913.
9. Першке Л.Л. Обзор отраслей промышленности в Закавказском крае за 1901 г. (свод с 1894 г. по 1901 гг.). Тифлис, 1902
10. N.M.Paşayev. Rusiyanın təsiri ilə Şimali Azərbaycanın əkinçilik təsərrüfatında baş verən dəyişikliklər (XIX-XX əsrin əvvəlləri) BAKI DÖVLƏT UNİVERSİTETİNİN XƏBƏRLƏRİ-№2., 2010
11. Сегал И.Л. Крестьянское землевладение в Закавказье. Тифлис, 1912
12. Умаев А.А. Процессы капиталистического развития в сельском хозяйстве Азербайджана в конце XIX – начале XX вв. Баку, Элм, 2002, 530 с.

**UOT 37**

# "AZƏRBAYCAN MƏKTƏBİ" VƏ TARİXİN TƏDRİSİ METODİKASININ BƏZİ MƏSƏLƏLƏRİ

***Elnarə Nəcəf qızı Məmmədova***
***Azərbaycan Dövlət Pedaqoji Universiteti***
*elnare_mammadova@yahoo.com*

**Açar sözləri:** *pedaqoji fikir, məcmuə, təlim, ideya, metodika, təhsil*

*Məqalədə "Azərbaycan məktəbi" jurnalında 20-30-cu illərdə və sonrakı illərdə proqram dərsliklər o cümlədən tarixin tədrisinə dair görülmüş işlərdən bəhs edilir. Məqalədə "Azərbaycan məktəbində" eyni zamanda 1964-cu ildən nəşr olunmağa başlayan "Tarix, ictimaiyyət və coğrafiya fənlərinin tarixi tədrisi"nə dair yenilikləri öz əksini tapmışdır.*

# "AZƏRBAYCAN MƏKTƏBI" И НЕКОТОРЫЕ ВОПРОСЫ МЕТОДИКИ ПРЕПОДАВАНИЯ ИСТОРИИ

***Эльнара Маммедова***

**Ключевые слова:** *педагогические идеи, сборники, тренинги, идеи, методология, образование*

*В статье освещается работа, проделанная в истории учебного плана, в том числе преподавание истории в 20-30-е годы и последующие годы в журнале "Azərbaycan məktəbi". Статья посвящена истории преподавания в журнале, "Tarix, ictimaiyyət və coğrafiya fənlərinin tarixi tədrisi", который начал издаваться в Азербайджанской школе в 1964 году.*

# " AZƏRBAYCAN MƏKTƏBİ" AND SOME ISSUES OF THE METHODOLOGY OF TEACHING OF HISTORY

***Elnara Mammadova***

**Key words:** *pedagogical idea, compilation, training, the idea, methodic, education*

*The article highlights the work done in the history of the curriculum, including history teaching in the 20-30s and subsequent years in the "Azərbaycan məktəbi". The article reflects on the history of teaching in the "Tarix, ictimaiyyət və coğrafiya fənlərinin tarixi tədrisi" magazine, which began to be published at the Azerbaijan School in 1964.*

Azərbaycanda pedaqoji fikrin formalaşmasında danılmaz xidmətləri olan milli pedaqoji mətbuatımızın ən uzun ömürlü və aparıcı nümayəndəsi sayılan "Azərbaycan məktəbi" jurnalı yarandığı gündən ayrı-ayrı fənlərin tədris məsələlərinə ardıcıl diqqət yetirmiş, bütün fənlər üzrə tədris planı və proqramların inkişaf yolunu nəzərdən qaçırmamışdır.

İlk nömrəsi "Yeni məktəb" adı ilə 1924-cü ildə nəşr olunan, 1930-41-ci illərdə "Müəllimə kömək" adı ilə çıxan "Azərbaycan məktəbi" jurnalı fənlərin tədris məsələlərini həmişə diqqət mərkəzində saxlamışdır. "Yeni məktəbin" ilk nömrəsində deyildiyi kimi, jurnal tədris fənləri və proqramlarının hazırlanması, dərsliklərin nəşri kimi vacib vəzifələrlə məşğul olmalı, məktəbə elmi-metodiki cəhətdən köməyi təmin etməlidir. Jurnal bu proqrama sadiq qalmış istər "Yeni məktəb"də, istərsə də "Müəllimə kömək"də tədrisin üsul və metodikasına dair aktual mövzuda məqalələr çap olunmuşdur. Bu məqalələrin sırasında tarixin tədrisi və metodikasına dair yazılar da az deyildir. Tədqiqatlar göstərir ki, bu səpkidəki məqalələr əsasən qabaqcıl müəllimlər tərəfindən yazılmışdır.

Belə məqalələrdən biri "Müəllimə kömək"də çap olunmuşdur. Bakı şəhəri 1 nömrəli məktəbin tarix müəllimi Ə.Mehdiyevin müəllifi olduğu bu məqalə "Mənim qeydlərim" adlanır və jurnalda "Qabaqcıl müəllimlərin iş təcrübəsi" rubrikası altında dərc olunmuşdur. Müəllif dərslərində istifadə etdiyi üsullardan, dərsin necə qurulmasından geniş bəhs edir, sonra sözü öz üzərinə gətirirdi: "Müəllimin tələbkar olması şagirdləri müntəzəm surətdə mənimsənilən dərsin keyfiyyətini yüksəldir. Odur ki, mən bu işə artıq diqqət yetirirəm. Dərslərimdə geridə qalan şagirdlərdən daha tez-tez soruşuram". Sonra davam edərək müəllim öz fikirlərini tamamlamağa çalışır. Müəllimin fikirləri o zamanın tələblərinə tam uyğun idi. Jurnalda ardıcıl çıxış edən

Ə.Mehdiyev öz fəallığı ilə seçilir və fikirlərini həmkarları ilə bölüşürdü. Xatırladırıq ki, Ə.Mehdiyev həmçinin “IV sinifdə tarix dərslərində ölkəşünaslıq materiallarından istifadə” kitabçasının da müəllifidir.

“Yeni məktəb”ə nisbətən “Müəllimə kömək” və sonuncuya nisbətən 1943-cü ildən “Azərbaycan məktəbi” adı ilə nəşrə başlayan jurnal daha mükəmməl, daha məzmunlu, daha çox elmi səviyyəli olmuşdur. “Azərbaycan məktəbi” jurnalının məsul katibi, tanınmış jurnalist, professor N. Babayev sonralar yazırdı: “Hələ 20-ci illərin axırlarında, 30-cu illərin əvvəllərində bu jurnalın Azərbaycanın gənc müəllimlərinə yalnız metodik göstərişlərlə, yeni proqramların şərhi, məktəbin təşkilinə aid məsələlərdə kömək etdiyini görürdüksə, 30-cu illərin ortalarında artıq onun səhifələrində daimi olaraq sırf elmi-nəzəri pedaqoji materiallarla tanış oluruq”.

“Tarix, ictimaiyyət, coğrafiya tədrisi” məcmuəsində tarixin tədrisinə dair verilən göstərişlər müəllimlərin köməyinə gəlirdi. Orada deyilirdi: “Məktəblərimizdə tarix təhsilinin bünövrəsi IV sinifdən qoyulmağa başlayır. Bu sinifdə şagirdlər ölkəmizin tarixinə dair epizodik hekayələrlə tanış olurlar”.

“Azərbaycan məktəbi” və ötən əsrin 50-ci illərindən nəşrə başlayan əlavələrində, o cümlədən 1964-cü ildən nəşrə başlayan “Tarix, ictimaiyyət, coğrafiya tədrisi” məcmuəsində tarixin tədrisi metodikasına dair çox dəyərli məqalələr dərc olunmuşdur. Bu məcmuənin elə birinci nömrəsində deyilirdi ki, tarixin tədrisi müasir tələblər səviyyəsinə qaldırılmalıdır və bu fənni tədris edən müəllimlərə elmi metodiki kömək göstərilməlidir. Azərbaycan SSR- EA-nın müxbir üzvü, professor Z.İbrahimov, tarix elmləri doktoru prof. İ.Striqunov, prof. Ə.Şakirzadə, prof. A.Nadirov, A.Əlizadə, İ.Şakirzadə, Ə.Kərimov, C.Məmmədov, A.Əbilov və başqaları məcmuənin işində fəal iştirak edir, öz sanballı yazıları ilə tarix müəllimlərinin biliyini zənginləşdirirdilər.

“Tarix, ictimaiyyət, coğrafiya tədrisi” məcmuəsinin digər məcmuələrdən fərqlənən öz fərdi üslubu da vardı. Məcmuədə tematik plan dərc olunur və oxucular bu mövzuda məqalələr yazmağa çağırılırdı. Məsələn, 1966-cı ilə dərc ediləcək materialların təqribi tematik planı belə idi:

Tarixin tədrisində müasirlik
Tarix dərslərində vətənpərvərlik tərbiyəsi
Tarix dərslərində şagirdlərin fəallaşdırılması
Tarix dərnəyinin iş təcrübəsindən tarixin tədrisində izahlı qiraət
Ölkəşünaslıq dərnəyinin iş təcrübəsindən tarixin tədrisində əyanilik
Azərbaycan tarixinin tədrisində tarixi sənədlərdən istifadə
Tarix jurnallarının səhifələrində tarix yenilikləri və s.

Redaksiya öz işini bununla qurtarmırdı. Aşağıdakı qeyddə deyilirdi: “Oxucu yoldaşlardan bu tematik plan haqqında öz mülahizələrini, daha nə kimi mövzularda məqalələr dərc edilməsini arzu etdiklərini, təkliflərini redaksiyaya yazmağı xahiş edirik”.

Jurnalda o da qeyd olunurdu ki, “Məktəbin qarşısında duran mühüm vəzifələrin yerinə yetirilməsində müəllim başlıca və həlledici rol oynayır. Müəllimdən onun elmi siyasi biliyindən, pedaqoji ustalığından, işə can yandırmasından asılı olaraq işin müvəffəqiyyəti həll olunur”(10).

Ona görə də məcmuədə tarix müəlliminin elmi metodiki və praktik hazırlığının artırılmasına, ideya, siyasi səviyyəsinin yüksəldilməsinə, yeni proqram və dərsliklərdə iş bacarığının inkişafına kömək edə bilən materialların dərc olunmasına ardıcıl fikir verilirdi.

Jurnal öz oxucularından metodiki göstəriciləri əsirgəmirdi. Məcmuədə tarixi biliklərin mənbəyinə diqqət yetirmək tələb olunurdu. Şagirdlərin tarix dərslərində aldıqları biliklərin möhkəmləndirilməsi yollarına dair tövsiyələr verilirdi. Yerli tarix materiallardan istifadə edilməsi zəruri sayılırdı.

Məcmuədə gedən məqalələrdə tarixin tədrisinin müasir problemlərinə də fikir verilməsinin vacibliyindən bəhs edilirdi. “Tədrisin yeniləşməsi yollarında” adlı məqalədə tarix dərsindən nümunələr də verilmişdir. IX sinifdə tarix dərsi gedirdi. Məşğələ maraqlı mövzuya həsr olunmuşdu: “Azərbaycan SSR-də mədəni inqilabın həyata keçirilməsi elə ilk baxışdan hiss olunurdu ki, müəllim Habil Rəsulov dərsə qabaqcadan ciddi hazırlıq görmüş, diaqram və digər əyani vəsaitlər seçilmiş, hətta qəzetlərdə bu məsələlərə dair son dövrlərdə çıxmış məqalələr də sinifə gətirilmişdi. Dərsdə xoşa gələcək cəhət ondan ibarət idi ki, müəllim tarixi faktlara aşkarlıq və demokratiya mövqeyindən yanaşırdı”

“Tarix, ictimaiyyat və coğrafiya tədrisi” məcmuəsində “Azərbaycan tarixi nə üçün ayrıca fənn kimi tədris olunmur, ona ayrılan saatların miqdarı nə vaxtadək artırılmayacaq, yeni dərsliklərin yaradılması haqqında söz-söhbətlər nə vaxt həqiqətə çevriləcək, proqramlardakı uyğunsuzluqlar niyə aradan qaldırılmır, müəllimin müstəqilliyi, müəllim şagird əməkdaşlığı kimi ideyaların həlli kağız üzərində qalıb, problemlər o qədərdir ki, onları saymaqla qurtarmaq olmaz”.

Bu sətirlər məcmuəsinin təhsilimizə olan qayğısıdır, tarixin tədrisinin nə qədər aktual məsələ olduğunun bariz ifadələridir.

Məcmuədə o da göstərilirdi ki, tarix və ictimaiyyət tədrisinə metodik rəhbərliyin yaxşılaşdırılması zərurəti məsələsi həmişəkindən daha kəskin bir surətdə qarşıda durur.

O da qeyd olunurdu ki, tarixin tədrisində hələ ciddi nöqsanlarımız vardır. Təcrübələrdən göründüyü kimi, tarixi prosesin cazibədar mənzərəsi şagirdlər üçün çox vaxt açılıb göstərilməmiş qalır. Emosional cəhətdən zəngin olan parlaq tarixi hadisələr, obrazlar və təsəvvürlər bəzən mücərrəd sxemlərlə əvəz edilir. Bu isə labüd surətdə tarixin öyrənilməsinə şagirdlərdə marağın azalmasına səbəb olur, onlarda konkret tarixi faktlara etinasızlıq münasibətləri yaradır, tarixə, xalqın qəhrəmanlıq və vətənpərvərlik və inqilabi ənənələrinə səthi və nehilist münasibət doğurur. Tədrisin gedişində tarixi prosesdəki səbəb-

nəticə əlaqələrinin açılıb göstərilməsinə az fikir verilir, bu və ya digər faktların qanunauyğunluqlarını görə bilməyən məktəblilərə az öyrədirlər. Şagirdlərin bir çoxunun cavablarını, adətən hadisələri nağıl etməkdən, onların düzgün qiymət verə bilmədiyi əhəmiyyətsiz faktları sadalamaqdan ibarət olur (11).

Məcmuənin buraxılışlarında görkəmli alimlər, təcrübəli metodistlər və müəllimlər vaxtaşırı müxtəlif mövzularda çıxış edirdilər. Bu məqalələrin məzmuna əsasən müəllimlərin elmi, pedaqoji və metodiki səviyyəsini yüksəltməklə bağlı olmuşdur. Məqalələrin məzmununda məktəb təcrübəsinin öyrədilməsi, ümumiləşdirilməsi və yayılmasına da qismən yer verilmişdir.

Məcmuənin səhifələrində yeni proqramlarla əlaqədar mənimsənilməsi nisbətən çətin olan mövzuların tədrisi üsulunun işıqlandırılmasına, dərslərin müasir tələblər səviyyəsində keçirilməsinə də geniş yer verilirdi.

Məcmuənin nəşrinə qədər “Azərbaycan məktəbi” jurnalında tarixin tədrisinə dair dərc olunan məqalələr də müəllimlərə yaxından kömək edirdi: “Tarix müəllimlərinin şərəfli vəzifəsi”(12). “Tarix dərslərinin hazırlanması və planlaşdırılması” (12), VIII-X siniflərdə icmal dərsləri (12). “Tarixi nə pisləşdirmək, nə də yaxşılaşdırmaq olar” (14). “Mən tarix tədrisini müasir həyatla necə əlaqələndirirəm” (13). “Tarix dərnəyi haqqında” (15). “Tarix dərslərində sinifdən xaric tərbiyə məsələləri” (16). “Tarix fənnindən sorğu aparmaq metodikasına dair”(17). “V sinifdə tarix dərsləri tədrisi haqqında bəzi qeydlər” (18) və s. Bu məqalələrin sayını artırmaq da olar.

Göründüyü kimi, məqalələrin əsasən “Tarix, ictimaiyyət və coğrafiya tədrisi” məcmuəsi nəşr olunana qədərki dövrü əhatə edir. Bunlar bir daha əlavə kimi həyata qədəm qoyan məcmuənin çapının zəruriliyin sübut edir.

“Tarix, ictimaiyyət və coğrafiya tədrisi” məcmuəsinin hər nömrəsində 10-12 müəllimin müxtəlif mövzuda məqalələri dərc olunurdu. Bunların içərisində elmi məlumatlarla zəngin və maraqlı məlumatlara da rast gəlirik.

Bu yazılarda Azərbaycan tarixinin tədrisinə dair fikirlər daha çox diqqəti cəlb edir. Xatırlatmaq yerinə düşər ki, orta ümumtəhsil məktəblərində Azərbaycan tarixi və coğrafiyasının ayrıca bir fənn kimi tədris edilməsi məsələsi 1945-ci ildə avqust ayında maarif komissarlığında tədris planları müzakirə edilərkən qaldırılmışdır. S. Vurğun da bu təklifin tərəfdarı olmuşdur.

1945-ci ildə Azərbaycan SSR Maarif Komissarlığına bu məsələdə maraqlı olan Səməd Vurğun da münsiflər heyətinin üzvü seçilmişdir (19).

Dahi pedaqoqlara aydın idi ki, mükəmməl təhsil sisteminə malik olmaq, dövrün tələblərinə cavab verən proqram və dərsliklər hazırlamaq dövlətin gələcəyi və müstəqilliyinin mühüm şərtidir. Ölkədə baş verən tarixi, sosial-siyasi proseslər özünü tarixin tədrisində daha qabarıq büruzə verdiyindən tarixin tədrisinə dair sənədlərə daha ciddi diqqət yetirilmişdir. Ona görə də Azərbaycan tarixinə dair proqram və dərsliklərin hazırlanması ön plana çəkilirdi. Bütün bunlar isə kəskin problemlərin aradan qaldırılmasına pozitiv və neqativ

cəhətlərin düzgün başa düşülməsinə öz təsirini göstərməyə xidmət etmək məqdəsi gödmüşdür.

Beləliklə, tarixin tədrisinə daha ciddi tələblərlə yanaşmaq vərəqəsi günün aktual probleminə çevrildi.

Bir daha xatırladırıq ki, S.Vurğun gənc nəslin milli iftixar hissi ruhunda tərbiyə etmək işində tarix və ədəbiyyat müəllimləri qarşısında ciddi tələblər qoyurdu. O göstərirdi ki, istər təlim prosesində, iştərsə də sinifdən xaric tərbiyə işlər prosesində xalqımızın əldə etdiyi naliyyətlərə, onun mənəvi aləmini böyük vüqar və ifixar hissi ilə gənc nəslə çatdırmaq lazımdır. Bu, o deməkdir ki, gənc nəsil tarix və ədəbiyyat dərslərində Nizaminin, Füzulinin, Vaqifin dahi sənətkar olmasını, Cavanşirin, Babəkin, böyük sərkərdə olmasını öyrənərkən onlarla fəxr etməlidir (20).

SSRİ-nin süqutu ərəfəsində məcmuədə çap olunmuş “Azərbaycan tarixinin inkişaf perspektivləri” adlı məqalədə (21) keçilmiş yollara nəzər salınarkən Sovet cəmiyyətində başqa sahələrində olduğu kimi, mənəvi inkişafda da bir sıra ciddi qüsur və çatışmazlıqların olduğu açıq şəkildə təsdiq olundu. “Dağlıq Qarabağ problemi də ilk dəfə gündəmə gətirildi. Bu zaman ilk dəfə “Azərbaycan tarixinin tədqiqi, tədrisi və təbliği üzrə dövlət proqramı” hazırlandı. Bu proqram layihəsinin geniş müzakirəsi keçirilmişdir. Bundan sonra tariximizin ayrıca fənn kimi öyrənilməsi ilə yanaşı onun tədrisi sonralar iki dəfə artırıldı. Təzə dərsliklərin yazılmasına başlandı. Bu illərdə akademik Y.Mahmudovun zəhməti xüsusi qeyd edilməlidir. Onun Dövlət proqramı hazırdır: “söz tarixçilərindir” məqaləsi əsas istiqamətverici sənəd oldu. Bundan sonra müxtəlif pedaqoji orqanlarda Azərbaycan tarixinin öyrənilməsi və təbliği sahəsində canlanma başlandı.

“Azərbaycan məktəbi” və onun əlavəsi olan “Tarix, İctimaiyyat və coğrafiya tədrisi” məcmuəsində gedən məqalələrin təhlili göstərir ki, bu günün problemləri ilə yaşayan müəllimlərimiz az olmamışdır. Hələ 1939-cu ildə VIII-X siniflər üçün tarix proqramları rus dilindən tərcümə edilərək, 1941-ci ildə təkmilləşdirilmiş formada yenidən çap ediləndə də tarix müəllimlərini dövrün tələblərinə cavab verən stabil proqramlar üzrə dərs keçirilməsi, tarixin tədrisi metodikası problemlərinin yeniləşdirilməsi düşündürmüşdür. Jurnallarda çap olunan məqalələr də bu vəziyyətə uyğunlaşdırmaya doğru istiqamətlənirdi. Məcmuə Azərbaycanda tarix üzrə metodik fikrin inkişafına öz böyük töhfəsini verdi. Ötən əsrin 50-60-cı illərində tarix təhsili və tədrisi yeni mərhələyə qədəm qoyanda məcmuədəki məqalələrlə bu tələblərdə ayaqlaşmaq yolunu tutdu.

1986-1987-ci illərdə tarix fənni yeni proqramla tədris olunmağa başlayanda jurnalın işində məzmun dəyişikliyi oldu və tarixin tədrisinin qarşısında qoyulan vəzifələr müstəqil Azərbaycan təhsili üçün zəmin hazırladı. Jurnaldakı bir sıra məqalələr bu gün də öz aktuallığını itirməmişdir. Xalqın düzgün tarixini yazıb ortaya çıxarmaq üçün şərait yetişmişdi. Azərbaycan

tarixinin hər cür sapdırmalardan kənar elmi dəqiqliklərlə işlənilməsi məqsədi yalnız müstəqillik illərində mümkün oldu.

## ƏDƏBİYYAT


1. Mehdizadə M. Azərbaycanda Sovet məktəbinin tarixinə dair xülasələr. Bakı: Azərbaycan Dövlət Nəşriyyat 1958.
2. Mahmudov Y. Azərbaycan tarixi erkən inkişaf dövrü. Bakı: 2008.
3. Tahirzadə N. Azərbaycan Təhsil tarixi oçerkləri və ilk ali təhsilli müəllimlərimiz. Bakı: Nurlar, 2015.
4. Qaralov Z. Xalq təhsilinin idarəetmə sisteminin yeniləşdirilməsi haqqında “Azərbaycan məktəbi” jurnalı, 1990, № 4
5. Məmmədov M. Azərbaycan SSR-də 20 il ərzində xalq maarifi, “Müəllimə kömək”, 1940, № 5.
6. Seyidov Ə. Məktəbdə iş planı və onu hesaba almaq məsələsi. “Yeni məktəb”, 1927, № 12
7. Rəhimli M. Tədris və tərbiyədən nəzəri iş “Yeni məktəb”, 1928, №8-9
8. Əmirov M. Tam orta məktəbdə tarixin fəal interaktiv təlimi metodikası, Bakı, 2011.
9. Cəbrayılov İ. Dövlətçilik tarixi şagirdlərə sistemli şəkildə öyrədilir. “Azərbaycan müəllimi”, 2019-cu il 19 iyul.
10. “Azərbaycan məktəbi”, 1953, №5
11. “Tarix ictimaiyyat və coğrafiya tədrisi”, 1968 №1.
12. “Azərbaycan məktəbi”, 1952, № 1,2,8
13. “Azərbaycan məktəbi”, 1949, № 6
14. “Azərbaycan məktəbi”, 1951, № 2
15. “Azərbaycan məktəbi”, 1948, № 2
16. “Azərbaycan məktəbi”, 1947, № 1
yaşayır. Bizim kifayət qədər böyük valyuta ehtiyatlarımız var, iqtisadiyyat dinamik şəkildə inkişaf edir, iqtisadi şaxələndirmə, neft-qaz amilindən asılılığının azaldılması istiqamətində çox önəmli addımlar atılmışdır və ölkəmizin gələcək inkişafı üçün nə siyasi, nə iqtisadi, nə hər hansı bir başqa maneə və ya problem yoxdur. Azərbaycan bundan sonra ancaq uğurla inkişaf edəcək, ölkəmizin böyük potensialı var" [3].

## ƏDƏBİYYAT


1. Azərbaycanda milli siyasət və strateji inkişaf / XXI əsrin astanasında I Ümumrespublika Elmi-praktik konfransın materialları. Bakı:Yazıçı, 2005, 195 s.
2. Əliyev H.Ə. Azərbaycan nefti dünya siyasətində. Bakı, Azərnəşr, 1997, 328 s.
3. Əliyev İ.H. “Azəri”, “Çıraq” və “Günəşli” yataqları üzrə yeni Sazişin imzalanması mərasimində nitqi. “Azərbaycan” qəz., Bakı, 2017, 15 sentyabr
4. Əliyev İ.H. 2018-ci il martın 15-də Azərbaycanın paytaxtında “İnkluziv cəmiyyətlərinin qurulması üçün fərqliliklərinin aradan qaldırılması” mövzusunda keçirilən VI Qlobal Bakı Forumunda çıxışı.“Respublika” qəz., Bakı, 2018, 16 mart.
5. Əliyeva N. Heydər Əliyev ideyaları və XXI əsr. “ Respublika” qəzeti, Bakı, 2010, 01 may.
6. Həsənov Ə.M. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti. Bakı, “Zərdabi LTD” MMC, 2014, 672 s.
7. Həsənov Ə. M. Azərbaycanın geosiyasəti. Dərslik. Bakı, “Zərdabi LTD” MMC, 2015, 1056 s.
8. “Xalq” qəzeti, Bakı, 2010, 26 iyun
9. Xəlilov Q. Geosiyasi münasibətlərdə neft amili. //Dirçəliş XXI əsr, 2006-2007, № 106-107.
10. «İntibah» Sosial-Siyasi Araşdırmalar Mərkəzi «Şərq» qəzeti. 15 fevral 2000.
11. İsmayılov Ç. Xəzəryanı Geosiyasi Məkan: Maraqların toqquşması və transformasiya meylləri. //Geo Strategiya, 2011, №3(03), s. 38-44
12. Qətiyyətin təntənəsi (sənədli xronika).Tərtibçi Ş. Yaqubov. Bakı, Səhər, 1995, 848 s.
13. Nəsirov E. Azərbaycan Respublikasının Avropanın enerji təhlükəsizli-yindəyeri və rolu.//«Geo Strategiya», 2011, №4(04), s. 36-39.

14. Ковалев А.А. Глобализация и вопрос трансформации государственного суверенитета //Евразийский юридический журнал, 2012, № 11 (54).
15. Нурша А. Прикаспийский регион: стратегическое значение пространства и нефти / Центральная Азия и Кавказ, 2001, №2.
16. Azerbaijan's Foreign Policy and Challenges for Energy Security. Academic Journal Article By Ipek, Pinar //*The Middle East Journal* , Vol. 63, No. 2
17. http://www. bmm. az/news. php?id=5828
18. http://www. azerbaijan-news. az/index. php?mod=3&id=28464
19. Trend, 26 avqust , 2014
20. Yeni Müsavat. Onlayn ictimai-siyasi qəzet. 04 sentyabr, 2014

TARİX, İNSAN VƏ CƏMİYYƏT-2019, 4 (27), s.124-130

**UOT 94(479.24)**

# ŞƏMSƏDDİL SULTANLIĞININ İNZİBATİ - ƏRAZİ BÖLGÜSÜ

***Elmira Kazım qızı Məmmədova***
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin***
*suleymanova.elmira1954@mail.ru*

**Açar sözlər:** *Odlar yurdu, Şəmşəddil, Borçalı, Qazax, Zəqam, Zulqədar*

*Məqalədə XVII əsrdən XIX əsrədək tarixi Azərbaycan əyaləti Zəqam dairəsi və ondan qərb istiqamətdə mövcud olmuş müsəlman feodal mülkü Şəmşəddil sultanlığının inzibati-idarə sistemi tədqiq olunur. Tarixi faktlar, sənədli mənbələr, elmi tədqiqatlar, toponim və etnonimlər bu ərazilərdə qədim zamanlardan türk inzibati-ərazi bölgüsünün və idarəçiliyinin mövcudluğunu sübut etməyə imkan verir. Sənədlərin tədqiqi və analizi göstərir ki, bu ərazilər ilkin sivilizasiya dövründən oğuz türklərinə məxsus olmuşdur.*

## АДМИНИСТРАТИВНО-ТЕРРИТОРИАЛЬНОЕУСТРОЙСТВО ШАМШАДИЛЬСКОГО СУЛТАНСТВА

***Эльмира Мамедова***

**Ключевые слова:** *Страна Огней, Шамшадиль, Борчалы, Газах, Загам, Зулькадар*

*В статье исследуется административно-территориальная система мусульманского феодального владения Шамшадильского султанства, существовавшего на территории исторической азербайджанской области округа Загам и территории к западу от него с XVII до XIX веков. Анализ исторических фактов, документальных источников, исторических исследований, а также названий топонимов и этнонимов, позволяет установить наличие здесь издревле тюркской системы административно-территориального деления и управления. Материалы анализа указывают на принадлежность этих территорий с самых очагов цивилизации тюркам- огузам.*

# ADMINISTRATIVE AND TERRITORIAL STRUCTURE OF THE SHAMSHADIL SULTANATE

***Elmira Mammadova***

**Key words:** *Land of Fire's, Shamshadil, Borchaly, Gazakh, Zagam, Zulkadar*

*The article explores the administrative-territorial system of the Muslim feudal possession of the Shamshadil sultanate that existed in the territory of the historical. Azerbaijani region of Zagam district and the territory to the west of it from the XVII to the XIX centuries. Analysis of historical facts, documentary sources, historical studies, as well as names of toponyms and ethnonyms, allows to establish the existence here since ancient times of the Turkic system of administrative-territorial division and management. The materials of the analysis indicate that these territories belong to the Oguz Turks from the very foci of civilization.*




Azərbaycan adlanan Ana vətənimiz – Odlar Yurdunun torpaqları yalnız Azərbaycan Respublikasının indiki sərhədləri hüdudlarında olmamışdır. Geniş

əraziyə malik olan Azərbaycanın sahəsi hələ qədim zamanlardan XIX əsrin birinci rübünə qədər təxminən 421,6 min kv. km.-dən ibarət idi. (7,s. 36). Buraya Cənubi Azərbaycanın 280 min kv, Azərbaycan Respublikasının 86,6 kv km, Cənubi Dağıstanın 10 kv km, Emənistan Respublikasının (Qərbi Azərbaycan) 29 kv km, Türkiyə Respublikasının Qars (və Iğdır) vilayəti 6 min kv km, Gürcüstan Respublikasının şimal-şərqində yerləşən 10 kv km ərazilər daxil idi. Göründüyü kimi, Azərbaycanın tarixi coğrafiyası müasir Şimali İranin, Azərbaycan, Naxcıvan Muxtar, Ermənistan respublikalarının və eləcə də Türkiyə Cümhurɨyyətinin Qars (və Iğdır) vilayəti, Rusiya Federasiyasında – Dağıstanın cənub hissəsi (Dərbənd) və Gürcüstanın şimal-qərb bölgələri ilə əhatə olunurdu. Bu yerlərdə Vətən torpağımızın hər bir guşəsinə xalq tərəfdən ad qoyulmuşdur. Bu adlar da Vətən torpağının hər parçası kimi doğma və əzizdir. İlk növbədə burada ulu babalarımız əvvəlcə qəbilə, sonralar tayfa, tayfa ittifaqı, etnos kimi məlum olan adları bu və ya digər etnonimin yaranmasında öz əksini tapır, həmçinin həmin yerin təbii görünüşü və relyefi əcdadlarımızın öz zəngin idrak və təxəyyülünün məhsulu olan toponimlərdə oykonimə çevrilir.

Bu torpaqlarda dədə-babadan Azərbaycan türkləri yaşayıb-yaratmışlar. Bu torpaqlarımızda oğuz igidlərinin hay-harayını, döyüşən qılınclarının sədalarını, axan suların şırıltısını, şəhanə atların nal səslərini “Kitabi-Dədə Qoqud”un kaloritli, pak və təravətli sətirlərindən aydın eşidirik.

İkinci bir həqiqət odur ki, ölkəmizin ərazisində yaşayış yerlərinin, xalqların, millətlərin, qəbilələrin, qəbilə birliklərinin və etnik birliklərin, eləcə dəvə şəxs adlarından törəmiş coğrafi adların türk mənşəli sözləridir. Azərbaycan onomastikasının müxtəlif sahələrindən - toponim, etnonim, oykonim, antroponim və s. şəkildə işlənilən **bu xüsusi adlar ölkəmizin hər güşəsindən keçmişin izlərini özündə mühafizə edib müasir zamana kimi gətirən real faktlardır, tarixin canlı şahidləridir.**

Türk–kaloriti ilə dolu dövrlərdən biri də XVIII əsrin ikinci yarısında mövcud olmuş xanlıqlar dövrüdür. Bu dövrdə ölkənin siyasi quruluşunda mərkəzləşmiş monarxiya dövləti feodal-pərakəndə monarxiyalarla əvəz edilir. Həmin dövrdə Azərbaycanın tarixi ərazisində 20 xanlıq, 8 sultanlıq, 5 məliklik və Car-Balakən camaatları kimi iri, orta və xırda feodal dövlət qurumları yaranır. Bunlar: Bakı, Qarabağ, Şəki, Şamaxı, Gəncə, Dərbənd, Quba, Salyan, Cavad, Lənkəran, Naxçıvan, İrəvan, Təbriz, Qaradağ, Maku, Xoy, Sərab, Salmas, Urmiya, Ərdəbil xanlıqları, Ərəş, İlisu, Qəbələ, Qazax, Şəmşəddil, Pəmbək, Şoraqel, Borcalı, Çors Qarabağlar sultanlıqları, Xaçın, Vərəndə, Cöləbörd, Dizaq, Gülüstan məlikliklər, Car, Balakən, Muxax, Tala, Saxur, Kaxet, Çənik camaatlarıdır.

Bu dövlət qurumlarının hökmdarları xan, sultan, məlik titulları daşıyırdı və feodal nərdivanı çərçivəsində xan titulu yuxarıda durduğu üçün həmin XVIII əsrin ikinci dövrü həm də Azərbaycan xanlığı dövrü kimi adlanır.

Azərbaycan xanlığı siyasi quruluşunun tərkib hissəsi olan Şəmşəddil sultanlığının ərazisini erməni tədqiqatçıları əzəli, əbədi erməni torpağı kimi qələmə verirlər. Bu da əsrlər boyu Azərbaycanla, sonralar isə Ermənistanla taleyi sıx bağlı olmanın nəticəsidir.

Rus mənbələrində Şəmşəddil sultanlığının ərazisi 4200 verst (1 verst 1067 kvadrat metrə kimi göstərilir (2,s.23-24). Zəyəm mahalı və ondan qərbdəki ərazidə yaranan Şəmşəddil sultanlığının ərazisi müxtəlif tarixi dönəmlərdəki təsirlərdən bu miqyasdan daha iri və ya kiçik olub. Sultanlığın tarixi ərazisinə indiki Azərbaycan Respublikasının Tovuz, Gədəbəy, Şəmkir çayının sağ qıyısında suayırıcı-toplayıcı torpaqlardan qərbə tərəf olan, Ağstafada Həsənsu boyunca cənuba doğru uzanan sahələr, Gürcüstan Respublikasının da xeyli hissəsi, Ceyrançölü, Murğuz yaylağı, Ermənistan Respublikasında qalan Şəmşəddil rayonları, Göycə mahalı, Qaraqoyunlu dərəsi, İcevanın bir hissəsi Qalakənd, ermənilərin Berd adlandırdığı rayonu və başqa ərazilər daxil idi.

Tarixdə Şəmsəddil sultanlığı yaranana qədər onun ərazisi el, oba, mahal, bölqə və s. kimi işlənilirdi və türklərin tarixən burada cəm şəkildə məskun olduğu halda bütün mənbələrdə (istər folklor, istərsə də yazılı) onun varlığı Azərbaycanın tarixi ərazisinin ayrılmaz hissəsi kimi göstərilir. Bu yerlərdə **xalqımızın tarixinin** qədimdən başlayaraq **hər bir dövründə** türk mənşəli adlar Azərbaycan onomastikasının əsas fondunu təşkil edir. Və bu yerlərlə bağlı xeyli adlar - Qoturbulaq, Molla qayası, Çoban dağı, Mehdi qalası və s. **xalqımızın tarixində** baş verən xüsusi maraqlı əhvalatlar haqqında xəbər verir. Onlar türkçülüyü yaşadan ölməz oğuz əfsanələrdən aşkara çıxarılmışdır.

Şəmşəddil sultanlığının mərkəzi Tovuz ərazisində yerləşən Öksüzlü obasıydı. Sultanlığının əhalisi qızılbaş türk tayfalarından olan zülqədərlərdən olub. Şəmşəddil ərazisi şah I İsmayılın dövründən Zülqədər tayfasının bir qolu olan Şəmşəddil tayfasının irsi vilayəti hesab olunurdu. Əraziyə başçılıq edən Şəmşədillilərə el arası Zülqədərovlar deyirdilər. Zülqədərovlar əsasən Xılxına kəndində yaşayırdılar.

1605-ci ildə səfəvi I şah Abbasın fərmanı əsasında şəmşəddin tayfasının başçısı Əli sultan Zülqədəra hərbi xidmətinə görə irsi torpaqlarından əlavə Şirvanda ölkə tabeliyinə verilir (6, s.134-135). Onun varisi Səlim xan Şəmsəddinli Zülkaqar 1622-ci ildə Axalsıx qalasının osmanlılardan alımasında qəhrəmanlıq göstərdiyi üçün həmin qala səfəvi şah I Abbasın fərmanı ilə onun tabeliyinə verilir. Bölgə uzun müddət XVII – XVIII əsrlərdə Səfəvi imperiyasının tərkibində Gəncə bəylərbəyliyinin ərazi-inzibati bölgüsü kimi Ziyad oğulların tabeliyində olmuşdur. Lakin 1736-cı ildə Nadir xan

Əfşarın hakimiyyətə qəlməsinə etiraz edən Ziyad oğlu Qacarlar o, şah elan olunandan sonra cəzalandırıldılar. Nadir şahın fərmanı ilə Şəmşəddil sultanlığı Ziyad oğlu Qacarların tabeliyindən alındı və şahın valisi olan Kartli-Kaxeti çarı Teymurazın tabeliyinə verildi. 1747-ci ildə Nadir şah Əfşarın sui-qəsdlə öldürülməsi nəticəsində yaranmış yarımmüstəqil feodal dövlətlərdən biri də Şəmşəddil sultanlığı (1747-1801) idi. Yarandığı zaman Qazax və Borçalı sultanlıqları kimi Şəmşəddil sultanlığı da Gəncə xanlığının tərkibinə daxil oldu (8, s.208).Bu zaman Gəncə hakimi Şahverdi xan Ziyadoğlu-Qacar (1747-1756) idi. 1752-ci ildə Şəki hakimi Hacı Çələbi xan Borçalı, Qazax və Şəmşəddil sultanlıqlarınıvə Gəncə xanlığını özündən asılı vəziyyətə saldı. Həmin vaxt Şəmşədil sultanlığının hökmdarı Sultan Allahverdi Zülqədər (1747—1761) idi. 1755-ci ildə Hacı Çələbi xanın ölməsi ilə təkrar Gəncə xanlığının tabeçiliyinə keçən Şəmşəddil sultanlığı Məhəmmədhəsən xan Ziyadoğlu-Qacarın (1756-1778) hakimiyyəti zamanı Gəncə xanlığının tərkibində qalmışdır. O zaman onun hökmdarı Əli sultan Şəmşədinli idi. O, burada1761-1797-ci illərdə sultanlıq etmişdi. Lakin Kartli-Kaxeti çarı II İrakli və Məhəmmədhəsən xan Ziyadoğlu-Qacarın arasında ziddiyyətli narazılığa səbəb olan ərazi idi. 1765-ci ildə II İrakli Şəmşədili müvəqqəti olaraq özünə tabe etdi. Buna zülqədərlər ciddi etirazını bildırdirib. Məhəmmədhəsən xan Ziyadoğlu-Qacarın yürüşündə ona yaxından kömək edərək Şəmşəddilin ərazısini Kartli-Kaxeti çarı II İraklinin tabeliyindən qaytara bildilər. Lakin Məhəmmədhəsən xan Ziyadoğlu-Qacarın ölümü ilə Borçalı, Qazax və Şəmşəddil sultanlıqları Kartli-Kaxeti çarı II İrakli tərəfindən yenidən işğal olundu. Onun ərazisi Qazax ilə birləşdirilib və Qazax-Şəmşəddil sultanlığı adlandırıldı. 1795-ci ildə Ağa Məhəmməd şah Qacarın Tiflisə yürüşündə iştirak edən Cavad xan Ziyadoğlu-Qacar Borçalı, Qazax və Şəmşəddil sultanlıqlarını Gəncə xanlığının tabeliyinə qaytardı. Cavad xan Ziyadoğlu-Qacar Şəmşəddil sultanlığının statusunu qaytardı və onun sultanı Nəsib Şəmşədi-Zülkadar təyin etdi. O, Şəmsəddili 1797-1819-cı illərdə idarə etmişdi.

Nəsib sultan 1763-cü ildə Şəmsəddin mahalının Öysüzlü obasında anadan olmuşdu. Onun həyat yoldaşı şıxlinskilər nəslindən Coğaz çayı və Göyəzənin ağasının qızı Cəvahir xanım idi. Elə onun üstündə Cavad xan Ziyadoğlu-Qacarın Nəsib sultanla düşmənçilliyi başladı. Bu düşmənçilik haqqında hətta el arasında rəvayətlər də gəzirdi. Rəvayətə görə, Cavad xan Nəsib sultanı işlə bağlı Dağıstana göndərir. Nəsib sultan gedəndən sonra xan onun həyat yoldaşı Cəvahir xanımı sarayına çağırır. Ona bildirir ki, sən xan arvadı olmağa layiqsən. Ərindən boşan, mənə gəl. Cəvahir xanım mətanət göstərib sınmır. Əri səfərdən qayıdandan sonra məsələni açıb danışır. Bu əhvalatdan sonra Nəsib sultan Cavad xandan qisas almaq qərarına gəlir və Gəncə xanlığının tabeliyindən çıxır. Sisiyanov Gəncəyə hücum edəndə 700 atlı ilə ona qoşulub Cavad xana qarşı vuruşur. Nəsib sultan Gəncə hakiminə qarşı

Qazax ağalarını da səfərbər etdi. Yaxşı təlim görmüş 300 qazaxlı süvari çar generalının əmri ilə Gəncəyə hücum etmişdi.

Nəsib sultan Şəmsəddinli göstərdiyi xidmətə görə mayor rütbəsi almışdı. Gəncənin işğalı başa çatdıqdan sonra Nəsib sultanın səlahiyyəti genişləndi, o, Şəmşəddin və Qazax mahallarının başçısı təyin edildi. Xidmətlərinə görə Həsənsuyundan başlamış Şahdağına qədər olan ərazini onun ixtiyarına verdilər. Lakin bu səlahiyyət uzun sürmədi. Ona böhtan atdılar ki, guya 40 nəfər çar əsgərini öldürmüşdür. A. S. Yermolov da bunu bəhanə gətirib general-leytenant Velyaminova tapşırmışdı ki, Nəsib sultanı və Mustafa ağanı nəzarətdə saxlasın. Qorxulu adamlardır, xalqı iğtişaşa qaldırmaq üçün məqam axtarırlar. Mən qəti surətdə deyirəm, əgər lazımdırsa, onları həbsə alın, inanılmış nəzarətçilərlə Mozdok komendaturasına aparıb təhvil verin. Bu tərəfdən də knyaz V.Q.Madatov xüsusi tapşırıqla Yelizavetpola göndərilmişdi ki, təxirə salmadan Nəsib sultanla Mustafa ağanı həbsə alsın.

1819-cu ildə general-leytenant V.Q.Madatov Gəncəyə gəlib Nəsib sultanı və Qazax mahalı kənd sakini şair Mustafa ağa Arifi yanına çağırtdırıb həbsə alaraq Tiflisə aparmış və oradan da onları Kazana, bir rəvayətə görə isə Xarkov şəhərinə göndərmişdir. Beləliklə, Nəsib sultan tutulub Rusiyaya sürgün olundu. Nəsib sultan 11 may 1819-cu ildə öldürülüb.

Onun dövründə 30 yanvar 1801-ci ildə Rusiya İmperiyasının himayəsinə girən Kartli-Kaxeti çarı XII David rus ordusunun köməyi ilə Borçalı, Qazax, Şəmşəddil sultanlıqlarını işğal etdi. 1802-ci ildə Rusiya İmperatoru I Aleksandrın əmri ilə Kartli-Kaxeti çarlığı ləğv olundu. Onun ərazisində mərkəzi Tiflis şəhəri Gürcü quberniyası təşkil edildi. İnzibati-ərazi baxımından Gürcü quberniyası Yuxarı Kaxetiya (Telav), Aşağı Kaxetiya (Sıqnax),Yuxarı Kartalaniya (Duşet), Orta Kartalaniya (Qori), Aşağı Kartalaniya (Tiflis) və Somxetiyaya (Lori) bölünürdü.

Həmçinin yeni işğal edilmiş Qazax, Borcalı, Şəmşəddil sultanlıqların ərazisi də yeni inzibati adla distansiya adlandırılaraq mərkəzi Tiflis şəhəri olan Gürcü quberniyasının tərkibinə verildi. Gürcü carlarından fərqli olaraq bu üç sultanlıqları idarə edən sülalələr hakimiyyətdən uzaqlaşdırılmamışdı. Sultan titulunu daşıyaraq eyni vaxtda onlar rus hərbi qulluğunda hesab olunurdular. Lakin Rusiya imperiyasına tabe olsalar da, zaman-zaman daim müstəqillik uğrunda çarpışmışdılar. Bu da sultanlıqların ləğvinə səbəb oldu. Şəmşəddil sultanlığı 1819-cü ildə ləğv edildi və Rusiya imperiyasının XIX əsrin 40-cı illərinin növbəti ərazi islahatlarına qədər onun ərazisi Tiflis quberniyasının Tiflis qəzasının tərkibinə qatıldı.

Göründüyü kimi, tarixi faktları və həqiqətləri heç vaxt inkar etmək olmaz. Xalqımızın qədim zamanlardan yaşadığı Şəmşəddil güşəsi sadəcə yer adı olmayıb. Şəmşəddil - ana dilimizin tarixinin bütün sahələri ilə əlaqədar olan, qədim məlumatların müəyyən hissəsini bizə çatdıran, zəngin türk genetik olan

möhtəşəm bir abidədir. Azərbaycanın tarixi ərazisinin tərkib hissəsi kimi Şəmşəddil, qoynunda göz açdıqları, havasını udduqları, suyundan içdikləri türk əcdadlarımızın yadigarıdır.

## ƏDƏBİYYAT


**1.** Схема взятия Гянджи. // ÜQVIA, f.VUA, d-4278, ç.2.

**2.** Высшие классы коренного населения Кавказского края и правительственные мероприятия по определению их сословных прав. Исторический очерк. Составитель делопроизводитель канцелярии Наместника Его Императорского Величества на Кавказе Линден В. Тифлис. Издание Канцелярии Наместника Е.И.В. на Кавказе. 1917 год: Оглавлени - Глава II. Мусульманские районы Закавказья, входящие в состав Эриванской, Елисаветпольской, Бакинской и отчасти Тифлисской губерний, стр. 23-24

**3.** Акты, собранные Кавказской Археографической комиссией. (АКАК). Архив главного управления наместника Кавказского. Том I. Напечатан под редакцией, представителя комиссии ст.сов. Адольфа Петровича Берже. Тифлис. Типография Главного Управления Наместника Кавказского. 1866 год. Оглавление: Часть вторая: XII. Закавказские Мусульманские владения: IV. Памбак. 805. Письмо генерал-майора Лазарева к генерал-лейтенанту Кноррингу, от 5-го августа 1801 года., стр. 601

**4.** AKAK.Tom VI, ç.1, №1022

**5.** Пётр Григорьевич Бутков. Материалы для новой истории Кавказа с 1722 по 1803 год. Часть первая. Санкт-Петербург, 1869 год.

**6.** Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI- начале XIX вв., с.134-135

**7.** Məmmədova E.K. Azərbaycanın tarixi coğrafiyası. Bakı, 2016

**8.** Çingizoğlu Ənvər. Zülqədər eli, "Soy" dərgisi, 1(21) 2009.

**9.** Çingizoğlu Ənvər. Şəmşəddil sultanlığı, Bakı: Mütərcim, 2012, səh 208.

**UOT 94(479.24)**

# AZƏRBAYCAN RESPUBLİKASINDA YÜNGÜL VƏ YEYİNTİ SƏNAYESİNİN İNKİŞAF TARİXİNDƏN

***Aytən Şiraz qızı Cəfərli***
***Bakı Dövət Universiteti***
*halfmoon2013@yandex.ru*

**Açar sözlər:** *Sənaye, inkişaf, yeyinti sənayesi, ixrac ,iqtisadiyyat*

*Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra istər neft sənayesində, istərsə də sənayenin qeyri-neft sahələrində əsası Heydər Əliyev tərəfindən qoyulmuş sürətli inkişaf tempi başladı. Belə ki, artıq son illər ərzində yeyinti və yüngül emal sənayesində Azərbaycan nəinki ümumdaxili tələbatını ödəyir, hətta bəzi məhsulları Türkiyə, Rusiya və s. kimi dövlətlərə ixrac da edir.*

# ИЗ ИСТОРИИ РАЗВИТИЯ ЛЕГКОЙ И ПИЩЕВАЯ ПРОМЫШЛЕННОСТЬ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

***Айтан Джафарли***

**Ключевые слова:** *Промышленность, развитие, Пищевая промышленность, экспорт, экономика*

*В этой статьеизучены роль и значение пищевой и легкой промышленности в развитии экономики страны. С учетом сырьевая база отраслевого производства и другие факторы изучены также и вопросы рационального территориального размещения производств и аграрно промышленной интеграции. Определены и анализированы факторы инфраструктур предприятий отраслей для эффективного использования местной сырьевой базы и изучены тенденции развития. В основе стратегия и политика государство по развитию промышленности изучены и анализированы сдерживающие факторы развитие отраслей пищевой и легкой промышленности. С учетом социально-экономического значения отраслей пищевой и легкой промышленности в Азербайджане и в ее экономике изучены и анализированы потенциал и возможности доведение ранее достигнутого уровня по всем показателем.*

# A BRIEF OVERVIEW ON THE HISTORY OF THE FOOD AND LIGHT INDUSTRY OF AZERBAIJAN

***Aytan Jafarlı***

**Key words:** *Industry, development, the food industry, export, economy*

*This article studied the role and importance of food and light industry in the economic development of the country. Given the raw material base of industrial 105 productions, and other factors also studied issues of rational territorial distribution of production and agro-industrial integration. Identified and analyzed factors enterprise infrastructure sectors for the effective use of local raw material base and studied development trends. At the heart of the strategy and policy of the government on the development of the industry studied and analyzed constraints the development of industries of food and light industry. On the basis of the results obtained from the study of scientific works of the scientist and the experience of Azerbaijan and foreign countries, conclusions and suggestions are given, which are considered during the articles. Taking into account the socio-economic importance of industries of food and light industry in Azerbaijan and its economy are studied and analyzed the potential and possibilities of bringing the previously achieved level of all indicators.*

Azərbaycan Respublikasının inkişafında sənayenin xüsusi rolu vardır. Hal-hazırda sənayeləşmə ölkəmizdə sürətli bir şəkildə həyata keçirilir. Sənayenin neftlə yanaşı, maşınqayırma, yeyinti, emal, metallurgiya və s. kimi sahələri də inkişaf etməkdədir. Müstəqil Azərbaycan sənayesinin yenidən canlanması Heydər Əliyevin adı ilə bağlıdır.Son illərdə də bu siyasət uğurla davam etdirilir və yeni sənaye mərkəzləri yaradılmaqdadır.

Yüngül sənaye əhalini parça, geyim, ayaqqabı və digər əşyalarla təmin edən sahələr qrupundan ibarət olan sahə və yarım sahələri özündə birləşdirir. O emal sənayesinə aid olmaqla toxuculuq, ayaqqabı, gön-dəri, xəz-dəri, tikiş və s. bu kimi sahələri əhatə edir. Yüngül sənaye kənd təsərrüfatı, maşınqayırma, və kimya sənayesi ilə sıx əlaqəli fəaliyyət göstərən sahədir. Kənd təsərrüfatı yüngül sənayeni ayrı-ayrı xammal növləri ilə, maşınqayırma – avadanlıqlarla, kimya sənayesi isə liflərlə və boyalarla təmin edir.

Yeyinti və yüngül sənaye emal sənayesinin Respublikada son illər müəyyən qədər inkişaf etmiş sahəsidir. Daxili tələbatı ödəməklə yanaşı, həmçinin bu sahənin bir sıra məhsulları xarici bazarlara da çıxarılır. Bəzi məhsullar bir neçə xarici ölkələrə ixrac edilir. Belə ki, “Mingəçevir tekstil”

Məhdud Məsuliyyətli Cəmiyyət hazırda daha çox pambıq mahlıcı ixrac edir. Lakin bununla yanaşı müxtəlif iplik, o cümlədən pambıq ipliyi, pambıq poleste qarışımı və sintetik ipliklər də istehsal edir. İstehsal olunan məhsul isə daxili bazarları təmin etməklə yanaşı, xarici bazarlara, Türkiyə, Rusiya və digər Avropa ölkələrinə ixrac olunur. Təkcə, 2017-ci ildə 7 milyon dollar həcmində, 2018-ci ilin yanvar ayı ərzində isə 650 min ABŞ dolları dəyəri olan iplik ixrac olunub. Bu da təbii ki, öz növbəsində əhalinin məşğulluq səviyyəsinin artmasında, eyni zamanda ölkə əhalisinin yüngül sənaye məhsullarına olan tələbatını daxili istehsal hesabına təmin edilməsinə, idxaldan asılılığın azaldılmasına, ölkədə yeni iş yerlərinin açılmasına səbəb olur. [12].

Yeyinti sənayesi öz tərkibində bir çox yarım sahələri birləşdirməklə sənaye sahələri arasında ən irilərdən biridir. Bu sahələr öz tərkibində müxtəlif müəssisələri birləşdirməklə xammalın ilkin emalından yəni, şəkər,tərəvəz, süd,tütün və s. tutmuş onun təkrar emalını çörək bişirmə, şirniyyat, pivə istehsalı və s. əhatə edir. Yeyinti sənayesi hesabına ölkənin ərzaq fondu formalaşdırılır və ölkədə strateji ərzaq ehtiyatı yaradılır.

Qeyd etdiyimiz kimi, yeyinti sənayesi bir sıra xüsusiyyətlərinə görə sənaye sahələri arasında ön sıralardan birini tutur. Bu xüsusiyyətlərdən istehsal edilən məhsulun miqdarını və bu sahədə məşğul olan əhalinin sayını göstərmək olar. Bu sahə respublikamızın təsərrüfatının ixtisaslaşmış sahələrindən biridir. 18 Yeyinti sənayesində şərab, konserv, tütün və mineral sular istehsal edilən əsas məhsullardır. Şərabçılıq ölkəmizin ən geniş yayılmış sahələrindən biridir. Üzümün ilkin emalı zavodları əsasən onun becərildiyi rayonlarda yerləşir. Sonrakı mərhələ yəni, şərab və konyak istehsalı isə Bakıda (1 və 2 saylı), Gəncədə, Göyçayda, Şəmkirdə, Xanlarda, Şamaxıda və Naxçıvanda fəaliyyət göstərir. Azərbaycanın şərab zavodları demək olarki, bir sıra dünya dövlətlərinin zavodları ilə səsləşir. 60 markadan çox şərab, o cümlədən 17 növ turş şərab ("Bayan", "Alşərab", "Sadıllı", "Mədrəsə", "Novruzlu", "Qarakənd"), 20 növ portveyn tipli tünd desert şərabı ("Ağstafa", "Alabaşlı", "Ağdam", "Qızıl şərbət", "Qara Çanaq", "Mil", "Göytəpə", "Qarabağ", "Şahbuz", "Azərbaycan", "Şamaxı", "Kürdəmir") və konyaklar ("Göygöl"-3,4,5 ulduzlu, "Bakı", "Yubileyni") istehsal edirdilər. Hazırda ölkə ərazisində 50 dən çox alkoqollu içki, 35 pivə istehsal edən müəssisə fəaliyyət göstərir. Konserv sənayesi müəssisələrində meyvə-tərəvəz, o cümlədən meyvə və balıq məhsulları emal edilir. Xammal bazalarına yaxın olan meyvə-tərəvəz konservi müəssisələri Xaçmaz iqtisadi rayonunda çoxdur. Bu sahə üzrə Quba-Xaçmazda konserv kombinatı, Quba, Qusar və Xudat şəhərlərində konserv zavodu fəaliyyət göstərir. Naxçıvan iqtisadi rayonunda Ordubad, Şəki-Zaqatala iqtisadi rayonunda Şəki, Qəbələ, Balakən, Qax, Nic, Aran iqtisadi rayonunda Ucar, Göyçay, Sabirabad, Lənkəran-Astara iqtisadi rayonunda Lənkəran və Masallı əsas konserv sənayesi mərkəzidir. Xəzər dənizinin və Kür çayının balıq

ehtiyatlarından istifadə edilməsi əsasında Aran iqtisadi rayonunda Banka balıq kombinatı, Mingəçevir, Hacıqabul və Xıllı balıq zavodları işləyir. Bunlardan əlavə Lənkəran-Astara iqtisadi rayonunda yerləşən Lənkəran balıq zavodu, Nərminabadlı kombinatı, Quba-Xaçmazda olan Xudat balıq kombinatı, Abşeron iqtisadi rayonuna aid olan Hövsandakı balıq kombinatı, H.Z.Tağıyev qəbəsindəki zavod əsas balıq emal müəssisələridir.

Respublikanın su anbarlarında, şirin sulu göllərində balıq yetişdirmə zavodları vardır. Onların çoxu Kürün mənsəbində yerləşən Neftçala rayonu ərazisindədir. 19 Yeyinti sənayesinin mühüm sahələrinə aid olan ətin emalı Bakı, Gəncə, Şəki, Mingəçevir, Naxçıvan, Ağdam, İmişli, Lənkəran və Xırdalanda yerləşən ət kombinatlarında aparılır. Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Lənkəran, Xırdalan və s. ərazilərdə süd emalı müəssisələri yerləşir. Bakı, Gəncə, Naxçıvan, Kürdəmir, Ağdaş, Yevlax, Şabran və Giləzidə respublika əhəmiyyətli unüyütmə kombinatları fəaliyyət göstərir. Sənayenin bu sahələri və çörəkbişirmə ölkənin daxili tələbatının ödənilməsinə xidmət edir. Hazırda çörəkbişirmə üzrə şəhərlərlə yanaşı kənd və qəsəbələrdə də kiçik müəssisələr (mini dəyirmanlar və çörəkbişirmə sexləri) yaradılır, onların şəbəkəsi getdikcə genişləndirilir [5, s.5].

Yeyinti sənayesinin mühüm bir hissəsini respublikamızın müxtəlif regionlarında mövcud olan müalicə əhəmiyyətli mineral suların qablaşdırılmasıdır. Bu məqsədlə istifadəyə yararlı olan mineral sulara İstisu, Sirab, Badamlı, Vayxır, Darıdağ aiddir. Artıq bu istiqamətdə bir neçə müəssisə də fəaliyyət göstərir. Şahbuzda və Naxçıvanda “Badamlı” və “Sirab” kimi sudoldurma müəssisələri respublikamızın əhalisinin müalicəvi suya olan tələbatının böyük bir hissəsinin ödənilməsini təmin edir. Badamlı zavodu 1949-cu ildən, Sirab zavodu isə 1976-cı ildən bugünə kimi fəaliyyət göstərir.

Azərbaycanda yeyinti sənayesinə aid adı yuxarıda çəkilən istehsal obyektləri ilə yanaşı çayın ilkin emalı üzrə Lənkəran-Astara iqtisadi rayonunda fabriklər, Bakı və Lənkəran şəhərlərində çayəkilib bükülməsi fabrikləri yerləşir. Azərbaycan Respublikasında Lənkəran çayı ən keyfiyyətli çay növü hesab edilir. Hələ 1981-ci ildə Leypsiqdə keçirilən müsabiqədə “Azərbaycan buketi” mükafatına və qızıl medala layiq görülmüşdür. 2002-ci ildə Madriddə keçirilən beynəlxalq müsabiqədə Azərbaycan çayı “XXI əsr Avropanın qızıl mükafatına”, 2005-ci ildə Madriddə keçirilən “Keyfiyyət və texnologiyaya görə” müsabiqəsində Lənkəranın “Təbii çayı” Avropanın daha bir “Qızıl medal”ına layiq görülmüşdür. [6, s.10].

Bunlarla yanaşı, Zaqatala iqtisadi rayonunda fındıq təmizləmə zavodu, xına qablaşdırılması müəssisəsi, Abşeronun Maştağa qəsəbəsində zeytun emalı zavodu, Bilgəhdə zəfəran emalı zavodu vardır. Bakı, Sumqayıt və Gəncədə qənnadı fabrikləri vardır.

Cədvəl 1.
Azərbaycan Respublikasında fəaliyyət göstərən yüngül sənaye müəssisələrinin sahələr üzrə sayı, 2005-2013-cü illər üzrə

| | 2005 | 2009 | 2010 | 2012 | 2013 |
|---|---|---|---|---|---|
| Toxuculuq sənayesində fəaliyyət göstərən müəssisələrin sayı | 94 | 114 | 85 | 72 | 72 |
| dövlət | 23 | 18 | 16 | 14 | 14 |
| qeyri-dövlət | 71 | 96 | 69 | 58 | 58 |
| Geyim istehsalı ilə məşğul olan müəssisələrin sayı | 93 | 95 | 90 | 75 | 75 |
| dövlət | 12 | 7 | 10 | 9 | 8 |
| qeyri-dövlət | 81 | 88 | 80 | 66 | 67 |
| Dəri və dəridən məmulatların və ayaqqabıların istehsalı ilə məşğul olan müəssisələrin sayı | 29 | 25 | 21 | 21 | 23 |
| dövlət | 2 | 1 | 1 | - | - |
| qeyri-dövlət | 27 | 24 | 20 | 21 | 23 |

*Qeyd: Cədvəl ARDSK-nın məlumatları əsasında hazırlanmışdır.*

Cədvəlin təhlilindən gördüyümüz kimi, yüngül sənaye müəssisələrində illər üzrə istər dövlət, istərsə də qeyri dövlət müəssisələrində ən çox yüksəliş 2009-cu ildə olmuşdur. Sonrakı illərdə istər toxuculuq istərsə də geyim istehsalı, dəri və ayaqqabı istehsalında müəyyən qədər geriləmə baş vermişdir. Bu geriləmənin də bir sıra daxili və xarici səbəbləri vardır [13].

Lakin bütün bu inkişafa baxmayaraq yeyinti sənayesi tələb olunan və imkanına uyğun fəaliyyət göstərmir. Buna görə də gözlənilən nəticəni əldə edə bilmir. Respublikamızda yeyinti sənayesinin inkişaf etdirilməsi üçün bir sıra üstünlüklər vardır. Bunlara aşağıdakıları aid etmək olar:

-yeyinti sənayesinin tarixi ənənələri;

-yeyinti sənayesinin istehsalı üçün zəngin xammal bazasının olması;

-ölkəmizdə yetişdirilən meyvə-tərəvəz məhsullarının bir çoxunun dünyada analoqunun olmaması;

-bir sıra istehsalatların respublikanın kiçik və orta şəhərlərində yerləşdirilməsi imkanı və ərazi ehtiyatı;

-nəqliyyat daşımaları baxımından əlverişli iqtisadi-coğrafi mövqe;

-potensial ixrac bazarlarına yaxınlıq.

Qeyd etdiyimiz bütün bu imkanlar respublikamızda yüngül və yeyinti sənayesinin inkişaf etdirilməsi üçün mühüm əhəmiyyət kəsb etməkdədir. Məhz yeyinti sənayesini inkişaf etdirmək məqsədi ilə daxili və xarici bazar üçün məhsul istehsalının artırılması, həmçinin ilk növbədə fəaliyyətdə olan müəssisələrin yenidən qurulması, genişləndirilməsi, xarici investisiyaların cəlb edilməsi, digər yeyinti məhsulları istehsalçıları ilə əməkdaşlıq və kooperasiya əlaqələrinin qurulması, MDB və yaxın xarici ölkələrin bazarlarına keyfiyyətli məhsulun ixrac edilməsi, emal-yeyinti sənayesinin inkişafı üçün xammal mənbəyi hesab edilən kənd təsərrüfatı məhsullarının bölgələr üzrə inkişafı, daxili və xarici istehlak bazarının tələbatının rəqabətədavamlı yeyinti məhsullarla təmin edilməsi, yeyinti sənayesi üçün xammal və hazır məhsulun ekoloji təmizliyinin, keyfiyyətinin dünya standartları 21 səviyyəsinə çatdırılması, emal sənayesi üçün tələb olunan avadanlıqların respublikamızda istehsalının təşkil edilməsi zəruridir [8].

Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2004-cü il tarixli 24 nömrəli fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)” da Azərbaycan Respublikasının regionlarında qida sənayesinin inkişafı üzrə önəmli tədbirlər nəzərdə tutulmuş və bu tədbirlər icra edilmişdir [1].

Proqramın icrası qida sənayesinin inkişafına müsbət təsir göstərmişdir. Proqramın icrası nəticəsində regionlarda çoxsaylı sənaye müəssisələri fəaliyyətə başlamış, bəzi sənaye müəssisələrinin fəaliyyəti yenidən qurulmuşdur.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 14 aprel tarixli 80 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət proqramı”na regionlarda yeyinti sənayesinin inkişafı ilə bağlı önəmli tədbirlə daxil edilmişdir. 2011-ci ildə qida məhsullarının istehsalı sahəsində Ağcabədi rayonunda “Gilan” MMC tərəfindən inşa olunan süd emalı zavodu, Samuxda “NAA Aqrotara” MMC-nin meyvə qurudulması və emal müəssisəsi, Tovuz rayonunun Bozalqanlı kəndi ərazisində tikilmiş süd emalı zavodu, Ağcabədi rayonunun Ağabəyli kəndində tikilən “Atena” süd məhsulları kombinatı, Ağcabədi şəhərində yeni süd emalı zavodu, İmişli rayonunda “Azərsun Holding” şirkətinin “Green Land“ yem fabriki, “Gilan Qəbələ Konserv Zavodu” MMC-nin Qəbələ limonad zavodu”, Aqroinvestkom” MMC-nin Şəki şərab zavodu, Oğuz şəhərində qarğıdalı emalı və qlükoza istehsalı müəssisəsi, Ağsuda “Az-Granata” MMC-nin şirə və şərab emalı zavodu, Ağsuda çörək zavodu fəaliyyətə başlamışdır [3].

2010-cu ildə Tərtər rayonunda “Gilan” MMC tərəfindən inşa olunan süd emalı zavodu, Gəncədəki “Jardin Royal” şokolad fabriki, Qəbələdə meyvə-tərəvəz saxlamaq üçün tikilmiş soyuducu anbar və meyvəçeşidləmə sexi, Abşeron rayonunun Masazır qəsəbəsində yodlaşdırılmış və rafinadlaşdırılmış

qida duzu zavodu, "Cəlilabad Şərab-2" Açıq Səhmdar Cəmiyyətinin şərab zavodu, "Azərsun" Holdinqin "Natural Green Land kənd təsərrüfatı müəssisəsinin konserv zavodu, Qəbələdəki "Gilan" konserv zavodunda yaradılan yeni istehsal sahələri, Zaqatalada "İntertotabakko" MMC-nin tütün emalı zavodu, Zaqatala süd emalı zavodu, İsmayıllı rayonunun Hacıhətəmli kəndində fəaliyyət göstərən 200 ton 22 illik istehsal gücünə malik "Monolit" MMC-nin İsmayıllı şərab-2" Açıq Səhmdar Cəmiyyəti, "Aqrovest" MMC tərəfindən Zaqatala rayonunda inşa edilən fındıq məmulatları istehsal zavodu fəaliyyətə başlamışdır.

2009-cu ildə Goranboyda "Gilan və Knauf Gipso-karton" Məhdud Məsuliyyətli Cəmiyyətinin ərazisində yeni zavod, Lənkəran rayonunun Sütəmurdov kəndi ərazisində yeni mini çay fabriki, Naxçıvan şəhərində "Badamlı" mineral sular zavodu, Samux rayonunda yeni süd emalı müəssisəsi istismara verilmişdir. Qeyd etmək lazımdır ki, ölkəmizdə qida sənayesi sahəsində iri sənaye müəssisələri fəaliyyət göstərməkdədir. 1991-ci ildən Azərbaycanda fəaliyyətə başlayan "Azərsun Holding" MMC qida istehsalı, pərakəndə satış və kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən ölkənin qabaqcıl şirkətidir.

Qida sektorunda, Azərbaycanı istehsalçı və ixracatçı ölkə halına gəlməsində böyük rol oynayan "Azərsun Holding" tərkibində fəaliyyət göstərən zavodların güclü istehsal potensialı ilə yanaşı geniş ixracat şəbəkəsinə sahibdir. "Azərsun Holding" MMC-də Sun Tea Azərbaycan, Bakı Yağ fabriki, Zeytun Emalı Fabriki, Qafqaz Konserv zavodu, Azərbaycan Şəkər İstehsalat Birliyi, Zaqatala Fındıq Fabriki, Qənd istehsalı fabriki, Qida paketləmə Müəssisəsi, Azərbaycan Duz istehsalat birliyi, Biləsuvar Konserv Zavodu kimi iri qida sənayesi müəssisələri fəaliyyət göstərməkdədir.

"Gilan Holding" şirkətlər qrupuna Qəbələ Konserv zavodu, Qəbələ Fındıq Emalı zavodu, Bakı Jalə suları zavodu, Gilan Alko spirt zavodu, Makaron zavodları, Dəyirmanlar, süd emalı zavodları və digər qida sənayesi müəssisələri daxildir. Ölkə ərazisində çoxsaylı şərabçılıq, quşçuluq, taxıl emalı, süd məhsullarının emalı, müxtəlif qida sənayesi məhsulları istehsalı və kənd təsərrüfatı məhsullarının emalı üzrə ixtisaslaşmış kiçik və orta sənaye müəssisələri istifadəyə verilmişdir.

Ölkəmizdə istehsal olunan bir çox qida sənayesi məhsulları dünya bazarına ixrac olunmaqdadır. "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nın təsdiq edilməsi ölkəmizdə qida sənayesində yeni bir səhifə açmışdır [2].

Dövlət Proqramının əsas məqsədi ölkənin hər bir vətəndaşının sağlam və məhsuldar həyat tərzi üçün onun qəbul edilmiş normalara uyğun ərzaq məhsulları ilə tam təmin edilməsinə nail olmaqdır. Bu məqsədə nail olmaq üçün Dövlət Proqramı çərçivəsində aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulur:

-ölkədə ərzaq məhsulları istehsalını artırmaq;
-əhalini təhlükəsiz və keyfiyyətli ərzaq məhsulları ilə təmin etmək;
-ərzaq təminatı sahəsində risklərin idarə olunmasını təmin etmək;
-ərzaq təminatı sisteminin institusional inkişafını həyata keçirmək və sahibkarlıq mühitini yaxşılaşdırmaq;

Qeyd olunan vəzifələrin yerinə yetirilməsi üçün bu sahədə həyata keçiriləcək tədbirlər ölkədə sabit və adekvat ərzaq təklifinin formalaşdırılmasına, səmərəli istehsal və satış infrastrukturunun yaradılmasına, ərzaq məhsullarının keyfiyyətinə nəzarət sisteminin təkmilləşdirilməsinə və hər bir vətəndaşın ərzaq məhsullarına çıxışının təmin olunmasına yönəldiləcəkdir.

## ƏDƏBİYYAT

1.“Azərbaycan Respublikası regionlarının 2004-2008-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", Bakı şəhəri, 11 fevral 2004-cü il № 24
2. 2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı, 2008-ci il 25 avqust 3, “Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”, Bakı şəhəri, 14 aprel 2009-cu il. № 80
4. "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" Azərbaycan Respublikası Prezidentinin 27 fevral 2014-cü il tarixli 118
5. Azərbaycan qəzeti, 11 aprel, 2014 s. 5
6. İki sahil qəzeti,12 sentyabr 2014-cü il, s.10-11
7. Əliyev M.T. Azərbaycan iqtisadiyyatının formalaşması və inkişaf problemləri. Bakı: “Mütərcim”, 2001
8.Əliyev İ. Ölkədə qeyri-neft sənayesinin inkişaf strategiyası (www. yeniazərbaycan.com) (12.04.2014)
9.Məmmədov S.M. “Yüngül sənayenin inkişafı Azərbaycanın makroiqtisadi siyasətinin tərkib hissəsi kimi”, Dövlət büdcəli elmi-tədqiqat işi. Bakı 2011-ci il
10. http// www.respublika. news az.
11.http// www.meclis.gov.az
12. http://atv.az/news/economy_ 08.03.2018
13.https://www.stat.gov.az. Azərbaycan Dövlət Statistika Komitəsinin rəsmi saytı

**MÜNDƏRİCAT**

***İradə Mehdiqulu qızı Hüseynova.*** BAKI DÖVLƏT UNİVERSİTETİNİN KEÇDİYİ ŞƏRƏFLİ YOL....................................................................3
***Abbas Qadir oğlu Seyidov, Taleh Vasif oğlu Əliyev.***BƏRDƏ-TƏRTƏR BÖLGƏSİNİN BƏZİ TARİXİ, ARXEOLOJİ VƏ MEMARLIQ ABİDƏLƏRİ HAQQINDA....................................................................11
***Pərviz Şahin oğlu Səfərov .*** XX ƏSRİN 90-CI İLLƏRİNİN ƏVVƏLLƏRİNDƏ QARABAĞ MÜNAQİŞƏSİ VƏ ÖLKƏDƏKİ İCTIMAİ-SİYASİ VƏZİYYƏT AZƏRBAYCAN RESPUBLIKASININ RUSİYA, İRAN, TÜRKİYƏ İLƏ HÖKUMƏTLƏRARASI-PARLAMENTLƏRARASI MÜZAKİRƏLƏRİNDƏ....................................................................21
***Sehran İxtiyar oğlu Səfərov.*** XVII-XX ƏSRLƏRDƏ BÖYÜK BRİTANİYANIN ŞƏRQ SİYASƏTİ....................................................................32
***Afiq Nəsrəddin oğlu Abdullayev.*** HERALDİKA VƏ ONUN İNKİŞAF TARİXİ....................................................................45
***Urfan Davud oğlu Həsənov.*** GENERAL SİSİANOVUN QAFQAZDA HƏRBİ ƏMƏLİYYATLARI VƏ ÜSYANLAR............................51
***Ceyhun Mübariz oğlu Ələkbərov.*** BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ AZƏRBAYCAN-BÖYÜK BRİTANİYA ƏMƏKDAŞLIĞI....................................................................60
***Nuranə Niyazi qızı Mazanova.*** XIX ƏSRDƏ ŞƏKİ BÖLGƏSİNDƏ İPƏK TOXUCULUĞUNUN VƏZİYYƏTİ....................................................72
***Şəhla Rafiq qızı Məmmədli, İlham Yaqub oğlu Həsənov .*** TARİXİN TƏDRİSİ PROSESİNDƏ MƏNƏVİ DƏYƏRLƏRİN AŞILANMASI..........81
***Rəsmiyyə Mürsəl qızı Məmmədova.*** ŞİMALİ AZƏRBAYCANDA TAXILÇILIQ (XIX əsrin ikinci yarısı-XX əsrin əvvəlləri)...............................89
***Elnarə Nəcəf qızı Məmmədova.*** "AZƏRBAYCAN MƏKTƏBİ" VƏ TARİXİN TƏDRİSİ METODİKASININ BƏZİ MƏSƏLƏLƏRİ...................95
***Саида Музаффар кызы Гаджиева, Адиль Мирабдулла оглы Мирабдуллаев.*** О ПЕРСПЕКТИВАХ РАЗВИТИЯ ЦЕНТРАЛЬНОЙ АЗИИ...................102
***İbrahim Məmməd oğlu Babayev.*** AZƏRBAYCAN RESPUBLİKASININ NEFT STRATEGİYASI VƏ DÖVLƏT MÜSTƏQİLLİYİNİN MÖHKƏMLƏNDİRİLMƏSİ....................................................................113
***Elmira Kazım qızı Məmmədova.*** ŞƏMSƏDDİL SULTANLIĞININ İNZİBATİ - ƏRAZİ BÖLGÜSÜ....................................................................124
***Aytən Şiraz qızı Cəfərli .*** AZƏRBAYCAN RESPUBLİKASINDA YÜNGÜL VƏ YEYİNTİ .SƏNAYESİNİN İNKİŞAF TARİXİNDƏN.........131

# YAZI QAYDALARI

- Məqalələr **Azərbaycan, ingilis** və **rus** dillərində jurnalın elektron ünvanına – **sevinc0610@mail.ru** göndərilir.

- Məqalələr **Microsoft Word** proqramında Times New Roman şrifti ilə 12 pt. ölçüdə 1,0 intervalla yazılmalıdır. Səhifə ölçüləri: sağdan və soldan 2,0 sm, yuxarıdan 2,5 sm, aşağıdan 2,2 sm olmalıdır.

- **Başlıq** ortada qara və böyük hərflərlə yazılmalıdır.

- Məqalənin quruluşu aşağıdakı bölümlərdən ibarət olmalıdır: müəllifin adı, ata adı və soyadı, iş yeri, elmi dərəcəsi və elmi adı, üç dildə açar sözlər və xülasə (100-150 sözdən ibarət, 12 pt. ilə) ədəbiyyat siyahısı. Hər üç dildə yazılmış xülasələr bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun olmalıdır.

- Məqalələrdə verilən **şəkil, rəsm, qrafik və cədvəllər** düzgün, aydın və mətn içərisində olmalı, onlara aid olan yazılar altında yazılmalıdır.

- **İstinadlar** mətn içərisində kvadrat mötərizədə göstərilməklə məqalənin sonunda əlifba ardıcıllığı ilə nömrələnməlidir. Məsələn: [1, 8].

- Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Simpozium, konfrans materiallarına və ya tezislərinə istinad edilərkən məqalə və ya tezisin adı göstərilməlidir.

- Məqalələrin həcmi: 5-12 səhifə.

- Məqalələr mütəxəssis rəyi (məxfi olaraq) əsasında jurnalın redaksiya heyətinin qərarı ilə çap olunur. Redaksiya düzəlişlər etmək üçün məqaləni müəllifə qaytara bilər.

- Məqalədə gedən hər hansı bir elmi yenilik, tezis və s. üçün müəllif şəxsən məsuliyyət daşıyır.

- Jurnalda dərc olunmayan məqalələr geri qaytarılmır.

# Tarix, insan və cəmiyyət

*Elmi-nəzəri və elmi-metodiki jurnal 2019, 4 (27)*

***Çapa imzalanmış 16.12.2019-cu il***
***Kağız formatı 60x84 1/16, çap vərəqi 17***
***Sifariş 512 , sayı 200***

***Bakı, Ü.Hacıbəyli küçəsi, 68***
***Telefon: (+994 12)493 05 85***
***E-mail: sevinc0610@mail.ru***
***www.adpu.edu.az***